Xalqın qəzeti!

# Xalq qəzeti

№ 270 (30386) 10 dekabr 2023-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

## Növbəti Qlobal İqlim Dəyişmələri Konfransı ölkəmizdə keçiriləcək

### Azərbaycan Prezidenti İlham Əliyev "Euronews" televiziyasına müsahibə verib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də "Euronews" televiziyasına müsahibə verib. Müsahibə dekabrın 9-da "Euronews"da yayımlanıb.**

AZƏRTAC həmin müsahibənin tam variantını təqdim edir.

**Müxbir:** Salam cənab Prezident!

**Prezident İlham Əliyev:** Salam!

**Müxbir:** Avropa Yenidənqurma və İnkişaf Bankının 2023-cü il üzrə hesablamalarına görə Azərbaycan və Mərkəzi Asiya regionu ölkələri ciddi iqtisadi inkişafa nail olublar. Bu güclü inkişaf sanksiyalar altında olan Rusiyadan miqrasiya və oradan daxil olan pul vəsaitləri ilə əlaqələndirilir. Bundan əlavə, regional idxal və ixrac sahəsində də artım müşahidə edilib, o cümlədən Çin ilə biznes əlaqələri var. 2024-cü ildə də həmin müsbət tendensiyanın davam edəcəyi gözlənilir. Bu inkişaf sizin ölkəniz üçün nə deməkdir?

**Prezident İlham Əliyev:** Azərbaycan haqqında danışarkən deməliyəm ki, bizim iqtisadi inkişafın təməlində sizin sadaladığınız amillər deyil, əsasən tərəfimizdən aparılmış islahatlar dayanır. Biz iqtisadiyyatımızı şaxələndirməyə, neft və qaz sektorundan asılılığı azaltmağa nail olmuşuq. Ancaq neft və qaz sektoru iqtisadiyyatımızın əsas hissəsi olmaqda davam edir. Bu il neft hasilatının cüzi aşağı düşməsi səbəbindən bizim iqtisadi artımımız nisbətən zəifdir. Lakin ötən illərə nəzər salsaq görərik ki, son 20 il ərzində Azərbaycanın ümumi daxili məhsulu (ÜDM) dörd dəfə artıb və bu, çox əhəmiyyətli nailiyyətdir. Bununla yanaşı, biz düşünülmüş sosial siyasət həyata keçirə bilmişik. Son 20 ildə biz yoxsulluq səviyyəsində yaşayan əhalinin sayını, təqribən, 50 faizdən 5,5 faizə endirə bilmişik. Bu onu nümayiş etdirir ki, enerji layihələrinin həyata keçirilməsi nəticəsində əldə edilmiş sərvət əhalimizin bütün seqmentləri arasında ədalətli bölünüb.

Biz, həmçinin xarici borcumuzun səviyyəsinin azaldılması istiqamətində fəal işlədik və bu gün bu rəqəm ÜDM-in 10 faizindən aşağıdır. Növbəti il üçün hədəf ÜDM-in 7 faizidir. Bu isə Azərbaycanın iqtisadiyyatının dayanıqlılığını nümayiş etdirir. Biz ümid edirik ki, gələn il iqtisadi artım daha böyük olacaq. Lakin həmin rəqəmlər, əslində, iqtisadiyyatın səmərəliliyi və insanların yaşayış standartlarının 100 faizini əks etdirmir. Elə ölkələr var ki, iqtisadi artımı olduqca aşağı səviyyədədir, lakin iqtisadiyyatı çox inkişaf etmişdir.

Beləliklə, ölkənin ÜDM-i nə qədər çoxdursa, artıma nail olmaq da o qədər çətin olur. Xüsusilə də bugünkü geosiyasi vəziyyətdə. Çünki bizim iki qonşumuz və əsas ticarət tərəfdaşlarımızdan olan Rusiya və İran sanksiya altındadır. Bunu nəzərə almaq lazımdır.

Ancaq bizim 2030-cu il üçün baxışımızın hədəfi və strategiyası öz resurslarımıza, maliyyə imkanlarımıza əsaslanır və qarşıdan gələn illərdə iqtisadi artımı təmin edəcək sahələrə yerli və xarici investisiyaların qoyuluşundan ibarətdir.

*(ardı 2-ci səhifədə)*

## Revanşizmdən xilas – Ermənistanın varlıq formulu

**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Ermənistan Respublikası baş naziri Aparatının birgə açıqlamasına Hayastanın bəzi dairələrinin yanaşması son dərəcə qeyri-konstruktivdir. Onlar elə görüntü yaradırlar ki, sanki bu açıqlama və ondan sonra həyata keçiriləcək sülh prosesi İrəvanın maraqlarına zidd olacaq. Mövcud xüsusda baş nazir Nikol Paşinyan iqtidarına qarşı kəskin fikirlər səsləndirilməkdədir və çox güman ki, qarşıdakı müddətdə bu fikirlər getdikcə çoxalacaq.**



Əslində, bu durum proqnozlaşdırılırdı. 44 günlük müharibənin nəticələrini təsdiqləyən 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata münasibət də hazırda birgə açıqlamaya olan münasibət kimi idi və bu yanaşma, demək olar ki, təxminən, öz qüvvəsində qalmaqdadır. Belə nəticəyə gəlmək mümkündür ki, Ermənistanda Azərbaycanla istənilən yumşalmanı süngü ilə qarşılayan kimlərsə mütləq olacaq.

*(ardı 4-cü səhifədə)*

## Qəzzada atəşkəsə "yaşıl işıq" yanmadı

Səhifə ⇨ 4

## İrəvanın "qara biznesi"

**SSRİ-nin dağılması nəticəsində digər müttəfiq respublikalar kimi dövlət müstəqilliyini bərpa edən Ermənistanın elə həmin ildən xarici yardımlardan asılı olduğu heç kimə sirr deyil. Başqa postsovet ölkələri 1991-ci ildən etibarən müstəqil daxili və xarici siyasət yürütməyə başlasalar da, Ermənistan kənar yardımlardan asılı olması səbəbindən bu imkandan məhrum oldu. Beləliklə, onun müstəqilliyi formal xarakter daşımağa başladı.**



Xaricdəki erməni diasporu da Ermənistanın siyasətinin formalaşmasında mühüm rola malik idi. Məsələn, 2009-cu il oktyabrın 10-da İsveçrənin Sürix şəhərində Ermənistan və Türkiyə arasında münasibətlərin normallaşmasını nəzərdə tutan iki protokolun ("Ermənistan Respublikası ilə Türkiyə Respublikası arasında ikitərəfli əlaqələrin inkişafı haqqında" və "Ermənistan Respublikası ilə Türkiyə Respublikası arasında diplomatik münasibətlərin qurulması haqqında" protokollar – S.H.) imzalanmasından bir həftə əvvəl – oktyabrın 1-də ölkənin sabiq prezidenti Serj Sarkisyan erməni icmasının kompakt halda yaşadığı Paris, Nyu-York, Los-Anceles, Beyrut və Rostov şəhərlərinə səfər etmişdi. Sarkisyan yalnız Ermənistan–Türkiyə münasibətlərinə dair diasporla məsləhətləşdikdən, onların fikirlərini öyrəndikdən sonra xarici işlər naziri Edvard Nalbandyanı Sürixə göndərmişdi.

*(ardı 8-ci səhifədə)*

## Senat Menendesə "good bye!" deməyə hazırlaşır

Səhifə ⇨ 4

## Azərbaycan beynəlxalq normalara sadiqdir

Səhifə ⇨ 6

## Bakı COP29-a evsahibliyi edəcək

**"Climatechangenews" saytının yaydığı məlumata əsasən, Azərbaycanın paytaxtı Bakı şəhəri BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransına (COP29) evsahibliyi edəcək. Məlumata görə, bu təşəbbüs Şərqi Avropa ölkələrinin bir qrupu tərəfindən irəli sürülüb.**



Qeyd edək ki, dekabrın 7-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatının birgə açıqlamasında bildirilib ki, xoş niyyətin təzahürü olaraq, Ermənistan Respublikası BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransına (COP29) evsahibliyinə öz namizədliyini geri götürərək, Azərbaycan Respublikasının namizədliyini dəstəkləyir.

"Azərbaycan Respublikası və Ermənistan Respublikası ümid edirlər ki, Şərqi Avropa Qrupuna daxil olan digər ölkələr də Azərbaycanın namizədliyini dəstəkləyəcək", deyə birgə açıqlamada vurğulanıb.

Yeri gəlmişkən, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Tərəflər Konfransı 1995-ci ildən hər il keçirilir. Bu tədbirin keçirilməsində əsas məqsəd dünyada iqlim dəyişikliyi ilə mübarizədə irəliləyişləri qiymətləndirməkdir. 1990-cı illərin ortalarından başlayaraq sözügedən konfrans çərçivəsində inkişaf etmiş ölkələrdə istixana qazlarının atmosferə tullantılarının məhdudlaşdırılması ilə bağlı icbari hüquqi öhdəlikləri ehtiva edən Kyoto Protokolu müzakirə olunmuşdu. 2011–2015-ci illərdə keçirilən sessiyalarda iqlim dəyişikliyi ilə mübarizədə ən əhəmiyyətli beynəlxalq sənəd hesab olunan Paris Sazişi müzakirə edilib və 2015-ci ildə qəbul olunub. Bu günədək 195 ölkə, o cümlədən, Azərbaycan bu razılaşmaya qoşulub.

Xatırladaq ki, Prezident İlham Əliyev dekabrın 6-da ADA Universitetində keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransına (COP29) evsahibliyi etməyə hazır olduğunu, eyni zamanda, bunun sülh istiqamətində növbəti mühüm addım ola biləcəyini vurğulayıb.

*

"Sevindiricidir ki, Azərbaycanın COP29-a ev sahibliyi etmək üçün namizədliyi ilə bağlı qrup daxilində ümumi konsensus var. Biz bütün ölkələrə, xüsusən də Şərqi Avropa Qrupuna və ev sahibi Birləşmiş Ərəb Əmirliklərinə göstərdikləri dəstəyə görə minnətdarıq. Biz COP29-un uğurunu təmin etmək üçün hər kəslə əməkdaşlıq çərçivəsində inklüziv işləyəcəyik. Qoy COP28 bizi hamı üçün daha davamlı və təhlükəsiz gələcəyə aparsın".

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, bunu ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci Sessiyasındakı çıxışında deyib.

Qlobal istiləşmə ilə bağlı ölkəmizin götürdüyü öhdəliklər barədə danışan nazir deyib: "Qlobal istixana effekti yaradan qazların emissiyalarının cəmi 0,15 faizi ölkəmizin payına düşür. Buna baxmayaraq emissiyaları azaltmaq üzrə ölkəmiz iddialı hədəflər qəbul etmişdir. Ssenarilərə uyğun olaraq qlobal istiləşməni 1,5 dərəcə daxilində saxlamaq məqsədilə, 1990-cı il ilə müqayisədə istixana effekti yaradan qazların emissiyalarının 2030-cu ilə qədər 35 faiz azaltmağı hədəf götürmüşük. Bununla yanaşı, biz bu il Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrimizi (NDC) yeniləyərək 2050-ci ilə qədər istixana effekti yaradan qazların emissiyalarının 40 faiz azaldılması olmaqla daha uzunmüddətli hədəf qoymuşuq".

Nazir Muxtar Babayev azad edilmiş ərazilərimizdə münaqişə sonrası həyata keçirilən genişmiqyaslı bərpa, yenidənqurma və reinteqrasiya işləri barədə də konfrans iştirakçılarını məlumatlandırıb. "Bu fəaliyyətlər iqlimə dost, ekoloji cəhətdən təmiz texnologiyalara, həmçinin "ağıllı" və "yaşıl" yanaşmalara əsaslanır. "Yaşıl enerji" zonasının yaradılması, dayanıqlı kənd təsərrüfatı, ekoloji cəhətdən təmiz nəqliyyat, ağıllı şəhərlər, ağıllı kəndlər kimi innovativ yanaşmalar və minlərlə hektar sahədə meşələrin bərpası vasitəsilə azad edilmiş əraziləri 2050-ci ilə qədər "Karbon neytral" zonasına çevirmək əzmindəyik.

Qlobal problemlər qlobal həllər tələb edir. Buna görə, ölkəmiz də iqlim dəyişikliyi ilə bağlı mühüm addımlar atmaqdadır. Emissiyaların atılmasında tarixi məsuliyyəti və iqlim dəyişikliyinə qarşı mübarizədə ölkələrin müxtəlif imkanlarını nəzərə alaraq, fəaliyyətimizin əsasını təşkil etməli olan ümumi, lakin fərqli məsuliyyət prinsipini dəstəkləyirik. Həmçinin iqlim fəaliyyətinin sürətləndirilməsi üçün vacib olan adekvat maliyyə dəstəyinin və texnologiya transferinin vacibliyini vurğulayırıq".

***XQ***

# Azərbaycan Prezidenti İlham Əliyev “Euronews” televiziyasına müsahibə verib

(əvvəli 1-ci səhifədə)

**Müxbir:** İnkişaf və investisiya üçün gələcəkdə hansı sahələri görürsünüz?

**Prezident İlham Əliyev:** Hökumətin siyasətinə gəldikdə, bizim əsas dövlət xərclərimiz azad edilmiş Qarabağa və Şərqi Zəngəzura yönləndiriləcək. Birincisi, ona görə ki, biz keçmiş məcburi köçkünləri mümkün qədər tez yerləşdirməliyik. 2026-cı ilin sonunadək biz 140 min insanı yerləşdirməyi planlaşdırırıq. Bunun üçün isə biz infrastruktura, yaşayış yerlərinin inşasına və sosial infrastruktura böyük vəsait yatırmalıyıq. Bununla yanaşı, 30 il işğal altında olmuş bu ərazilərin kənd təsərrüfatı, hidroelektrik enerjisi, günəş və külək enerjisi, turizm kimi sahələrdə böyük potensialı var. Bu, dövlət investisiya proqramının əsas sahəsi olacaq.

Xarici sərmayələrə gəldikdə, əlbəttə, yanacaq enerjisi sahəsinə investisiyaların qoyuluşu davam edəcək. Çünki təbii ehtiyatlar baxımından Azərbaycanda böyük potensial var, Avropada Azərbaycan qazına böyük ehtiyac var və bu ehtiyac artmaqdadır. Lakin çox əhəmiyyətli inkişaf bərpaolunan enerji mənbələri ilə bağlıdır. Hesab edirəm ki, bu, birbaşa xarici investisiyaların əsas istiqaməti olacaq. Biz artıq ötən ay regionun ən böyük, 230 meqavat gücündə olan və xarici investorlar tərəfindən tam maliyyələşdirilmiş günəş elektrik stansiyasının açılışını etdik. Növbəti 5-6 ildə isə biz 10 qiqavat həcmində günəş və külək enerjisi istehsal etməyi planlaşdırırıq. Zənnimcə, rəqəmsal transformasiya gündəliyimizlə yanaşı, sərmayə qoyuluşu üçün əsas sahələr bunlar olacaq.

**Müxbir:** Siz regionunuzda nəyi müşahidə edirsiniz – rəqabət, yoxsa əməkdaşlıq?

**Prezident İlham Əliyev:** Azərbaycana gəldikdə mən əməkdaşlıq görürəm. Bu da ölkəmizin siyasəti ilə bağlıdır. Biz hər zaman Azərbaycanı istənilən rəqabətdən, geosiyasi mübarizədən və ya böyük dövlətlərin toqquşmasından qorumaq istəmişik və hesab edirəm ki, buna müvəffəq olmuşuq. Azərbaycan bir çox böyük beynəlxalq oyunçular tərəfindən etibarlı tərəfdaş hesab edilir və biz bu əməkdaşlığın real nəticələrini görürük. Azərbaycanda enerji sahəsinin inkişafına nəzər salsanız görərsiniz ki, burada geniş beynəlxalq təmsilçilik var. Nəqliyyat sahəsinə baxsanız görərsiniz ki, hər iki – Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizləri Azərbaycandan keçir və bizim qonşularımız, müxtəlif regionlarda olan çoxsaylı ölkələr bundan faydalanır.

Siyasi inkişafa gəldikdə, burada da Azərbaycan müstəqil xarici və daxili siyasətə malik ölkədir və bu siyasəti milli maraqlara əsaslanaraq yürüdür. Əsas amillərdən biri ölkəni qarşıdurma, yaxud rəqabət arenasına çevirməməklə dövləti mənfi xarici təsirdən və daxili işlərə müdaxilədən qorumaqdır. Beləliklə, biz bu riskləri azaltmağı uğurla bacardıq. Bu səbəbdən bu gün Azərbaycan böyük beynəlxalq potensiala, müsbət beynəlxalq reputasiyaya malik ölkədir. Elə bir ölkə ki, son 20 ildə 300 milyard dollardan artıq sərmayə cəlb edə bilib.

**Müxbir:** Enerji təchizatı məsələsi son iki ildə Avropada ən çox müzakirə olunan mövzulardan biridir. Sizin ölkənizin enerji biznesi ilə bağlı baxışınız nədən ibarətdir?

**Prezident İlham Əliyev:** Bizim enerji sahəsinin inkişafı neft hasilatından təbii qaz istehsalına keçid edib. Bununla yanaşı, bizim neft hasilatımız və ixracımız hələ də bir çox ölkənin enerji təhlükəsizliyinin bir hissəsidir. Üç il öncə 3500 kilometr uzunluğunda inteqrasiya edilmiş qaz boru kəmərlərindən ibarət olan Cənub Qaz Dəhlizinin başa çatdırılması Azərbaycana özünün qaz təchizatının coğrafiyasını genişləndirmək imkanı yaratdı. Bu gün biz Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya və Rumıniyaya qaz ixrac edirik. Həmçinin biz Macarıstan və Serbiya ilə müqavilələr imzalamışıq. Bununla yanaşı, Albaniya da bizim qazın paylanılmasına dair planlarımıza daxildir.

Baxın, Avrasiyada və əsasən də Avropada neçə ölkə bizim tərəfdaşımızdır və Azərbaycan qazına olan tələbat artmaqdadır. Biz Rusiyaya qarşı sanksiyalara görə Avropa qitəsinə qaz təchizatının artırılması ilə bağlı Avropa Komissiyasının müraciətinə müsbət cavab verdik. Bu, bizim işgüzar əlaqələrimizin vacib hissəsi olmaqda davam edəcək.

Eyni zamanda, mən artıq bərpaolunan enerji sahəsinə toxundum. Bu gün Bakıda olduqca küləkli gündür və bu, normal hava şəraitidir və biz xüsusilə də Xəzər dənizində nəhəng potensiala malikik. Artıq 10 qiqavat həcmində külək və günəş enerjisi layihələrinə dair müqavilə və anlaşma memorandumları imzalanıb. Bu, Azərbaycana yanacaq enerjisindən bərpaolunan enerjiyə rahat keçid imkanı verəcəkdir. Bununla yanaşı, Avropa istehlakçıları da yaşıl enerji ilə təmin ediləcək.

**Müxbir:** Ölkənizin iqtisadi inkişafı ilə bağlı risklərə dair narahatlığınız nədən ibarətdir?

**Prezident İlham Əliyev:** Səmimi desəm, mən hər hansı bir risk görmürəm. Çünki bu günədək bizim iqtisadi inkişafımız müsbət olub, hətta daha mürəkkəb geosiyasi vəziyyətdə belə. Hətta işğal dövründə bizim iqtisadiyyatımız inkişaf edib. İndi isə ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa etmişik. Biz genişmiqyaslı iqtisadi islahatlar aparırıq ki, büdcədə daha çox vəsait toplansın. Biz gömrük və vergi inzibatçılığı sahəsində olduqca uğurlu islahatlar həyata keçirmişik. Biz bütün dövlət şirkətlərimizdə korporativ idarəçilik sistemi yaratmışıq və bunun bəhrəsini görürük.

Əlbəttə, bağlantı layihələrindən böyük həcmdə mənfəət əldə olunacaq. Artıq qeyd etdiyim kimi, biz Şimal–Cənub və Şərq–Qərb nəqliyyat dəhlizlərindən Azərbaycan ərazisindən keçən, müxtəlif istiqamətlərə daşınan 10 milyonlarla ton əlavə yük gözləyirik. Bu, məşğulluq, əlavə vəsait, Azərbaycanın geosiyasi əhəmiyyəti deməkdir. Regionumuzun, Avrasiyanın xəritəsinə baxsanız görərsiniz ki, bütün əsas nəqliyyat marşrutları bizim ərazidən keçir. Biz ən müasir nəqliyyat infrastrukturunu yaratmışıq. Bu da əlavə imkanlar yaradacaq. Üstəgəl yüz minlərlə keçmiş məcburi köçkünü məskunlaşdırmağı planlaşdırdığımız Qarabağ və Şərqi Zəngəzurun azad edilmiş əraziləri – bu da əlavə aparıcı qüvvə olacaqdır. Beləliklə, səmimi desəm nə iqtisadi sahədə, nə də digər sahədə ölkəmiz üçün hər hansı bir potensial riskləri görmürəm.

**Müxbir:** Yəni, heç bir risk yoxdur?

**Prezident İlham Əliyev:** Bu günə olan vəziyyətə mən risk görmürəm. Ola bilsin, potensial risklər sərhədlərimizin xaricindən qaynaqlana bilər. Azərbaycanın daxilində risklər yoxdur. Bizim çox sabit siyasi sistemimiz var, xalqımızın çox güclü birliyi var, xüsusilə işğal olunmuş ərazilərimizin azad edildiyi tarixi Qələbədən sonra. Bizim iqtisadi fəaliyyətimiz uğurludur. Bizim iqtisadiyyatımız özümüzü təmin edir, biz xarici kreditlərdən asılı deyilik. Qeyd etdiyim kimi, növbəti il xarici borc ÜDM-in sadəcə 7 faizini təşkil edəcək. Bizim konvertasiya olunan valyuta ehtiyatlarımıza və xarici borcumuza baxsanız görərsiniz ki, konvertasiya olunan valyuta ehtiyatlarımız borcdan on dəfə çoxdur. Beləliklə, başqa sözlə desək, biz bir ay içində xarici borcumuzu ödəyə bilərik. Dünyada bunu edə biləcək çox ölkə yoxdur. Əsas beynəlxalq aktorlarla yaxşı siyasi əlaqələri olan, özünü təmin edən iqtisadiyyat və ölkədəki siyasi sabitlik və birlik – bütün bu amillər onu göstərir ki, bizdə daxili risklər yoxdur. Xarici risklər, bəli var, lakin bu sərhədlərimizin xaricindəki vəziyyətdən asılı olacaq. Sərhədlərimizin xaricində Şimala doğru müharibə gedir, Yaxın Şərqdə qeyri-sabit vəziyyət mövcuddur, regionumuzda potensial gərginliklər var. Beləliklə, bu, Azərbaycan üçün potensial risk ola bilər. Bu məqsədlə biz sərhədlərimizin müdafiəsinə daha çox diqqət yetirməliyik ki, sərhədlərimiz dostlarımız üçün açıq olsun və bizə zərər vermək istəyənlər üçün isə bağlı qalsın.

**Müxbir:** SPECA Proqramı iştirakçı ölkələrin iqtisadiyyatları üçün nə dərəcədə əhəmiyyətlidir?

**Prezident İlham Əliyev:** Bu gün SPECA Proqramı öz 25 illik yubileyini qeyd edir və mən Mərkəzi Asiyadan olan həmkarlarımıza bizim Zirvə görüşünün keçirilməsi təşəbbüsünü dəstəklədiklərinə görə, – hansı ki, SPECA Proqramının tarixində ilk Zirvə görüşüdür, – minnətdaram. Əslində, bu Proqram Mərkəzi Asiya və Azərbaycan arasında qarşılıqlı iqtisadi əlaqəyə əsaslanır və bu gün biz bu qarşılıqlı əlaqənin yeni dinamikasının şahidi oluruq. İqtisadi göstəricilərə, ikitərəfli səfərlərin dinamikasına nəzər salsanız görərsiniz ki, son iki ildə Azərbaycan və bütün Mərkəzi Asiya ölkələri arasında və Mərkəzi Asiya ölkələrinin özləri arasında fəal qarşılıqlı əlaqə görünməmiş dərəcədə yüksəkdir. Beləliklə, bu, yeni reallıqdır və biz bundan faydalanmalıyıq.

Bizim SPECA Proqramına üzv olan bütün ölkələrlə mükəmməl əlaqələrimiz var. Bizim indi çoxlu investisiya layihələrimiz var, – Azərbaycanın Mərkəzi Asiyada investisiyalarını, Mərkəzi Asiyanın Azərbaycanda investisiyalarını nəzərdə tuturam. Bizim Şərq–Qərb Trans–Xəzər nəqliyyat marşrutunun bağlılıq layihələri vardır. Bu, Mərkəzi Asiya ölkələri üçün Qara dəniz, Aralıq dənizi və inteqrasiya olunmuş bağlılıq layihələri vasitəsilə Avropa ilə ən cəlbedici nəqliyyat bağlantısıdır. Biz siyasi müstəvidə çox müsbət dinamikanı müşahidə edirik, çünki indiki çətin geosiyasi vəziyyətdə SPECA Proqramına üzv olan ölkələr bu gün sabitlik nümayiş etdirir. Bu, ən vacib amillərdən biridir. Çünki sabitlik olmasa, investisiya, iqtisadi inkişaf və təhlükəsizlik olmaz. Bu gün SPECA Proqramına üzv olan ölkələrə baxsanız görərsiniz ki, Mərkəzi Asiya və Azərbaycan geosiyasi sabitlik ərazisidir, baxmayaraq ki, yaxınlıqda risklər də mövcuddur. Mərkəzi Asiya ölkələri üçün bu risklər Azərbaycanla müqayisədə hətta daha da yüksəkdir. Odur ki, bu, qeyd etdiyim ölkələrin uğurunun mühüm amili kimi nəzərə alınmalıdır.

İyirmi beş il bundan əvvəl hamımız tamamilə başqa bir vəziyyətdə idik. Söhbət iqtisadi inkişafdan, irimiqyaslı sosial problemlərdən gedir və biz həm də müstəqillik yolunun birinci mərhələsini yaşayırdıq. İndi biz artıq uğur haqqında məlumat verə bilərik. Biz Bakı Expo Mərkəzində sərgi təşkil etdik. Hesab edirəm ki, bu, bizim ölkələrin nailiyyətlərini çox yaxşı əks etdirir. Bunlar bizim nailiyyətlərin kiçik bir hissəsidir, amma buna baxmayaraq, gördüyümüz işlərin çox yaxşı təcəssümüdür. Azərbaycanın xarici siyasət prioritetlərindən biri Mərkəzi Asiya ölkələri ilə daha fəal əməkdaşlıqdan ibarətdir və biz Bakıda keçirilən SPECA Zirvə görüşünü bu siyasətin bir hissəsi olan amillərdən biri hesab edirik.

**Müxbir:** Azərbaycan Şərq və Qərb arasında çox strateji-coğrafi mövqedə yerləşir. Beynəlxalq arenada ölkənin strategiyası nədən ibarətdir?

**Prezident İlham Əliyev:** Beynəlxalq arenada biz müstəqil siyasət yürütməyə davam edəcəyik. Biz dördüncü ildir ki, BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına sədrlik edirik. Bir çox üzv ölkənin – 120 üzv ölkənin ümumi rəyinə əsasən Azərbaycan Qoşulmama Hərəkatına yeni ölçü və dinamika verməkdə önəmli rol oynamışdır. Biz Qoşulmama Hərəkatının institusional inkişafı ilə bağlı çoxlu addımlar atdıq, parlament və gənclər platformalarını yaratdıq, qadınlar üçün platformanın yaradılması üzərində işlədik. Biz COVID pandemiyası məsələsi ilə bağlı çox fəal olmaqla 80-dən çox ölkəyə yardım etdik.

Beləliklə, bizim Qoşulmama Hərəkatında sədrliyimiz bizə siyasətimizi, imkanlarımızı nümayiş etdirməyə şərait yaratdı və yeri gəlmişkən, bizim sədrliyimiz yekdil qərarla əlavə bir il uzadılmışdır. 120 ölkə, onların heç də hamısı bir-biri ilə yaxşı münasibətdə deyil, lakin Azərbaycana gəldikdə onların hamısı yekdilliklə bizi dəstəklədi. Beləliklə, bu, beynəlxalq dəstəyi ən yaxşı şəkildə nümayiş etdirir. Bəzən bəzi siyasətçilər beynəlxalq birlik haqqında danışdıqda onlar ola bilsin ki, onlarla ölkəni nəzərdə tuturlar. Lakin beynəlxalq birlik 200-dən artıq ölkədən ibarətdir və bu ölkələrin əksəriyyəti Azərbaycanı dəstəkləyir. Bu, yalnız bir istiqamətdir.

Bizim qonşularımızla münasibətlərimiz yaxşı balanslaşdırılıb, dostluğa və qarşılıqlı marağa əsaslanır. Bizim Avropa təsisatları ilə münasibətlərimizin öz müsbət dinamikası var. Mən artıq enerji layihələrini qeyd etdim, Avropa bizdən dəstək istədikdə bizim Avropanı necə dəstəklədiyimizi nəzərdə tuturam. Biz bunu ona görə etdik ki, həmişə bizdən kömək istəyənlərə kömək etməyə çalışırıq. Bizim müsəlman ölkələri ilə münasibətlərimiz həmrəylik və tərəfdaşlıq nümunəsidir. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının ən fəal üzvlərindən biri hesab olunur.

Beləliklə, bu, əslində, beynəlxalq birliyin demək olar ki, bütün üzvlərini əhatə edir və bizim siyasətimiz həmişə kiməsə dəstək lazım olduqda ona dəstəyin göstərilməsinə və bütün ölkələrə dost münasibətin nümayiş etdirilməsinə hədəflənib. İndi isə – ərazi bütövlüyümüz və suverenliyimizin bərpasından sonra Azərbaycanın beynəlxalq arenada imkanları, əlbəttə ki, qat-qat böyük olacaq. Döyüş meydanında öz ərazisini, öz ləyaqətini qorumuş ölkənin beynəlxalq nüfuzu və Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrini özü yerinə yetirmiş Azərbaycanın nüfuzu, əlbəttə ki, indi kəskin şəkildə yüksəlib.

**Müxbir:** Bu ilin yayında “Euronews”a müsahibə zamanı demişdiniz, ümid edirsiniz ki, ilin sonunadək Ermənistan və Azərbaycan arasında sülhə nail olunacaq. Xüsusilə on minlərlə insanın evlərini tərk etməli olduqlarından sonra hələ də sülhə nail olunacağını düşünürsünüz? Bu regionun dinamikası üçün növbəti mərhələdə onu nə gözləyir?

**Prezident İlham Əliyev:** Bəli, vaxt qrafiki ilə bağlı mən nikbin fikirdə idim, çünki biz Azərbaycanın özünün hazırladığı sülh sazişinin ilkin layihəsi ilə bağlı şərhləri bir neçə dəfə Ermənistanla mübadilə etmişdik. Bundan sonra isə iki ölkə arasında altı dəfə şərhlər mübadilə edilmişdir və keçən dəfə “Euronews”a bunun haqqında danışdıqda mən ümid edirdim ki, Ermənistan bizim təkliflərin nəzərdən keçirilməsi vaxtını uzatmayacaq. Biz sentyabrın 11-də onlara sonuncu şərhlərimizi təqdim etmişdik və onlardan cavabı yalnız iki gün əvvəl almışıq. Beləliklə, təqribən iki ay yarımdır ki, onlar bir neçə səhifədən ibarət mətn layihəsini nəzərdən keçiriblər. Bu, nə deməkdir? O deməkdir ki, onlar süni olaraq prosesi ləngitmək istəyirlər. İndi noyabrın sonudur və ilin axırına qədər sülh sazişinin imzalanması ilə bağlı ümidlər o qədər də nikbin deyil. Lakin hesab edirəm ki, zaman qrafiki o qədər də vacib deyil. Vacib olan hər iki ölkənin gündəliyidir. Məhz Azərbaycan işğaldan və etnik təmizləmədən əziyyət çəkib. Bir milyon azərbaycanlı Ermənistan hökuməti tərəfindən deportasiya edilib. Təxminən sahəsi 15 min kvadratkilometr olan ərazi dağıdılıb.

Bununla belə, sülh sazişini imzalamaq və delimitasiya işlərini başlamaq üçün təklif verən ölkə biz olduq. Bir sözlə, hazırda Qarabağ məsələsi bitdikdən sonra düşünürəm ki, Ermənistan bizimlə razılığa gəlməkdə daha həvəsli olacaq. Çünki suverenliyimizin bərpası və Qarabağda qeyri-qanuni separatçı rejimin ləğv edilməsi ilə, fikrimcə, Ermənistana daha cəsarətli davranmağa və ya danışıqlara getməyə mane olan əsas amil artıq mövcud deyil.

Bir sözlə, biz qeyd etdiyim kimi, iki gün əvvəl aldığımız ən son təklifləri dəyərləndirəcəyik və öz şərhlərimizi verəcəyik. Bununla yanaşı, biz müxtəlif rəsmilər arasında və fərqli kanallar vasitəsilə işçi səviyyədə təmasları saxlayırıq. Düşünürəm ki, sülh üçün alternativ yoxdur. Əgər sülh sazişi imzalanmasa, bu, bütöv bölgə üçün çox pis olacaq. Biz istəyirik ki, Cənubi Qafqaz bölgəsində hər hansı risk olmasın. Əlbəttə, biz istəyirik ki, Ermənistan nə bu gün, nə də gələcəkdə ərazi bütövlüyümüzü sual altına qoymasın və Azərbaycana qarşı hər hansı ərazi iddialarından tam əl çəksin.

**Müxbir:** Beləliklə, nəhayət ki, sülhə nail olmaq üçün şərtlər nədən ibarətdir?

**Prezident İlham Əliyev:** Bilirsiniz, biz sülh sazişi üçün əsas götürüləcək beş təməl prinsipi hazırladıq: bir-birinin ərazi bütövlüyünün qarşılıqlı surətdə tanınması; gücdən istifadə etməmə; bir-birinə ərazi iddialarının olmaması; iki ölkə arasında kommunikasiyaların açılması və münasibətlərin normallaşması; və bir sıra digər mühüm amillər var. Bütün bunlar beynəlxalq hüquqa əsaslanır. Danışıqlar prosesinin təxminən üç ili ərzində, Ermənistan hər zaman sülh sazişinə Qarabağın erməni azlığına dair müddəanı salmaq istəyirdi. Bizim mövqeyimiz ondan ibarət idi ki, bu, bizim daxili işimizdir. Əgər onlar Azərbaycanda erməni azlığı məsələsini əks etdirmək istəyirlərsə, onda biz də otuz il əvvəl Ermənistandan qovulmuş azərbaycanlı azlığı məsələsini daxil etmək istərdik. Özü də Ermənistanda azərbaycanlıların sayı ermənilərin Azərbaycandakı sayından daha çoxdur və təxminən, 300 min insan təşkil edir. Bir sözlə, mövqeyimiz belədir ki, həmin məsələ qarşılıqlı olmalıdır. Biz iki milli azlığın məsələsini, onların hüquqları və təhlükəsizliyini, o cümlədən, qayıtmaq hüququnu qeyd edək. Yəni, təkcə ermənilərin Azərbaycana qayıtması deyil, o cümlədən, azərbaycanlıların Ermənistana qayıtması məsələsini qoyuruq. Azərbaycanlıların 30 il əvvəl qovulması və ermənilərin iki ay əvvəl ölkəmizi tərk etmək qərarı arasında fərqin əhəmiyyəti yoxdur. Fakt, sadəcə, ondan ibarətdir ki, bunlar qarşılıqlı olmalıdır. Yaxud da ki, biz sülh sazişində bu məsələni qeyd etmirik. Bir sözlə, bu vaxta qədər, biz həmin məsələ ilə bağlı Ermənistandan hər hansı aydın anlaşma görmədik. Əgər Ermənistan hər iki milli azlığa eyni yanaşmanın tətbiq edilməsinə razılaşarsa və ya onu tam əks etdirməsə, onda sülh əldə oluna bilər, çünki həmin məsələ bizimlə danışıqlar aparan Ermənistan üçün əsas maneə idi. Bir sözlə, görəcəyik, bundan sonra necə olacaq. Səmimi desək, mən hazırda məntiq nöqteyi-nəzərindən sülh sazişinin imzalanmasına hər hansı ciddi maneə görmürəm.

Biz bəyan edirik ki, bunu imzalamalıyıq və onlar da deyirlər ki, bu saziş imzalanmalıdır. Lakin biz buna nail olmalıyıq. Bizim təklifimiz ictimaiyyətə açıqlandı. Bəhs etdiyim həmin beş məşhur prinsipi biz ictimaiyyətə açıqladıq. Bunlar bəllidir. İstənilən mühüm beynəlxalq tərəfin də etirazı yoxdur, çünki bütün həmin prinsiplər beynəlxalq hüququn fundamental prinsipləridir. Ermənistan, sadəcə, onlara əməl etməlidir. Onlar ərazi bütövlüyümüzü sual altına qoymaq və ərazimizdə separatçılığa rəvac vermək kimi bütün cəhdlərinə son qoymalıdırlar, çünki Qarabağ Azərbaycanın hissəsidir və bu, hamı, o cümlədən Ermənistanın özü tərəfindən etiraf edilir. Məhz Ermənistanın baş naziri 2019-cu ildə Xankəndidə böyük nümayiş zamanı demişdir: “Qarabağ Ermənistandır”. Bu, danışıqlar prosesinin sonu demək idi, çünki bundan sonra danışıqlar üçün heç bir şey qalmadı. Beləliklə, İkinci Qarabağ müharibəsi üçün səbəb məhz Ermənistan hökuməti idi. İndi isə həmin şəxs artıq “Qarabağ Azərbaycandır” deyir. Bu, yaxşı haldır, irəliləyişdir. Biz irəliləyişi hər zaman dəstəkləyirik, lakin hazırda “Qarabağ Azərbaycandır” dedikdə, onlar gərək bunun altında öz imzasını qoysunlar və biz bunu gözləyirik.

**Müxbir:** Bəs, öz evlərini tərk etmiş insanlar necə?

**Prezident İlham Əliyev:** Öz evlərini tərk etmiş insanlara gəldikdə, əvvəlcə, bu, onların öz qərarı idi. Qarabağ erməniləri ilə bağlı ictimaiyyətə verdiyimiz bəyanat və sonradan atdığımız addımlar göstərdi ki, biz istəyirdik onlar qalsınlar. Biz açıq şəkildə elan etdik və mən antiterror əməliyyatı başa çatdıqdan sonra Azərbaycan xalqına müraciətimdə bildirdim ki, onlar qala bilər. Biz elektron qeydiyyat portalını açdıq. Qayıtmaq istəyən hər kəsin belə bir hüququ var. Onların mülkiyyəti lazımi dərəcədə qorunur. Bütün tarixi və dini yerlər lazımınca qorunur.

Geri qayıtmaq üçün onlar müəyyən qaydalara əməl etməlidirlər və mən antiterror əməliyyatının keçirilməsindən bir neçə ay əvvəl demişdim ki, qalmaq istəyənlər Azərbaycan vətəndaşlığı üçün müraciət etməlidirlər. Çünki insanlar başqa ölkənin vətəndaşı olmaqla Azərbaycanda necə yaşaya bilərlər? Ya vətəndaşlıq, ya iş icazəsi, ya da yaşayış icazəsi olmalıdır. Onlar dırnaqarası “dağlıq qarabağ respublikasında” yaşadıqlarını deyərək Azərbaycanda yaşaya bilməzlər. Çünki dırnaqarası “dağlıq qarabağ respublikası” mövcud deyil. Onlar bunu öz xəyallarında, mifologiyasında uydurublar. Onlar Azərbaycan vətəndaşları olaraq Azərbaycanda yaşamaq istəyirlərsə, əlbəttə ki, bunu edə bilərlər. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı bir ölkədir. Azərbaycanda bir çox etnik qruplar var. Bu etnik qrupların bəziləri, bir neçəsi, onlara mənsub olan insanlar Qarabağda erməni əhalisindən qat-qat çoxdur. Onların hamısı sülh içində yaşayır, onlar bütün hüquq və təminatlardan faydalanırlar. Bizim Qarabağ ermənilərinə etdiyimiz təklifdə hansı ki, yeri gəlmişkən ictimai şəkildə açıqlanmışdır, biz, həmçinin onların hüquqlarını da nəzərə almışdıq. Onların dil, tədris, din, bələdiyyə hüquqlarını nəzərə almışdıq. Onlar bələdiyyə seçkiləri vasitəsilə öz nümayəndələrini seçə bilərlər və orada yaşamağa davam edə bilərlər. Tərk etmək qərarı onların öz qərarı idi və bizim indi əldə etdiyimiz məlumata əsasən bu dırnaqarası “dağlıq qarabağ respublikası”nın dırnaqarası “sabiq rəhbərləri”nin qəsdən etdiyi hərəkət idi. Onlara oranı tərk etməyə ehtiyac yox idi, lakin onlar tərk etmək qərarını verdikdə biz onları dayandıra bilməzdik. Biz onlar oranı sülh şəraitində tərk etsinlər deyə, onlara maksimum dərəcədə rahat şərait yaratdıq. Azərbaycanlılara qarşı tam əksi edilmişdir. Onlar otuz il bundan əvvəl ya qətlə yetirilmiş, ya da deportasiya olunmuş, işgəncələrə məruz qalmış, həbs edilmişdir və onların bəziləri yüksək dağlıq əraziləri aşmaq məcburiyyətində qalaraq həmin ərazilərdə donub ölmüşdür. Bu sənədlərlə təsdiq edilib. Qarabağ bölgəsinin ermənilərinin Ermənistana daxil olmaları da sənədləşdirilmişdir və hər şey humanitar standartlara əsasən edilmişdir. Lakin yenə də sizin suala gəldikdə deyə bilərəm ki, onlar qayıda bilərlər.

Əlbəttə, onlar bizim açdığımız mövcud elektron portalda qeydiyyatdan keçərək geri qayıtmaq, Azərbaycan vətəndaşlığını qəbul etmək istədiklərini bildirməlidirlər. Onların bir neçəsi artıq vətəndaşlıq üçün müraciət edib və hazırda onların müraciətlərinə baxılır. Bəzi ermənilər Qarabağda qalmağa qərar verdilər və indi bizim Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Miqrasiya Xidməti onların qeydinə qalır, onları qeydiyyata salır. Ermənilərin hamısı oranı tərk etməyib. Lakin Azərbaycanda yaşamaq üçün, məsələn əgər siz Azərbaycanda yaşamaq istəyirsinizsə siz nə etməlisiniz? Siz iş icazəsi, uzun müddət burada yaşamaq istəyirsinizsə yaşayış icazəsi və ya vətəndaşlıq almalısınız. Başqa halda digər ölkənin vətəndaşı olaraq Azərbaycanda necə yaşaya bilərsiniz? Bu, mümkün deyil. Bu da eyni məsələdir.

Əgər Ermənistandan qovulmuş azərbaycanlı məcburi köçkün ora geri qayıtmaq istəyərsə o, necə qayıda bilər? O geri qayıdıb və Qərbi Azərbaycan Respublikasının sakini olduğunu deməyəcək. Xeyr. O, gəlib vətəndaşlıq və ya iş icazəsi üçün müraciət edəcək. Nəyə görə bu proses burada fərqli olmalıdır? Bu, yalnız belə olacaqdır. Bələdiyyə seçkiləri vasitəsilə onlar öz nümayəndələrini seçə bilərlər və bu nümayəndələr bələdiyyələrə görə məsul şəxslər olacaq. Bütün bu məlumatlar Qarabağ ermənilərinin nümayəndələrinə antiterror əməliyyatından sonra çatdırılmışdır və biz bu məlumatın onlar tərəfindən Qarabağ əhalisinə açıqlanmadığından agah olduqdan sonra biz onu açıqladıq, dərc etdik.

Beləliklə, bu, beynəlxalq norma və standartlara əsasən hüquqi bir prosesdir. Bir daha qeyd etmək istəyirəm, Azərbaycan çoxmillətli ölkədir və Azərbaycandakı heç bir etnik qrupun dini və etnik zəmində heç vaxt heç bir problemi və ya narahatlığı olmamışdır. Azərbaycanı tanıyan istənilən kəs bunu təsdiqləyə bilər. Yeri gəlmişkən, bu gün Azərbaycanın müxtəlif yerlərində erməni əhalisi heç bir problem olmadan yaşayır. Ermənilər və azərbaycanlılar Rusiyada bir yerdə yaşayırlar, Ukraynada bir yerdə yaşayırlar və Gürcüstanda hətta eyni kəndlərdə yaşayırlar. Nəyə görə onlar Azərbaycanda və yaxud Ermənistanda bir yerdə yaşaya bilməsinlər? Hesab edirəm ki, onlar bir yerdə yaşaya bilərlər.

**Müxbir:** Çox təşəkkür edirəm, cənab Prezident.

**Prezident İlham Əliyev:** Təşəkkürlər.

# Prezidentin Mətbuat Xidmətinin məlumatı

**Dekabrın 9-da Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon danışığı zamanı dövlət başçıları ölkələrimiz arasında münasibətləri və gələcək əməkdaşlıq perspektivlərini nəzərdən keçiriblər.

Prezidentlər Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında mövcud əməkdaşlıq sahələrinə, xüsusilə iqtisadi inkişaf, bərpaolunan enerji və ölkələrimizin davamlı inkişafı üçün digər vacib istiqamətlərdə əməkdaşlıq imkanlarına toxunublar.

Prezident İlham Əliyev və Prezident Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Telefon danışığı əsnasında BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası – COP28 çərçivəsində Dubayda təşkil olunan Dünya İqlim Fəaliyyəti Sammitinə toxunulub.

Dövlətimizin başçısı bu sammitin uğurla keçirilməsi münasibətilə Birləşmiş Ərəb Əmirliklərinin Prezidentini təbrik edib, bu tədbirdə iştirak etmək üçün Dubaya səfəri zamanı Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə görüşünü məmnunluqla xatırlayıb və göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib. Azərbaycan Prezidenti bu tədbirin nəticələrinin qlobal iqlim dəyişikliyinə qarşı mübarizəyə praktiki və əhəmiyyətli töhfə verəcəyinə, həmçinin dünyada davamlı inkişafa xidmət edəcəyinə ümidvarlığını bildirib.

# Keniya Respublikasının Prezidenti Zati-aliləri cənab Uillyam Samoei Rutoya

**Hörmətli cənab Prezident,**

Keniya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu il Azərbaycanın Keniyada Səfirliyinin fəaliyyətə başlaması ikitərəfli münasibətlərimizin yeni müstəviyə keçməsinin bariz nümunəsidir. İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan-Keniya əlaqələrinin dostluq məcrasında inkişafı, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə əməkdaşlığımızın uğurla davam etdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı çatdırır, dost xalqınıza daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 dekabr 2023-cü il**

## Ü.V.Baxşəliyevin Azərbaycan Respublikasının Moldova Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ülvi Vaqif oğlu Baxşəliyev Azərbaycan Respublikasının Moldova Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 dekabr 2023-cü il**

## Ü.V.Baxşəliyevin Azərbaycan Respublikasının Belarus Respublikasında fövqəladə və səlahiyyətli səfiri və eyni zamanda Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinin nizamnamə və digər orqanları yanında daimi səlahiyyətli nümayəndəsi vəzifələrindən geri çağırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ülvi Vaqif oğlu Baxşəliyev Azərbaycan Respublikasının Belarus Respublikasında fövqəladə və səlahiyyətli səfiri və eyni zamanda Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinin nizamnamə və digər orqanları yanında daimi səlahiyyətli nümayəndəsi vəzifələrindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 dekabr 2023-cü il**

## H.N.Nəcəfovun Azərbaycan Respublikasının Rumıniyada fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Hüseyn Nizami oğlu Nəcəfov Azərbaycan Respublikasının Rumıniyada fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 dekabr 2023-cü il**

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 439** **Bakı şəhəri, 6 dekabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 20 yanvar tarixli 10 nömrəli Qərarı ilə təsdiq edilmiş "Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2181 nömrəli Fərmanının 3.7-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 20 yanvar tarixli 10 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 1, maddə 124; 2020, № 5, maddə 635; 2021, № 6 (IV kitab), maddə 676; 2022, № 2, maddə 185, № 4, maddə 416) ilə təsdiq edilmiş "Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.1.13-cü yarımbənd 2.1.14-cü yarımbənd hesab edilsin və aşağıdakı məzmunda 2.1.13-cü yarımbənd əlavə edilsin:

"2.1.13. "Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2181 nömrəli Fərmanına (bundan sonra – Fərman) uyğun olaraq 2025-ci il yanvarın 1-dək edilən müraciətlər əsasında istismarına icazə verilmiş qeyri-yaşayış təyinatlı tikinti obyektlərinin yerləşdiyi torpaqların kateqoriyasının dəyişdirilməsi;".

**2.** 3.6-cı və 3.7-ci bəndlər müvafiq olaraq 3.8-ci və 3.9-cu bəndlər hesab edilsin və aşağıdakı məzmunda 3.6-cı və 3.7-ci bəndlər əlavə edilsin:

"3.6. Bu Qaydaların 2.1.13-cü yarımbəndində qeyd edilən əsaslara uyğun olaraq, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti istismarına icazə verilmiş qeyri-yaşayış təyinatlı obyektlər barədə məlumat daxil olduğu gündən 10 (on) iş günü müddətində, Fərman qüvvəyə minənədək və ya Fərmana uyğun olaraq istismarına icazə verilmiş qeyri-yaşayış binaları və bu məqsəd üçün nəzərdə tutulmayan torpaq sahəsində inşa olunduğu hallarda həmin icazə əsasında qeyri-yaşayış binalarının yerləşdiyi torpaq sahələrinin kateqoriyasının dəyişdirilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabineti qarşısında vəsatət qaldırır.

3.7. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Qaydaların 3.6-cı bəndinə uyğun olaraq, vəsatətə əlavə olunan yerquruluşu planında göstərilən koordinatlar daxilində istismarına icazə verilmiş qeyri-yaşayış binalarının yerləşdiyi torpaq sahələrinin kateqoriyasının dəyişdirilməsi vəsatət qaldırıldığı tarixdən 15 (on beş) gün müddətində təmin edir.".

**3.** 4.1.7-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 4.1.8-ci yarımbənd əlavə edilsin:

"4.1.8. bu Qaydaların 2.1.13-cü yarımbəndində qeyd edilən əsaslara uyğun olaraq, vəsatətdə Qaydaların 3.7-ci bəndində qeyd olunmuş müvafiq yerquruluşu planı təqdim edilmədikdə.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

## M.A.Əliyevin Azərbaycan Respublikasının Belarus Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Məhərrəm Abış oğlu Əliyev Azərbaycan Respublikasının Belarus Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 dekabr 2023-cü il**

## M.A.Əliyevin Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Məhərrəm Abış oğlu Əliyev Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri vəzifəsindən azad edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 dekabr 2023-cü il**

## M.A.Əliyevin həqiqi hərbi xidmətdən istefaya buraxılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 40.1-ci və 42.0.1-ci maddələrinə, "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin 164-cü maddəsinin ikinci hissəsinə əsasən **qərara alıram:**

**1.** General-polkovnik Məhərrəm Abış oğlu Əliyev hərbi geyim formasını daşımaq hüququ verilməklə, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində həqiqi hərbi xidmətdən istefaya buraxılsın.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 dekabr 2023-cü il**

## Q.D.Osmanovun Azərbaycan Respublikasının Rumıniyada fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Qüdsi Dursun oğlu Osmanov Azərbaycan Respublikasının Rumıniyada fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 dekabr 2023-cü il**

## Q.D.Osmanovun Azərbaycan Respublikasının Moldova Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Qüdsi Dursun oğlu Osmanov Azərbaycan Respublikasının Moldova Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 dekabr 2023-cü il**

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 447** **Bakı şəhəri, 9 dekabr 2023-cü il**

***İş və istirahət günlərinin yerlərinin dəyişdirilməsi haqqında***

"Azərbaycan Respublikasının Əmək Məcəlləsinə dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2006-cı il 8 dekabr tarixli 194-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 dekabr tarixli 489 nömrəli Fərmanının 2-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

İş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2024-cü ilin 4 və 5 yanvar iş günləri ilə müvafiq olaraq 2023-cü ilin 30 dekabr və 2024-cü ilin 7 yanvar istirahət günlərinin yerləri dəyişdirilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 448** **Bakı şəhəri, 9 dekabr 2023-cü il**

***2024-cü il üçün Novruz, Ramazan və Qurban bayramları günlərinin müəyyən edilməsi haqqında***

Azərbaycan Respublikası Əmək Məcəlləsinin 105-ci maddəsinin 4-cü hissəsinə və "Azərbaycan Respublikasının Əmək Məcəlləsinə dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2006-cı il 8 dekabr tarixli 194-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 dekabr tarixli 489 nömrəli Fərmanının 2-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** 2024-cü il martın 20, 21, 22, 23, 24-ü Novruz bayramı, aprelin 10, 11-i Ramazan bayramı, iyunun 16, 17-si Qurban bayramı günləri müəyyən edilsin.

**2.** Azərbaycan Respublikası Əmək Məcəlləsinin 105-ci maddəsinin 2-ci hissəsinə əsasən bu Qərarın 1-ci hissəsində nəzərdə tutulan günlər iş günü hesab edilmir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# BƏƏ Ermənistan və Azərbaycan arasında sülh quruculuğu səylərini alqışlayır

**Birləşmiş Ərəb Əmirlikləri Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında müsbət irəliləyişləri və sülh quruculuğu istiqamətində atılan son addımları alqışlayıb.**

Bu barədə BƏƏ-nin Xarici İşlər Nazirliyi (XİN) bəyanat yayıb.

Bəyanatda iki ölkə arasında razılaşdırılmış etimad quruculuğu tədbirləri yüksək qiymətləndirilib və bu təşəbbüsün Ermənistan və Azərbaycan xalqları, eləcə də bütün Qafqazda daha da inkişafa nail olunması üçün sabitliyin gücləndirilməsinə və sülhün möhkəmləndirilməsi istiqamətində atılan addımlara töhfə verəcəyinə ümid ifadə edilib.

Nazirlik BƏƏ-nin Ermənistan və Azərbaycan tərəfindən regional və beynəlxalq səviyyədə təhlükəsizliyin və sülhün gücləndirilməsi istiqamətində razılaşdırılmış bütün tədbirləri dəstəklədiyini və bunun iki ölkə arasında konstruktiv əməkdaşlığın yeni dövrünün başlanğıcını qoyan davamlı nizamlanmanı möhkəmləndirdiyini vurğulayıb.

Nazirlik BƏƏ-nin fikir ayrılıqlarının sülh yolu ilə həllində körpülərin qurulması, əməkdaşlıq və dialoqun vacibliyini vurğuladığını bir daha təsdiqləyib.

**XQ**

# Revanşizmdən xilas – Ermənistanın varlıq formulu

## Bakı–İrəvan sülh gündəliyinə təhdidlər



(əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyev dekabrın 6-da keçirilmiş "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda bildirmişdi ki, "Ermənistanda hər hansı bir revanşizm cəhdlərinin olmayacağı ilə bağlı Azərbaycana qəti şəkildə qarantiya lazımdır. Çünki biz bilirik Ermənistanda nə baş verir. Həmçinin bilirik ki, Ermənistanın bəzi Avropa paytaxtlarında çox "müşavirləri" var".

Bəli, əsas məsələ revanşizmdir. Prezident İlham Əliyev məsələyə heç də əbəs yerə toxunmadı. Heç şübhəsiz, revanşizm məlum birgə açıqlama ilə rəvan müstəviyə daxil olduğu görünən normallaşma prosesinə mənfi təsir etmək iqtidarındadır. Fikrimizin təsdiqi kimi bəzi məqamları diqqətə çatdıracağıq. Həlalik isə bildirək ki, revanşizm həm də dövlətimizin başçısının təbirincə desək, "müşavirlər" vasitəsilə Avropanın bəzi paytaxtlarındakı "qazanlarda bişir". Deməli, cənab İlham Əliyevin qarantiya məntiqindəki məsuliyyətli tərəf yalnız Ermənistan deyil. Bu, həqiqətən də, belədir. Baş nazir Nikol Paşinyan iqtidarının ölkədəki barışmaz meyilləri nəzarətdə saxlaya bilmədiyi aşkardır. Ona görə Azərbaycanın lideri daha böyük miqyaslı qarantiyadan söz açır. Bu qarantiya olacaqmı, yaxud onu kim, hansı tərəf verəcək, maraqlıdır.

İndilik qarantiya yoxdur. Əvəzində erməni ictimai fikrində Azərbaycanla normallaşmaya münasibətdə əvvəldə barəsində söz açdığımız qeyri-konstruktiv yanaşmalar var və bu yanaşmalar elə revanşizm təmayüllərini də gündəmə gətirməkdədir. Məsələn, müxalif "Ermənistan" blokundan olan deputat Geqam Manukyan özünün sosial şəbəkə hesabında yazıb ki, uzun sorğulardan sonra partiyanın funksionerləri ilə birgə Xarici İşlər Nazirliyinin binasında İrəvan və Bakının Azərbaycanla Ermənistan arasında münasibətlərin nizamlanmasına dair sazişlə bağlı son təklifləri ilə tanış olublar: "Hazırda aşağıdakıları deyə bilərik: Sənədin "tam məxfi" kimi təsnif edilən bütün bəndlərini dərc edə bilməsək də, qeyd etmək lazımdır ki, təkliflərlə tanışlıq yalnız onun təhlükəsini təsdiqlədi və əvvəllər bu məsələ ilə bağlı bildirdiyimiz bütün narahatlığı gücləndirdi".

…Sülhü süngü ilə qarşılayanların müəyyən qismi mövzuya bir qədər də "gendən" yanaşmaları ilə diqqət çəkir. Məsələn, politoloq, Stendford Universitetinin professoru Artur Xaçikyanın Prezident İlham Əliyevin fikirlərinə münasibət bildirərkən dediklərindən belə çıxır ki, Ermənistanda revanşizm meyilləri özünün real fazasına ölkədə hakimiyyət dəyişikliyi baş verdikdə daxil olacaq. Yəni, indiki iqtidar revanş barədə düşünmür və guya, Azərbaycan məsələ haqqında sözü ona görə açır ki, Paşinyan hakimiyyətinin devrilməməsi üçün təminat yaransın.

Hər halda, A.Xaçikyanın siyasi icmalçı, politoloq yox, daha çox konsprioloq kimi daha sərrast danışdığı ortadadır. Əlbəttə, buna sərrast danışıq demək mümkün deyil. Məsələ də bundadır ki, Ermənistanda Azərbaycanla münasibətlər, sülh müqaviləsi ilə bağlı danışanların əksəriyyəti Xaçikyandan daha aşağı səviyyəlidirlər. Onların gətirdikləri arqumentlər tam cəfəng mahiyyət daşımaqdadır.

Daha bir misala diqqət yetirərək deyək ki, erməni müxaliflərin müəyyən qismi ictimai rəyə təxminən bu düşüncələrini sırıyırlar: Revanşizm məsələsini qabartmaq Azərbaycan üçün sülhdən yayınmaq bəhanəsidir. Bakı Ermənistanın silahlanmasını, özünün müdafiə qabiliyyətini artırmaq tədbirlərini ona görə revanşizm olara qiymətləndirir ki, ölkəni işğal etmək niyyəti güdür.

Sual olunur ki, cəfəngiyyata niyə önəm verilir? Problem sualı doğuran məqamların varlığındadır. Cavab isə çox sadədir: Ermənistanda normal ictimai rəy yoxdur. Cəmiyyət daha çox hay-küy üzərində qurulub. Axı, N.Paşinyanın özünün də hakimiyyətə gəlməsi xalqın şüurlu iradəsinin məhsulu deyildi. İqtidara inqilabla yiyələnmiş baş nazirin əsas silahı hay-küy, populizm olmuşdu. Ona görə də Ermənistan bu sindromdan çıxa bilmir.

Ermənistanın sözügedən sindromdan qurtulmağı bacarmaması rasional, məntiqli düşüncə imkanlarının qarşısına sədd çəkir. Diqqət edək, erməni cəmiyyətində nisbətən normal fikir yürüdən, konstruktivliyə meyilli qüvvələrin səsləri, demək olar ki, eşidilmir. Mövcud situasiyada ölkənin revanşizmə can atdığı görüntüsünün formalaşması təbiidir. Ən pisi isə Paşinyan iqtidarı siyasətini avantürizm notları üzərinə kökləyir. O, revanşistləri sıradan çıxarmaq yox, onları razı salmaq naminə çalışır. Mövcud görüntü iqtidarın özünün də avantüraya, revanşa can atdığını deməyə ciddi əsas yaradır.

Belə dolaşıq labirintdə, necə deyərlər, at izinin it izinə qarışdığı bir durumda o da aydın nəzərə çarpır ki, baş nazir Nikol Paşinyan və komandası yalnız iqtidar kürsüsünü qorumaq barədə düşünür. Yəni, gerçək revanşistlərə qarşı cəbhə açmaqdan qorxur. Buna görə Prezident İlham Əliyev çox haqlı olaraq Azərbaycana Ermənistanda revanşizm cəhdlərinin olmayacağına dair qarantiya istəyir. Bu qarantiyanın verilmədiyi indiki şəraitdə, istəristəməz, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Ermənistan Respublikası baş naziri aparatının birgə açıqlamasındakı xoş məramın perspektivi şübhə altına düşür.

**Ə.RÜSTƏMOV**
**XQ**

# Senat Menendesə "good bye!" deməyə hazırlaşır

## Prokuror ermənipərəst senatora 5 il həbs cəzası tələb edir, seçicilər isə ona qapını göstərirlər



**Bu ibrətamiz hekayətə sərlövhə kimi "Menendesqeyt", yaxud Nobel mükafatlı kolumbiyalı Qabriel Qarsiya Markesin məşhur əsərinin adına improvizə kimi "Gözlənilən bir cinayətin tarixçəsi" də qoymaq olardı. Amma düşündük ki, erməniperəst rüşvətxor senatorun acı sonluğu yazdığımıza daha uyğundur…**

Bəs, erməni həyat yoldaşının "məsləhətləri" ilə hərəkət edən senatoru başqa hansı aqibət gözləməli idi ki? İki ilə yaxındır ki, istintaq türkofob, anti-Azərbaycan fəaliyyəti ilə "məşhurlaşan" Bob Menendesin və onun erməni əsilli həyat yoldaşı Nadin Arslanyanın müəyyən şəxslərdən rüşvət kimi hədiyyə və xidmətlər qəbul etmələrini araşdırır. ABŞ-nin federal prokurorları Senatın üzqarası sayılan, hayların "züytutanı" senator Bob Menendesə 5 il həbs cəzası tələb edirlər. Bu barədə "Bleeding Heartland" saytında jurnalist Rik Morenin araşdırması dərc olunub. Məqalədə Birləşmiş Ştatların Nyu-Cersi ştatının rüşvətxor-senatoru Bob Menendesin çirkli biznesi və ayrı-ayrı iş adamları ilə təmənnalı əməkdaşlığından ətraflı bəhs edilir.

* * *

Əgər istintaq ədalətli sonluqla yekunlaşarsa psevdo-demokrat senator Menendes konqresmen Corc Santosun aqibətini yaşamalı olacaq. Deməli, prokuror bu ilin mayında ABŞ parlamentinin aşağı palatasının üzvü C.Santosa qarşı 13 ittiham irəli sürmüşdü. Bunlar çirkli pulların "yuyulması", külli miqdarda dövlət vəsaitinin mənimsənilməsi, Konqresdə yalan ifadə verməsi və fırıldaqçılıq maddələri ilə bağlı idi. Nəticədə, bu il dekabrın 1-də ABŞ Nümayəndələr Palatası respublikaçı Corc Santosu Konqres üzvlüyündən xaric etdi. Bu, Palatanın tarixində altıncı belə hadisə idi. İstintaq ispan əsilli Santosun seçkiqabağı kampaniyanın gedişində özünün təhsili və karyerası barədə dəfələrlə yalan danışdığını, bununla da dairənin seçicilərinin etimadı ilə "alver etdiyini" üzə çıxarıb.

İndi növbə Bob Menendesə çatıb. Hayların alovlu təəssübkeşi, ABŞ-dakı erməni lobbisinin hər cəhətdən "dəstəklədiyi", adı həm də kriminal dairələrlə işbirliyində hallanan Menendes hələ 1995-ci ildə Konqresin "erməni məsələləri üzrə Qrupu"na daxil olmuşdu. Həmin qrup ABŞ hökumətinin Azərbaycana birbaşa hərbi yardımını nəzərdə tutan qətnamə layihəsini bloklamış, eləcə də Metyu Brayzanın Azərbaycana səfir təyin olunmasına qarşı çıxmışdı. Menendes ağzından, istisnasız olaraq, özünün erməni sponsorlarının istəklərini təmin etməkdən ötrü istifadə edir. Bələsi Ermənistanın bu günədək Azərbaycanın 8 kəndini işğal altında saxlamasını dilinə gətirərmi? Hətta, bir ayağının həbsxana kandarında olduğu indiki məqamda belə bu "aldadılmış kəvakib" himayədarlarının maraqlarının müdafiəsini israrla davam etdirir.

DOSYE: 1954-cü il yanvarın 1-də ABŞ-a mühacirət etmiş kubalıların ailəsində doğulan Robert Menendes Sent Piters Kollecini (1976) və Rutger Universitetinin hüquq fakültəsini bitirib (1979). 1986–1992-ci illərdə Yunion–Siti şəhərinin meri vəzifəsində işləyən Menendes 1987-ci ildə Nyu-Cersi ştatının parlamentinə, 1992-ci ildə ABŞ Nümayəndələr Palatasına üzv seçilib. 2006-cı ilin yanvarında isə senator Con Korzaynın istefasından sonra Senatın üzvü təyin olunub. 2013-cü ilin fevralından 2015-ci ilin yanvarınadək Senatın beynəlxalq münasibətlər üzrə komitəsinin sədri olub.

* * *

Məhz otuz illik həyat yoldaşı Ceyni boşayıb erməni Nadinlə evləndən sonra Bob Menendesi sonunu "qara günlərə" bələyəcək erməniperəstlik dönəmi başlayıb. Qeyri-rəsmi izdivacda yaşadığı Livan erməni Nadin Arslanyanla 2020-ci ildə rəsmi nikaha girəndə Robert Menendesin 66 yaşı vardı. Cütlüyün kəbinkəsdi mərasimi Menendesin mənsub olduğu babtistlərin məbədində deyil, Kuins ştatının Baysayd şəhərindəki erməni kilsəsində qriqorian dini mərasimi ilə icra edilib. Bu evlilik Bob Menendesin sadəcə şəxsi həyatında deyil, həm də onun dünya görüşündə, müsəlmanlara münasibətində ciddi dəyişikliyə səbəb olub.

Hazırda bütün diqqət ABŞ Senatına, konkret olaraq, Nyu-Cersi ştatından demokrat-senator Bob Menendesin üzərinə yönəlib. Bu yaxınlarda prokurorluq tərəfindən ona qarşı rüşvətxorluq və iki müxtəlif kontekstdə korrupsiya halları üzrə ittiham irəli sürülüb. Birinci halda onun Misirə hərbi yardımı təmin etmək üçün xarici ölkənin agenti kimi hərəkət etdiyi güman olunur. İkinci situasiya Nyu-Cersinin şimal hissəsindən olan üç varlı biznesmənə onların işgüzar fəaliyyətinin təhqiqatına mane olmağın müqabilində aldığı pullar, qızıl külçələr, təzə avtomobil və digər qiymətli əşyalarla bağlıdır. Böyük ehtimalla Bobu bu kriminal əməllərə şirnikləndirən hay zövcəsi Naden olub.

Federal Təhqiqatlar Bürosu Menendesi 2018–2022-ci illərdə yüksək qonorarın qaqrşılığında Misir hərbçilərinin və kəşfiyyatının tapşırıqlarını yerinə yetirməkdə şübhəli qismində sorğu-suala çəkib. Nyu-Cersili senator üçün bu xarakterli ittihamlar heç də yeni deyil. Menendes 2017-ci ildə də oxşar ittihamlara görə məhkəmə qarşısına çıxarılmışdı. Onda, o, Senatın beynəlxalq münasibətlər üzrə komitəsinin sədri postundan getməyə məcbur edilmişdi.

Bu da sizə ABŞ-nin milli maraqlarına xəyanətin, lobbiçilərə təmənnalı xidmətin, bu yaxınlaradək Senatın ən nüfuzlu komitəsinə başçılıq edənin heyrətamiz dərəcədə korrupsiyalaşmasının "parlaq nümunəsi"!

* * *

İntəhası, bu hekayətdə olduqca vacib sayılan bir amili qeyd etməyə bilmərik. Erməni daşnak ideoloqlarının öz çirkin məqsədlərinə çatmalarından ötrü qadınlarından vasitə kimi istifadə etmələri təzə xəbər deyil. Onlar müxtəlif ölkələrdə yüksək mənsəb sahiblərini ələ almaq üçün onlara "diplomatik nikahların" erməni qızlarını sırıdıqlarına aid kifayət qədər fakt sadalamaq olar. Adətən, belə "məqsədyönlü nikahların" nəticəsi olan qarışıq ailələrə məkrli hay ruhu sirayət edir, erməni analar məmur ərlərinin beyinlərini ustalıqla "yuyur", onları yalnız öz maraqlarına xidmət edəcək zombilərə çevirirlər. Babtist Robert Menendes də beyni döndərilmiş "şikarlardan" biridir. Məhz Nadin Arslanyanla evləndikdən sonra o, türklərə, azərbaycanlılara düşmən kəsilib. Arslanyanın Menendesi Senatdakı dinləmələrdə qondarma "erməni soyqırımı"nın tanınması üçün çalışmağa təşviq etdiyinə dair istintaqa açıq etirafları artıq ictimaiyyətin ixtiyarına verilib.

* * *

Cənubi Nyu-Cersidən Senatın üzvü, demokrat Endi Kim erməniperəst senator Menendesin postundan geri çağırılmasına dair kampaniyanın başlandığını rəsmən bəyan edib. Bu zaman Kim heç kəsdə mübahisə doğurmayan, eyni zamanda real siyasətə sadəlövh yanaşmanın təzahürü sayıla biləcək bir fərziyə irəli sürüb. O, bildirib ki, "insanların şəxsi ambisiyalarını ölkənin maraqlarından üstün tutmalarına rəvac verən qüsurlu siyasət yeritmək olmaz". Demokrat Kimin dəyərli qeydi öz yerində, amma deyəsən, ştatın seçiciləri bədnam senatora etibarlarını tamamilə itiriblər. Əgər belə olmasaydı, rəy sorğusunda iştirak edən Nyu-Cersi sakinlərinin 70 faizi Bob Menendesin tutduğu postdan getməsini dəstəkləməzdi.

Rik Moren məqaləsinin sonunda yazır ki, Menendesin Senatdan xaric edilməsinə demokratların 50 faizinin səs verəcəyi proqnozlaşdırılır. Respublikaçı senatorlar isə bu qərar layihəsinə, faktiki olaraq, yekdilliklə "hə" deyəcək.

Milad bayramında 70 illiyini qeyd etməyə hazırlaşan daşnak-erməni məkrinin növbəti qurbanı, Kuba əsilli Robert Menendesin ən gözəl "yubiley hədiyyəsi" məhz Senatın gözlənilən qərarı ola bilər. O, bu hədiyyəni, birmənalı olaraq, "törətdiyi cinayətlərin gözlənilən nəticəsi" kimi qəbul edəcək.

**İ.HƏSƏNQALA**
**XQ**

Köşə

# Cənubi Qafqazda sülh – ən yaxşı yol

**Cənubi Qafqazda sülh yaradılmasına mane olmağa çalışan erməni diasporunun, eləcə də bütün xarici qüvvələrin, o cümlədən Fransanın inadlı müqavimətinə baxmayaraq, Ermənistan Azərbaycanın yorulmadan irəli sürdüyü ardıcıl sülh səylərini dəstəklədi. Bu addım son nəticədə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı tərəfindən dekabrın 7-də qəbul olunmuş birgə bəyanat şəklində meydana çıxdı. Tərəflər iki ölkə arasında etimad quruculuğu istiqamətində ciddi addımların atılmasına, o cümlədən, hərbçilərin azad edilməsinə dair razılıq əldə olunduğunu bildirərək birbaşa təmaslara keçidlərini elan etdilər.**



Paşa ƏMİRCANOV
pashae mircan@ mailr u

Bununla da, ilk addım olaraq əsirlərin qarşılıqlı mübadiləsi haqqında qərar verildi. Azərbaycan 32 erməni, Ermənistan isə 2 azərbaycanlı əsiri azad edəcəyini bildirdi. Siyasi müstəvidə də qarşılıqlı güzəştlər bəyan olundu. Bildirildi ki, xoş niyyətin təzahürü olaraq, Ermənistan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransına (COP-29) evsahibliyinə öz namizədliyini geri götürür və Azərbaycanın namizədliyini dəstəkləyir. Öz növbəsində, Azərbaycan Ermənistanın Şərqi Avropa Qrupundan COP-un Büro üzvlüyünə namizədliyini dəstəklədi. Eyni zamanda, bəyan olundu: "Azərbaycan Respublikası və Ermənistan Respublikası yaxın gələcəkdə əlavə etimad quruculuğu tədbirlərinin həyata keçirilməsi üçün müzakirələri davam etdirəcəklər və beynəlxalq ictimaiyyəti iki ölkənin qarşılıqlı etimadını yaradılmasına töhfə verəcək, bütün Cənubi Qafqaz regionuna müsbət təsir göstərəcək səylərini dəstəkləməyə çağırırlar".

Təbii ki, "beynəlxalq ictimaiyyət" adlandırdığımız tərəf də bu mühüm bəyanatdan öz payını götürməli, "qarşılıqlı etimadın yaradılması" istiqamətində çalışmalı, "Cənubi Qafqaz regionuna müsbət təsir göstərəcək səylər"lə çıxış etməlidirlər. Bu qədər. Təbii ki, Fransa da bu bəyanatdan öz payına düşənləri götürməli, Ermənistan vasitəsilə Cənubi Qafqaza girmək arzusunu hələ uzun müddətlik zamana buraxmalıdır.

Biz Azərbaycan olaraq dəfələrlə bəyan etmişik ki, Ermənistan xarici havadarlarına, xüsusən "böyük bacısı" Fransaya çox da arxayın olmasın. İrəvan Parisin məkrli planlarına vəsilə olaraq, sülh səylərindən uzaqlaşmağa çalışmasın. Çünki sabah "dəmir yumruq" məsələsi qaçılmaz olanda döyüş meydanında həlak olan fransız əsgəri deyil, erməni əsgəri olacaq. Bu cür bəyanatları Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev də dəfələrlə səsləndirərək qeyd edib ki, rəsmi İrəvan məsələnin hərbi müstəvidə həllinə çalışmasın, bu, Ermənistan üçün faciəvi sonluqla nəticələnəcək.

Prezident İlham Əliyev bu yaxınlarda BMT-nin rəsmi sənədi kimi yayılmış "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda beynəlxalq konfransın iştirakçılarına müraciətində də Fransanın yeni müstəmləkəçilik siyasətini tarixi faktlarla qamçılamış, belə bir ölkənin Ermənistana heç cür havadarlıq etməyə qadir olmadığını təsdiq etmişdi. Dövlətimizin başçısı müraciətində Afrika, Cənub-Şərqi Asiya, Sakit Okean, Latın Amerikasında onlarla ölkəni işğal edən, sərvətlərini talayan, xalqlarını uzun illər əsarətdə saxlayan Fransanın həmin ərazilərdə hərbi və bəşəriyyət əleyhinə çoxsaylı cinayətlər törətdiyini, etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini soyqırımına məruz qoyduğunu diqqətə çatdırmış, Fransa kolonializminin utancverici yeni metodlarının bu gün də davam etməsindən təəssüfünü bildirmişdi. Bununla yanaşı, o, Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi kolonializmə qarşı mübarizə aparan və azad olmağa çalışan xalqları dəstəklədiyini diqqətə çatdırmışdı.

Bu günlərdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da bəyan etdi ki, Fransa Ermənistanı aldadır, rəsmi İrəvan təxribatlara getməməlidir. Ərdoğan deyib: "Fransa daha əvvəllər də Ermənistana dəfələrlə dəstək verib. Amma heç bir nəticəsi olmayıb. Hətta Fransa ATƏT-in keçmiş Minsk Qrupunun həmsədri kimi də nəyəsə nail ola bilməyib. İndi isə yenidən Ermənistanı təhrik edir. Zirehli texnikalar versə, nə olacaq ki?! Bunun da nəticəsi olmayacaq. Çünki artıq öz torpaqlarını işğaldan azad etmiş Azərbaycan var. Daha əvvəl Ermənistana göndərilən tanklar, toplar, tüfənglər Azərbaycanın əlinə keçib. Fransa Ermənistanı aldadır".

Onun sözlərinə görə, Ermənistan hakimiyyəti yaxın keçmişdə baş verənlərdən nəticə çıxarmalı, təxribatlara getməməli, sülh imkanlarını lazımınca dəyərləndirməli və bəzi ölkələrin təlesinə düşməməlidir. Bu, İrəvanın xeyrinə olar: "Azərbaycanla sülh Ermənistan üçün ən yaxşı yoldur. Əllərinə silah verənlər Ermənistanı tək qoyacaqlar".

Artıq Fransanın özündə də bu ölkənin Azərbaycana böhtan atdığını etiraf edənlərin sırası genişlənir. Azərbaycanın Fransadakı Dostları Assosiasiyasının (ADA) prezidenti Jerom Lamber də Fransa mətbuatında Azərbaycan əleyhinə səsləndirilən böhtanlar, erməni lobbisinin fəaliyyətinin mənfi təsirləri haqqında danışıb. Lamber Azərbaycanın ünvanına səsləndirilən böhtanlarin fransalıların fikirləri deyil, bəzi lobbiçilərin mənfur əməllərinin nəticəsi olduğunu qeyd edib: "Azərbaycana ünvanlanan tənqidlər konstruktiv deyil, böhtan xarakteri daşıyır və Azərbaycan buna layiq deyil. Biz belə halların baş verməməsi üçün daha artıq səfərbər olmalıyıq".

Fransa hələ sülhə mane olmaqda davam edir. Nə yaxşı artıq Ermənistanda başa düşüblər ki, Cənubi Qafqazda sülhün alternativi yoxdur.

# Yeni Azərbaycanın xilaskarı və qurucusu



**Ümummilli lider Heydər Əliyevin adı çəkiləndə müstəqil dövlətçiliyimizi, ölkəmizdə yaradılan möhkəm sabitliyi, əmin-amanlığı, inkişaf və tərəqqini düşünürük. Ulu öndəri hər zaman xalqı, milləti və Vətəni qarşısında xidmətləri ölçüyəgəlməz bir dahi şəxsiyyət kimi xatırlayırıq. Bütün bunlarla bərabər, onu Azərbaycan tarixində müstəqil dövlətin rəmzi, ölməz ideyaları ölkəmizin əldə etdiyi bütün uğurların təməlində dayanan müdrik rəhbər kimi daim gözlərimiz önündə canlandırırıq.**

Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı olan Heydər Əliyev öz uzaqgörən siyasəti sayəsində milli dövlətçilik ideyasını gerçəkləşdirib. Ulu öndər müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olub. Məhz Ümummilli liderin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpüyə, dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilib.

Azərbaycan üçün belə misilsiz tarixi xidmətlər göstərən Ulu öndər həyatının mənasını xalqı ilə bir yerdə olmaqda, onun arzu və istəklərini həyata keçirmək üçün fədakarlıqlar göstərməkdə görüb. Ən çətin vaxtlarda gözləmə mövqeyi tutmadan xalq, Vətən üçün zəruri addımlar atmaqdan belə çəkinməyib. Xatırladaq ki, siyasi təcrid şəraitində olmasına baxmayaraq xalqımızın qeyrətli oğlu 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda törədilən qanlı faciə ilə bağlı cəsarətli qərar verməklə, bir tərəfdən, imperiya qüvvələrinə sözünü deyib, həm də xalqına böyük təsəlli verib, onunla birlikdə olduğunu bildirib. Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində mətbuat konfransında çıxış edən sovet rəhbərliyinin bu qəddar aktını qətiyyətlə pisləyib.

Bundan 3 il yarım sonra Heydər Əliyev ölkədə yaranan hərbi-siyasi böhran zamanı xalqın təkidi ilə Azərbaycan rəhbərliyinə yenidən qayıdışından sonra isə qardaş qırğınının, vətəndaş qarşıdurmasının qarşısını əsl ağsaqqal müdrikliyi ilə aldı, təhlükə sovuşdu, çoxsaylı insan qanı tökülmədi. Bu sözləri deyərkən yadıma bir əhvalat düşür. Yay aylarında tez-tez təbiət qoynuna gedirəm. Buz bulaqlar, dərin dərələr, vüqarlı dağlar, yaşıl yaylaqlar Qərbi Azərbaycanla bağlı Vətən yanğımı, torpaq harayımı, yurd həsrətimi bir az səngidir. Belə günlərin birində “Niva” maşınını dağın ətəyindəki “Qız meydanı”nda saxlayıb yanaşı qurulan alaçığın yanında saxladıq. İçəridən bir nəfər gülərüzlü çoban bizə yaxınlaşdı. Zarafatla dedim: “Atalar yaxşı deyib, acdın çobana, yoruldun karvana yaxınlaş. Çoban qardaş, biz acmışıq”.

Çoban da zarafatından qalmayıb qayıtdı: “Qonağa baxıb atına arpa verərlər. Vaxtsız gələn qonaq öz kisəsindən yeyər, deyiblər. Amma sizi qaynananız çox istəyirmiş, lap vaxtında gəlmisiniz. Yaxşı bir “Çoban bozartması” hazırlamışam. Buyurun içəri”.

Alaçığa daxil olanda gözlərimə inanmadım. Yuxarı başda, qızılı çərçivədə Ulu öndərin əzəmətli portreti asılmışdı. Məni fikir götürdü, dağın bu yerində, əl çatmayan, ün yetməyən bir məkanda, bir çoban binəsinə Heydər Əliyevin portreti necə gəlib çıxıb? Üzümü çobana çevirib soruşdum: “Heydər Əliyevin portretini bura sən gətirmisən?” O, bir anlıq sükutdan sonra dedi: “Otuz ildir ki, dağda-arandayam, necə deyərlər, çobançılıqda bişmişəm. Çoban düşüncəmlə olsam da. Bax, o naxırı görürsən? Onlar səllimi otlayır. Səhər tezdən buraxırıq örüşə, axşam da özləri gəlirlər sağına. Necə deyərlər, burada da qurd-qoyunla otlayır. Bu sakitliyi, əmin-amanlığı bərqərar edən Heydər Əliyev olmayıbmı? Bir vaxtlar o böyük insan öz yerində olsa idi, indi düşmən Qarabağ yaylaqlarında at oynatmazdı”. Bax, bu, Heydər Əliyevə ümumxalq məhəbbətinin bir zərrəsi idi...

Hərdən fikirləşirəm ki, dahi şəxsiyyət, nurlu zəka, müdrik ağsaqqal olan Heydər Əliyevi nədir belə əlçatmaz edən? Bütün müdrik təlimlərdə deyilir ki, insanın ali vəzifəsi kamilləşməkdir. Hər sahəni kamil bilən adam filosofdur. İnsan kosmoqoniyası ilə məşğul olanlar, filosoflar, dahi şəxsiyyətlər üçün xüsusi kriteriyalar əsas götürülür. Bu meyarlar Ulu öndərdə ən yüksək səviyyədə gerçəkləşmişdi. Dərin zəka, İntizamlılıq, çalışqanlıq, dözümlülük, ədalətlilik, əməksevərlik onun ali xüsusiyyətləri idi.

Ümummilli lider Heydər Əliyev əmin idi ki, intizam olmayan yerdə anarxiya hökm sürər. Belə başıpozuqluğu 1990–1992-ci illərdə gördük, hadisələrin canlı şahidi olduq. Dəstəbazların, qanunu pozanların, qanunsuz silah saxlayanların xalqın başına gətirdikləri bəlanın ağrısını yaşadıq. O dövrdə özbaşınalıq hər yerdə–orduda, küçədə, iş yerlərində baş alıb gedirdi. İndiki siyasi sabitlik, sakitlik, intizamın möhkəmlənməsi bizi anarxiyadan xilas etdi. Bu, dahi şəxsiyyətin qətiyyəti sayəsində gerçəkləşdi. Bəli, Ulu öndər qətiyyətli idi. Ən çətin anlarda, təhlükəli məqamlarda qətiyyət göstərirdi. Atdığı hər addım, verdiyi hər qərar təcrübə və məntiqə əsaslanırdı.

Bu kamil insanda güclü müşahidə qabiliyyəti vardı. Bəzən başqaları üçün xırda, əhəmiyyətsiz sayılan məqamlar onun gözündən yayınmırdı. İntuisiya və fəhm müdriklərə xas olan ən gözəl xüsusiyyətdir. Daxili inam və fəhm Heydər Əliyevə ən böyük siyasətçiləri də heyran qoyan addım atmaqda ona kömək edirdi.

Dahi şəxsiyyət hansı mühitə düşürdüsə ətrafdakılarla xoş münasibət yaratmağı bacarır, necə deyərlər, insanlarla dil tapırdı. Diplomatiyada həmişə uğur qazanırdı. Təkcə onu demək kifayətdir ki, dünya diplomatları, XX əsrin ən böyük şəxsiyyətləri, siyasi xadimləri Heydər Əliyev diplomatiyasına heyran olurdular. Yadımdadır, Türkiyə Respublikasının bütün dünyada məşhur olan “Nərgiz” TV kanalının keçirdiyi rəy sorğusu nəticəsində toplanan 59 min 413 səslə ilin ən görkəmli siyasətçisi, diplomatı adına ulu öndər Heydər Əliyev layiq görüldü. Daxili mədəniyyəti də yüksək idi. Əsl azərbaycanlı kişisinə xas olan ağayanalığı, beynəlxalq etik qaydaların incəliklərini dərindən bilməsi onu başqalarından əsaslı surətdə fərqləndirirdi. Maneraları da olduqca təbii idi.

Heydər Əliyev ən çətin anlarda özünü itirmirdi. Hissi və həyəcanlarını gizlətməyi bacarırdı. Məqsədinə nail olmaq üçün 4 zəruri amilə–hikmət, ağıl, təmkin və ədalətə arxalanırdı. Möhkəm yaddaş sahibi idi. Demək olar ki, gördüyünü, oxuduğunu, hadisələri olduğu kimi yadında saxlaya bilirdi.

Bu fikrin təsdiqi olaraq bir faktı xatırlatmaq istərdim. 1993-cü il sentyabr ayında Ulu öndərə açıq məktub və bir də şeir yazıb göndərmişdim. Yazı 1993-cü il oktaybr ayının 14-də “Yeni Azərbaycan” qəzetində dərc edilmişdi. Bu tarixdən 3 il ötəndən sonra Ümummilli liderin iştirak etdiyi bir yubiley mərasimində həmin şeri oxudum. Dahi şəxsiyyət məni çağıraraq görüşdü və dedi: “Təşəkkür edirəm, mən bu şeri çoxdan oxumuşam”.

Ulu öndər həm də qədim tarixə malik zəngin adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi dərindən bilən müdrik el ağsaqqalı idi. Vətənə, torpağa, millətə, dilə və dinə dərindən bağlı idi. O, insanların mənəvi həyatı, real və ideal yaşayış arzuları ilə bağlı olan dahi rəhbər, bəşəriyyətə nicat yolu göstərməyə qadir olan bir sərkərdə idi. Qəlbində yaşatdığı arzularla, canlandırdığı gözəl, xoşbəxt gələcəyə inamla nəfəs alırdı. Bir sözlə, bu yüksək ali keyfiyyətləri ilə tarixi şəxsiyyət, dünya şöhrətli siyasətçi, nüfuzlu dövlət xadimi Heydər Əliyev 20-ci yüzillikdə Ulu Tanrının bizə, millətimizə, xalqımıza göndərdiyi böyük bir nur payı idi. O nur indi qaranlıqları nurlandırır, xalımızı daha parlaq gələcəyə aparır.

Xalqımızın qüdrətli oğlu Heydər Əliyev dahi şəxsiyyət, müdrik rəhbər, qeyri-adi qüdrət sahibi olduğuna görə, qarşısına qoyduğu ali məqsəd Vətəninə yüksək səviyyədə, sədaqətlə xidmət etmək, millətinin imzasını dünya xalqlarının adları sıralarında önə çıxarmaq olub. Ümumilli lider hansı xarici ölkələrə gedirdisə, hansı rəsmi səfərlərdə olurdusa yüksək səviyyəli görüşlər keçirməklə bərabər, vaxt tapıb həmin ölkələrdə yaşayan azərbaycanlılarla da təmasda olurdu. Millət atası onların problemləri ilə maraqlanır və harada yaşamalarından, işləmələrindən asılı olmayaraq onlara azərbaycanlı olmalarını unutmamağı tövsiyə edirdi.

Yeri gəlmişkən, bu gün dünyada sayı 50 milyonu ötən azərbaycanlılar XX əsrin sonlarına qədər heç vaxt bir-biri ilə həmrəylik nümayiş etdirməmiş, lobbiləşə, təşkilatlana bilməmişdi. Ayrı-ayrı ölkələrdə kortəbii fəaliyyət göstərən Azərbaycan icmalarının fəaliyyəti əlaqələndirilməmişdi. Buna görə də Ümumilli liderin uzaqgörənliyi ilə dünya azərbaycanlılarının bir araya gəlmələri, həmrəylik nümayiş etdirmələri adi aksiya olmayıb, həm də zaman-zaman bu xalqın üzləşdiyi faciələrdən ibrət dərsi götürmək, vahid milli ideologiyaya sədaqət nümayiş etdirmək baxımından mühüm önəm daşıyıb.

Dünya azərbaycanlılarını həmrəyliyə səsləmək, onların azərbaycanlı olmalarını bir daha yaddaşlara həkk eləmək böyük cəsarət, iradə tələb edirdi. Heydər Əliyev bu arzusuna da çatdı. Bu gün inamla demək olar ki, böyük rəhbərin müdrikliyi və uzaqgörənliyi sayəsində Avropa, Asiya, Amerika, Avstraliya və başqa ölkələrdə yaşayan azərbaycanlılar özlərinin güclü icmalarını, birliklərini yaradaraq həmrəylik nümayiş etdirir, adət-ənənələrmizin, dilimizin, dinimizin, mənəvi-əxlaqi dəyərlərimizin qorunması istiqamətində birlikdə fəaliyyət göstərirlər. Ulu öndər Heydər Əliyev qismətinə qürbətdə yaşamaq düşən soydaşlarımızı bir araya gətirməyə, onların vətənpərvərlik duyğularını alovlandırmağa, hər birinin öz tarixini, Vətənini, Azərbaycanı sevməsinə, onunla fəxr etməsinə çalışırdı.

Dünya Azərbaycanlılarının I Qurultayının da Bakıda təşkil olunması təsadüfi deyildi. Başqa sözlə, bu, o demək idi ki, dünya azərbaycanlıları azərbaycanlı olduqlarını unutmasınlar və Azərbaycanın qayğısına qalsınlar, tarixi Vətənin problemlərinin həll olunmasında yaxından iştirak etsinlər. Heydər Əliyevin atdığı bu cəsarətli addım da öz səmərəsini verdi. İndi fəxrlə demək olar ki, bütün dünyada yaşayan azərbaycanlılar Azərbaycanı bir an belə unutmurlar. Bütün ölkələrdə yaşayan soydaşlarımızın birliyi, cəmiyyətləri yaranıb. Onlar müstəqil respublikamızın möhkəmlənməsinə, ona qarşı uzanan xain əllərin qarşısının alınmasına sinə gərirlər.

Burada bir məqamı da qeyd etmək istərdim. Ulu öndər Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişindən sonrakı dövr, əslində, respublikamızı müstəqil dövlət quruculuğuna aparan yolun başlanğıcı idi. Başqa sözlə, ötən əsrin 70-ci illərindən başlanan iqtisadi inkişaf, milli-mədəni dirçəliş, özünüdərk, milli ruhun yüksəlişi xalqımızın illərdən bəri qəlbində yaşatdığı dövlətçilik ideyasının milli-azadlıq mübarizəsində əsas hərəkətverici qüvvəyə çevrilməsinə mühüm zəmin yaratdı.

Lakin müstəqilliyin ilk illərində ölkədə hökm sürən xaos, özbaşınalıq, siyasi böhran, Ermənistanın qəsbkarlıq siyasəti nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal olunması və bunun nəticəsində 1 milyondan artıq soydaşımızın doğma yurd-yuvasından didərgin düşməsi sosial-iqtisadi böhranı daha da dərinləşdirmiş və beləliklə, ölkə iqtisadiyyatı idarəolunmaz vəziyyətə düşmüşdü. Yeni dövrün tələblərinə uyğun iqtisadiyyatın qurulmaması, yerli və keçmiş SSRİ miqyasında fəaliyyət göstərən müəssisələr arasında mövcud əlaqələrin pozulması, ölkənin siyasi-iqtisadi və informasiya blokadasına alınması nəticəsində 1990-cı illərin əvvəllərində Azərbaycanın gələcək taleyinin müəyyənləşdiyi belə bir ağır, çətin zamanda bütün həyatını xalqına həsr etmiş Heydər Əliyev hakimiyyətə qayıdışı ilə böyük xilaskar missiyasını yerinə yetirdi. Bununla da xalqımızın itirilmiş inamı özünə qaytarıldı, ölkənin yeni inkişaf dövrünün əsası qoyuldu, xaos və böhrana son qoyuldu, vətəndaş müharibəsinin qarşısı alındı, atəşkəsə nail olundu.

Hakimiyyətə “Mən Azərbaycanın müstəqilliyini Azərbaycan xalqı üçün böyük nailiyyət hesab etmişəm və bu müstəqilliyin əldə olunmasına xidmət etmişəm. Bundan sonra ömrümün qalan hissəsini də Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə, inkişaf etməsinə sərf edəcəyəm” prinsipi ilə qayıdan dahi şəxsiyyət ömrünün sonunadək bu strateji xəttə sadiq qaldı. Bu gün isə tam əminliklə deyə bilərik ki, əgər o vaxt ölkədə baş verən hadisələrə ümummilli lider prinsipial münasibət bəsləməsəydi, Azərbaycan adlı dövlət hazırda dünya xəritəsində olmazdı.

Ümummilli liderimizin yenidən hakimiyyətə qayıtması ilə bütün sahələrdə olduğu kimi, ölkəmizin iqtisadi həyatında da taleyüklü dəyişikliklərin əsası qoyuldu. Azərbaycan dövlətini labüd fəlakətdən, hərc-mərclikdən xilas edən Heydər Əliyev respublikanın iqtisadi yüksəlişi üçün kompleks tədbirlər həyata keçirməyə başladı. Ulu öndərin rəhbərliyi ilə qısa müddətdə bazar iqtisadiyyatının formalaşması üçün qanunvericilik bazası yaradıldı, məqsədli dövlət proqramları qəbul edildi, institusional islahatlar aparıldı, mülkiyyət münasibətlərində əsaslı dəyişikliklərə başlanılması üçün mühüm addımlar atıldı.

Xatırladaq ki, dahi siyasətçi Heydər Əliyev tərəfindən müəyyənləşdirilən və Azərbaycanın gələcək inkişafına istiqamətlənən strategiyanın əsasını iqtisadiyyatın tərəqqisinə, mövcud resurslardan səmərəli istifadəyə, dünya iqtisadiyyatına inteqrasiyaya və nəticə etibarilə vətəndaşların rifah halının yüksəldilməsinə hesablanan sosialyönümlü bazar iqtisadiyyatının yaradılması təşkil edirdi. Ona görə də dahi şəxsiyyət tərəfindən başlanan irimiqyaslı iqtisadi islahatlar nəticəsində ölkədə maliyyə vəziyyəti getdikcə sabitləşdi, iqtisadiyyata investisiyalar cəlb olundu, xalqın həyat səviyyəsi yaxşılaşdı.

Ümummilli liderin ölkə iqtisadiyyatının hərtərəfli inkişafı üçün neft amilindən məharətlə istifadə etməsi, 1994-cü ilin sentyabrında böyük təzyiqlərə baxmayaraq “Əsrin müqaviləsi”nin imzalanmasına nail olması yüksək siyasi iradənin və qətiyyətin təntənəsi idi. Bu saziş Azərbaycanın qapılarını dünyanın üzünə açdı, bu sahədə yeni müqavilələrin imzalanmasını və ölkəyə investisiya qoyuluşunu təşviq etdi. Azərbaycan MDB məkanında Qərbin iri neft şirkətləri ilə böyük miqyasda saziş imzalayan ilk dövlət olmaqla, Xəzər dənizində beynəlxalq əməkdaşlığın əsasını da qoydu. Eyni zamanda, Azərbaycan neftinin dünya bazarlarına çıxarılması üçün 1996-cı ildə Bakı–Novorossiysk, 1999-cu ildə Bakı–Supsa ixrac neft kəmərlərinin istismara verilməsi, Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin inşasına dair sazişin imzalanması ilə ixrac marşrutlarının diversifikasiyasına nail olundu. Bununla yanaşı, Azərbaycan qazının Qərb bazarına ixracının reallaşması üçün ulu öndərin təşəbbüsü ilə Cənubi Qafqaz Boru kəmərinin inşasına başlanıldı.

Dahi şəxsiyyət 1999-cu ildə neft yataqlarının xarici şirkətlərlə birgə işlənməsindən əldə edilən mənfəət neftinin satışından daxil olan vəsaitlərin səmərəli idarəsini, həmin vəsaitlərin prioritet sahələrin inkişafına və sosial-iqtisadi baxımdan mühüm önəm daşıyan layihələrin həyata keçirilməsinə yönəldilməsini reallaşdırmaq üçün Dövlət Neft Fondunun yaradılması ilə bağlı fərman imzaladı. Ümummilli liderin müdrik qərarı ilə Dövlət Neft Fondundan ilk vəsait qaçqın və məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına yönəldildi.

Ümummilli liderin təşəbbüsü və rəhbərliyi ilə 1995-ci ildən başlayaraq iqtisadiyyatın bazar münasibətləri əsasında qurulması, aqrar islahatların həyata keçirilməsi, sovxoz və kolxozlara məxsus torpaqların, mal-qaranın və əmlakın kəndlilərə paylanması, qiymətlərin sərbəstləşdirilməsi kimi tədbirlər kənd təsərrüfatının inkişafına təkan verdi, bu sahədə ciddi struktur dəyişiklikləri aparıldı, yeni sahələr yarandı, məzmunca fərqli münasibətlər formalaşdı. Ulu öndərin memarı olduğu torpaq islahatı kənd təsərrüfatını 1990-cı illərin əvvəllərindəki böhranlı vəziyyətdən xilas etdi və gələcək inkişafının əsasını qoydu.

Heydər Əliyevin müəyyənləşdirdiyi bütün sosial-iqtisadi hədəflər bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin başlıca məqsədləridir və bu strategiya bütünlüklə zəngin və qüdrətli Azərbaycanın davamlı inkişafına xidmət edir. Məhz bu strategiya dahi öndərimiz tərəfindən təməli qoyulmuş inkişaf və tərəqqi konsepsiyasına söykənir və müasir mərhələdə yeni keyfiyyət və kəmiyyət çalarları ilə zənginləşməkdədir.

***Əvəz MAHMUD LƏLƏDAĞ,***
***şair-publisist***

# Moskvada Ulu öndərin 100 illik yubileyinə həsr olunmuş fotosərgi

**Moskvada Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin nəzdində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzində AZƏRTAC-ın təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş fotosərgi açılıb.**



“Heydər Əliyev İli” çərçivəsində təşkil olunan sərgidə AZƏRTAC-ın fotoxronikasında saxlanılan və ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dönəmlərini əks etdirən 50-yə yaxın nadir fotoşəkil sərgilənir. Ulu öndərin Rusiyanın tanınmış siyasi, ictimai və mədəniyyət xadimləri ilə görüşlərinin, mətbuat konfranslarının, Rusiyanın müxtəlif regionlarına səfərlərinin əbədiləşdirildiyi fotomateriallar ziyarətçilərdə böyük maraq doğurub.

Tədbirin açılışında Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin əməkdaşları, Rusiya Azərbaycanlı Gənclər Birliyinin fəalları, Rusiya mədəniyyətinin və ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Sərgi dekabrın sonunadək davam edəcək.

***XQ***



**İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20-ci ildönümü ilə əlaqədar, oxucuların diqqətinə təqdim etdiyim bu qeydləri qələmə alarkən onun ən yüksək dövlət postundakı çoxşaxəli fəaliyyətinin xarici siyasət sferasında bütün təlatümləri və uğurları bir daha göz önünə gətirməli oldum.**



# Müstəqil dövlətin gələcəyini müəyyənləşdirmiş tarixi mərhələ

2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə 76 faizdən çox səs toplayan İlham Əliyev birmənalı olaraq qələbə qazandı. Qeyd etmək lazımdır ki, o, daha üç dəfə – 2008, 2013 və 2018-ci illərdə də seçicilərin etimadını qazanaraq yüksək reytinqlə qələbə çalır. Prezident kimi, ilk andiçmə nitqində Azərbaycanın yüksək inkişaf etmiş ölkəyə çevrilməsinin əsas şərtinin Heydər Əliyev siyasi kursunun davamiyyətində olduğunu etiraf edən cənab İlham Əliyev Dağlıq Qarabağ probleminin respublikanın ərazi bütövlüyünün bərpası çərçivəsində həllinin ağırlığını və zəruriliyini də vurğuladı.

Lakin heç kəsdə şübhə yarana bilməzdi ki, Azərbaycan xalqı üçün bir nömrəli problem olan bu məsələlərin həlli, dövlətin dərin düşünülmüş, maksimum balanslaşdırılmış, konstruktiv və hər cəhətdən səmərəli xarici siyasətinə əsaslanır. Üstəlik, Dağlıq Qarabağ separatçıları Ermənistanın himayəsi altında problemin ifrat dərəcədə beynəlmiləlləşməsinə və beynəlxalq xarakter almasına nail olmuşdular.

İlham Əliyevin Azərbaycanın uğurlu xarici siyasət strategiyasının həyata keçirilməsini təmin edən fəaliyyəti özünü çox gözlətmədi. Azərbaycanın beynəlxalq iqtisadi münasibətlər sisteminə, xüsusilə də transmilli yanacaq-enerji layihələrinə daxil olması, ölkənin enerji təhlükəsizliyinin, onun beynəlxalq statusunun möhkəmlənməsinə, milli gəlirin artmasına, o cümlədən, silahlı qüvvələrin möhkəmlənməsi sahəsinə, texnoloji və maddi modernləşməsinə, onların şəxsi heyətinin peşəkarlıq səviyyəsinin yüksəldilməsinə real zəmin yaratdı.

Bakı–Tbilisi–Ceyhan ixrac neft kəmərinin, Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin fasiləsiz fəaliyyətinin təmin edilməsi, Türkiyə ilə Azərbaycanı, Mərkəzi Asiya və Çini birləşdirən Bakı–Tbilisi–Qars dəmir yolunun və digər böyük nəqliyyat və enerji təşəbbüslərinin yaradılması layihələrinin həyata keçirilməsi sayəsində Azərbaycan qlobal beynəlxalq maliyyə-sənaye strukturlarına inteqrasiya dinamikasını kəskin şəkildə artırdı.

Avropa və Cənub-Şərqi Asiya arasında yüksək sürətli və sərfəli ticarət əlaqələrinin təmin edilməsinə yönəlmiş digər mühüm layihənin – Şimal –Cənub nəqliyyat dəhlizinin Azərbaycandan keçən hissəsinin reallaşması dövlət başçımızın bütün nəqliyyat və enerji siyasəti panoramına məntiqi, parlaq əlavə oldu. Beləliklə, dövlətin maliyyə, sənaye və texnoloji əsasları maksimum dərəcədə təkmilləşdi.

İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycanın beynəlxalq aləmdəki mövqeyinin gücü onu MDB-nin geosiyasi məkanında bütün dövlətlər arasında 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilmiş ilk ölkəyə çevirdi. Bundan başqa, Azərbaycan, 120 ölkənin yekdil qərarı ilə Qoşulmama Hərəkatının sədri kimi, dünyada BMT-dən sonra ikinci ən böyük təşkilatının fəaliyyətinə öz məhsuldar töhfəsini verir. Lakin bununla, respublikanın beynəlxalq təşkilatlar sistemindəki fəaliyyəti məhdudlaşmır. Belə ki, o, öz fəaliyyətini İslam Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Təşkilatı da daxil olmaqla, bir çox başqa beynəlxalq qurumlar çərçivəsində də davam etdirir.

Bununla yanaşı, dövlətin xarici siyasətinin İlham Əliyevin diplomatik dühası ilə ərsəyə gəlmiş tarazlığı Azərbaycana xarici siyasətin aparılması baxımından dünyanın ən tolerant, sivil və konstruktiv ölkələrindən biri kimi şöhrət qazandırıb. Prezident İlham Əliyevin bu strategiyasının müdrikliyi və aşkar perspektivləri Azərbaycana bütün regional məsələlərdə həlledici söz sahibi olan müstəqil dövlət statusu verdi. İndi regionda strateji əhəmiyyətli heç bir layihə Azərbaycanın fikri nəzərə alınmadan həyata keçirilə bilməz.

Dövlətimizin başçısı özü də Azərbaycanın xarici siyasət konsepsiyasını aydın şəkildə formalaşdıraraq, "bizim diplomatiyamız hücum diplomatiyası olmalıdır, milli maraqlar tam təmin edilməlidir" qənaitinə gəlmişdir. Məhz elə bu cür yanaşma sayəsində Prezident İlham Əliyevin titanik diplomatik səyləri nəticəsində respublikanın diplomatik əlaqələrinin bu günə olan spektri dünyanın 160 ölkəsini əhatə edir.

Bir tərəfdən, qarşılıqlı faydalı əməkdaşlıq və dövlət təhlükəsizliyinin təmin edilməsinin bütün sahəsini əhatə edən ikitərəfli müttəfiqlik münasibətlərinin üstünlüyünün əsas qayəsi (Türkiyə ilə müttəfiqlik münasibətləri haqqında 15 iyun 2021-ci il tarixli Şuşa Bəyannaməsi, Rusiya Federasiyası ilə müttəfiqlik münasibətləri haqqında 22 fevral 2022-ci il tarixli Moskva Bəyannaməsi və s.) dünyanın digər region ölkələri ilə iqtisadi və siyasi əməkdaşlıq haqqında danışıqlar prosesinin inkişafını kifayət qədər güclü şəkildə stimullaşdırır. Digər tərəfdən isə, respublikanın xarici siyasət fəaliyyətinin konsepsiyası Amerika qitəsi, Avropa və Asiya ölkələri ilə dövlətlərarası münasibətlərin diversifikasiyasını da nəzərdə tutur.

Azərbaycan Respublikasının Yaxın, Orta Şərq və Cənubi Asiya dövlətləri ilə münasibətlərinin – nəqliyyat-enerji marşrutları, neft və hərbi-texnoloji bazar sahəsində əməkdaşlıqdan tutmuş, xarici siyasət və mədəni əlaqələrin intensivləşdirilməsinə qədər inkişaf dairəsi misilsizdir. İlham Əliyevin respublikaya rəhbərliyinin bütün illəri onun Azərbaycana güclü beynəlxalq dəstəyi, Türkiyə, İsrail, Pakistan və Əfqanıstan kimi müsəlman ölkələrinin, eləcə də Ərəb dövlətlərinin, xüsusilə Səudiyyə Ərəbistanı, Misir Ərəb Respublikası və Küveytin dəstəyini təmin edən son dərəcə dəqiq və uzaqgörən diplomatiyası ilə dolu idi.

Azərbaycan ilə Ərəb Dövlətləri Liqası arasındakı münasibətlər beynəlxalq aləmdə həmrəylik və qarşılıqlı dəstək hissi ilə dolu olan xüsusi xarakteri ilə seçilir. Azərbaycan 2006-cı ildən Prezident İlham Əliyevin yüngül əli ilə bu təşkilatın müşahidəçi statusunda üzvüdür, lakin ildən-ilə onunla əməkdaşlığını genişləndirir.

Prezident İlham Əliyevin misilsiz əmək qabiliyyəti, tükənməz humanizmi və bəşəriyyətin ən mühüm problemlərinin həllində hər şeyə üstün gələn sağ cinahda olma arzusu, Azərbaycanın dövlət-ərazi kompleksinin bərpası və gələcək hərtərəfli çiçəklənməsi istiqamətində apardığı ciddi işlərə baxmayaraq, onun bütün dünya ölkələrini əhatə edən COVID-19 pandemiyasına qarşı qlobal mübarizə sahəsində təşəbbüsünü yaratdı.

Əlavə olaraq, İlham Əliyevin bilavasitə rəhbərliyi altında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 2020-ci ilin aprelində və Qoşulmama Hərəkatının təmas qrupunun 2020-ci ilin mayında keçirilən zirvə görüşləri həm dövlətdaxili, həm də regional və qlobal tədbirlər çərçivəsində pandemiya ilə mübarizə vasitələri hazırladı. Bunun ardınca İlham Əliyevin Qoşulmama Hərəkatının sədri kimi, BMT-nin Baş katibinə bu təşkilatın xüsusi sessiyasının çağırılmasının zəruriliyi ilə bağlı müraciəti oldu.

Eyni zamanda, Prezident İlham Əliyevin xarici siyasətinin əsas istiqaməti daim Qarabağ ərazilərinin işğaldan azad edilməsi, respublikanın Ermənistanın təcavüzü nəticəsində pozulmuş ərazi bütövlüyünün bərpası üçün xarici arenada münbit şəraitin yaradılması zərurəti qalırdı.

Dövlətimizin başçısının işləyib hazırladığı xarici siyasət kursunun maksimum tarazlığı, qonşu dövlətlərlə münasibətlərdə ardıcıllıq və sabitlik, ona hələ AXCP – Müsavat alyansının fəlakətli hakimiyyəti dövründə deformasiyaya uğramış Rusiya ilə münasibətləri yaxşılaşdırmağa, qarşılıqlı faydalı maraqların reallaşdırılması üçün platforma yaratmağa və onları əvvəlcə strateji tərəfdaşlıq, sonra isə 22 fevral 2022-ci ildə qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin imzalanmasından sonra müttəfiqlik rejimində aparmağa imkan verdi. Üstəlik, Prezidentin bu siyasəti Ermənistanın Rusiyanı manipulyasiya etmək cəhdləri və Rusiya Federasiyası ilə müttəfiqliyinin uyğunsuzluğunu nümayiş etdirməsi fonunda həyata keçirilirdi.

Bir qədər sonra – 2023-cü il oktyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri şurasının 53-cü iclasının iştirakçılarını qəbul edərkən çıxışında qeyd etmişdir ki, "Biz Rusiya Federasiyasının vasitəçiliyini minnətdarlıqla qəbul edirik, çünki Rusiya bizim qonşumuz və müttəfiqimizdir..."

Türkiyə ilə qardaşlıq və müttəfiqlik əlaqələrinin möhkəmləndirilməsi, nəqliyyat-energetika, hərbi-texniki və mədəniyyət sahələri də daxil olmaqla, hərtərəfli əməkdaşlığın səviyyəsinin sistemli şəkildə yüksəldilməsi müttəfiqlik qüvvələri sisteminin formalaşmasında təməl daşı oldu. Onun Türkiyə Respublikasının başçısı Rəcəb Tayyib Ərdoğanla 15 iyun 2021-ci ildə imzaladığı, ikitərəfli Azərbaycan–Türkiyə geniş spektrli əməkdaşlığının bütün sistemini ümumiləşdirən Şuşa Bəyannaməsi, təhlükəsizliyin yüksək dərəcədə təminatının rəmzi olmaqla, nəinki Cənubi Qafqaz, bütün Avrasiya üçün də strateji əhəmiyyət kəsb edirdi.

Bununla da Azərbaycan torpaqlarının erməni işğalından azad edilməsi uğrunda mübarizənin yekun mərhələsinin xarici siyasət komponenti tamamilə təmin olundu. Və daxili siyasi faktorla birlikdə, öz milli lideri İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının 44 günlük, mahiyyətcə isə Vətən müharibəsində qazandığı parlaq Qələbə onun çoxvektorlu, səmərəli siyasətinin təbii nəticəsi idi.

Ermənistanın rəhbərlik etdiyi separatçı qüvvələrin bütün bu təxribat xarakterli anti-Azərbaycan fəaliyyəti, eləcə də onun tərəfindən Azərbaycan Respublikasının qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqələrinin təhlükəsizliyinə təminat haqqında 2020-ci il 9 noyabr tarixli üçtərəfli Bəyanatın 9-cu bəndinə əməl edilməməsi, bəzi Qərb dövlətlərinin xoş münasibəti və hətta müdafiəsi ilə həyata keçirilirdi.

Ədalətin şər və təcavüzkarlıq üzərində mütləq qələbəsini, Azərbaycan Silahlı Qüvvələrinin Vətənin müstəqilliyi və azadlığı uğrunda mübarizədə yenilməzliyini nümayiş etdirən 2023-cü il sentyabrın 19 və 20-si Azərbaycan xalqının tarixinə qızıl hərflərlə həkk olundu. Axı Ermənistanın işğalçı korpusunun qalıqlarını və separatçı quldur dəstələrini məhv etmək üçün əsgərlərimizə cəmi bir sutkadan az vaxt lazım oldu.

Yuxarıda qeyd olunanları bir vaxtlar separatçı serpentarium – Stepanakert, indi isə Xankəndi üzərində Azərbaycan Respublikasının Dövlət Bayrağının təntənəli şəkildə ucaldılması zamanı Prezident İlham Əliyevin söylədiyi sözlərlə yekunlaşdırmaq istəyirəm:

"20 il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan Bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın... Mən qürur hissi ilə Azərbaycan Bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün qaldırdığım Bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

*Adəm İSMAYIL,*
*fəlsəfə elmləri doktoru*

**10 Dekabr Ümumdünya İnsan Hüquqları Günü**

# Azərbaycan beynəlxalq normalara sadiqdir



**Bu il Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi tərəfindən qəbul edilmiş Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 75 yaşı tamam olur. Hər il dekabrın 10-u Ümumdünya İnsan Hüquqları Günü kimi qeyd olunur.**

***Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar.***

**Heydər ƏLİYEV**
**Ümummilli lider**

İnsan hüquqları bu gün hamının anladığı və ya anlamalı olduğu əvəzsiz nemətdir. İnsan hüquq və azadlıqlarının təminatı hər bir dövlətin ali məqsədini təşkil etməklə, beynəlxalq aləmdə onun demokratik inkişaf səviyyəsini, eyni zamanda, millətlərin sivil xarakterini müəyyən edir.

Demokratiya və insan hüquqları, sosial tərəqqi kimi ümumbəşəri dəyərlərə sadiq olan və hüquqi dövlət quruculuğu yolunda inamla irəliləyən Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının təmin edilməsi və müdafiəsi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərimiz tərəfindən həyata keçirilmiş hüquq islahatları Azərbaycanda demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin möhkəmləndirilməsinə, insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinə yönəlmiş yeni hüquq sisteminin formalaşmasına zəmin yaratmışdır.

Dövlət müstəqilliyini yenidən bərpa edən Azərbaycan Respublikası demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunu seçmiş, insan hüquq və azadlıqlarının təminatı ilə bağlı mühüm beynəlxalq konvensiyalara, sazişlərə qoşulmuşdur.

1995-ci ildə ümummilli lider Heydər Əliyevin müəllifi olduğu ümumxalq səsverməsi-referendum yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının ilk milli Konstitusiyasında Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin müddəaları əksini tapmış və dövlətimizin ali məqsədlərindən biri kimi məhz insan hüquqlarının qorunması təsbit edilmişdir. Üçdə bir hissəsi insan hüquq və azadlıqlarına həsr edilmiş bu Konstitusiya ölkəmizdə insan hüquq və azadlıqlarına əsaslanan yeni dövlət quruculuğunun əsasını qoymuşdur. Hüquq və azadlıqların bəyan olunma dərəcəsinə görə Azərbaycanın Əsas Qanunu insan hüquqları sahəsində qəbul olunmuş beynəlxalq sənədlər də daxil olmaqla, beynəlxalq hüquq standartlarının bütün tələblərinə cavab verir.

Konstitusiyanın qəbulundan sonra cəmiyyətin bütün sahələrini əhatə edən köklü dəyişikliklər prosesi çərçivəsində ümummilli lider Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş çox mühüm qanunlar və normativ hüquqi aktlar qəbul olunmuşdur. İctimai münasibətlərin inkişaf tempinə uyğun olaraq, dövlət idarəetmə sisteminin əsasını təşkil edən milli qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində görülən kompleks tədbirlər qanunçuluğun təmininə, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsinə real şərait yaratmışdır.

Şərqdə ilk dəfə olaraq, ölüm cəzasının Azərbaycanda ləğvi ölkəmizin dünyəvi, demokratik, hüquqi dövlət quruculuğu yolu ilə inamla irəlilədiyini, demokratik prinsiplərin inkişafına xüsusi önəm verildiyini təsdiqləyərək, ulu öndərimizin bəşəri humanizmə və beynəlxalq hüquq normalarına sadiqliyini bir daha nümayiş etdirmişdir.

Ümummilli liderin "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 22 fevral 1998-ci tarixli Fərmanı və "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" 18 iyun 1998-ci il tarixli sərəncamı ölkəmizdə qanunvericilik və institusional islahatlara təkan vermiş, insan hüquqlarının müdafiəsi sahəsində hüquqi mexanizmlər təkmilləşdirilmişdir.

1996–2000-ci illərdə insan hüquq və azadlıqlarının, demokratik təsisatların təminatı ilə bağlı mühüm beynəlxalq konvensiyalara, sazişlərə qoşulan Azərbaycan Respublikası 2001-ci ildə "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasını ratifikasiya etmişdir. Avropa Şurasının bu mühüm sənədinə münasibət bildirməklə Azərbaycan beynəlxalq təşkilatla sıx əməkdaşlığa hazır olduğunu və demokratik ənənələrə, ədalətə, insan hüquqlarının qorunması sahəsində öz üzərinə götürdüyü öhdəliklərə sadiqliyini bir daha bəyan etmişdir.

Ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdə qanunun aliliyinin təmin olunmasını, insan hüquq və azadlıqlarının müdafiəsini strateji prioritet kimi müəyyənləşdirən Ulu öndər demişdir: "İnsan hüquq və azadlıqlarının müdafiəsi dövlətin ali məqsədidir. Azərbaycanda insan hüquqlarının qorunması, insan azadlıqlarının təmin edilməsi həmişə diqqət mərkəzində olmuşdur".

Ulu öndərin müasir insan hüquqları siyasətini yeni mərhələdə uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən müasir dövlətçilik siyasəti nəticəsində ölkəmizdə dünyəvi, hüquqi və demokratik dövlət qurulmuş, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi üçün hərtərəfli təminatlar yaradan vətəndaş cəmiyyəti formalaşdırılmış, ictimai həyatın bütün sahələrində, o cümlədən, məhkəmə-hüquq sistemində islahatlar və yeniləşmə prosesləri dərinləşmişdir.

Qanunun aliliyi, insan hüquqları və sosial ədalət kimi fundamental əsasların möhkəmləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 28 dekabr 2006-cı il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı" insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, universal və regional səviyyədə yeni əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin gücləndirilməsinə xidmət etmişdir.

İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması, hüquq mədəniyyətinin inkişaf etdirilməsi, normativ-hüquqi bazanın və hüquq müdafiə sisteminin təkmilləşdirilməsi məqsədi ilə dövlət başçısının 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında İnsan hüquqlarının və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması sahəsində Milli Fəaliyyət Proqramı"nın icrası çərçivəsində ölkəmizin insan hüquqları sahəsində beynəlxalq müqavilələrə qoşulması prosesinin davam etdirilməsi, qanunvericilik aktları qəbul olunarkən insan hüquqları meyarının rəhbər tutulması, əhalinin müxtəlif qruplarının hüquqlarının daha səmərəli təmin edilməsi istiqamətində tədbirlərin davamlılığına nail olunmuşdur.

Ölkə başçısının uğurlu inkişaf strategiyası nəticəsində Azərbaycan bu gün öz iqtisadi qüdrətini daim artıran, eyni zamanda, mütərəqqi beynəlxalq normalara uyğun insan hüquq və azadlıqları sistemini formalaşdıran dövlətə çevrilmişdir. "Azərbaycan sülhün, təhlükəsizliyin qarantıdır" – deyən dövlət başçısının apardığı gərgin daxili və xarici siyasət nəticəsində ölkəmizin beynəlxalq aləmdə nüfuzu artmış, dünya dövlətləri və nüfuzlu beynəlxalq təşkilatlar bizim haqq işimizi dəstəkləyərək, ölkəmizin ərazi bütövlüyünü tanımışlar. Belə ki, ölkəmiz daim beynəlxalq hüquq normalarına sadiqliyini nümayiş etdirərək, Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, qan tökülmədən, beynəlxalq hüququn hamılıqla tanınmış ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında qeyd-şərtsiz həll olunması sahəsində zəruri addımlar atmış, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrin icra olunması, Azərbaycan ərazilərindən çıxarılması tələb edilmişdir. Lakin qətnamələrin icrası təmin edilmədiyindən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsinə başlamış, 10 noyabr 2020-ci il tarixdə Qələbə qazanılmış, üçtərəfli Bəyanat imzalanaraq, ölkəmizin ərazi bütövlüyü bərpa edilmişdir. Azərbaycan ərazi bütövlüyünü bərpa etməklə, həm də öz doğma yurd-yuvalarından didərgin düşmüş vətəndaşlarının hüquq və azadlıqlarının kütləvi surətdə pozulmasının qarşısını alaraq onların konstitusion hüquqlarının – yaşamaq, o cümlədən təhlükəsiz və sağlam ətraf mühitdə yaşamaq, mülkiyyət və digər fundamental hüquq və azadlıqlarının həyata keçirilməsini təmin etmişdir.

(ardı 8-ci səhifədə)

# Naxçıvan MR Ali Məclisinin növbəti sessiya iclası

**Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü il payız sessiyasının növbəti iclası keçirilib.**



İclasda Ali Məclis sədrinin müavini Anar İbrahimov bildirib ki, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Qanun layihəsini Ali Məclisə təqdim edib. Naxçıvan Muxtar Respublikası Baş naziri tərəfindən daxil olan təqdimatda isə muxtar



respublika iqtisadiyyat nazirinin vəzifəsindən azad olunması təklif edilir.

"Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Qanun layihəsi barədə Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini Həsən İsmayılov məlumat verib. Geniş müzakirədən sonra layihə birinci oxunuşda qəbul edilib.

Naxçıvan Muxtar Respublikasının Baş nazirinin iqtisadiyyat naziri Əliyev Tapdıq Vaqif oğlunun tutduğu vəzifədən azad olunması ilə bağlı təqdimatı oxunduqdan sonra məsələ ilə əlaqədar qərar layihəsi səsə qoyularaq qəbul edilib.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov cari məsələlərin müzakirəsi zamanı deputatlar tərəfindən ünvanlanan suallara aydınlıq gətirib. Nazirlər Kabinetinin səlahiyyətlərinə daxil olan məsələlərə baxılması üçün müvafiq qeydlər aparılıb.

Ali Məclis sədrinin müavini Anar İbrahimov bildirib ki, 2 deputat dünyasını dəyişdiyi üçün həmin yerlərə seçkilər keçiriləcək.

***XQ***

# 11 ayda neft və qaz satışından 7,7 milyard dollar qazanc

**Azərbaycan Dövlət Neft Fondu (ARDNF) bu ilin yanvar–noyabr aylarında "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokundan və "Şahdəniz" qaz-kondensat yatağından əldə etdiyi gəlirləri açıqlayıb.**

ARDNF-nın yaydığı məlumata əsasən, hesabat dövründə AÇG yataqlar blokundan 6 milyard 353 milyon 80 min dollar gəlir edilib. İlin 11 ayında fondun "Şahdəniz" yatağı üzrə qazancı 1 milyard 308 milyon dollar təşkil edib ki, bunun da 324 milyon 396 min dolları kondensat satışından əldə olunub.

***XQ***



# Sağlam rəqabət yüksək inkişaf amilidir

## *Yeni məcəllə ölkədə biznes mühitini yaxşılaşdıracaq*

**Son illər ölkənin istehlak bazarında müşahidə olunan süni qiymət artımı, əksər bazar subyektlərinin inhisarçı mövqeyində çıxış etməsi qiymətlərə birbaşa təsir göstərirdi. Bu da son nəticədə haqsız rəqabətə və istehlakçı hüquqlarının pozulmasına gətirib çıxarırdı.**



Eyni zamanda, haqsız rəqabətin mövcudluğu biznes mühitinin yaxşılaşlaşdırılmasına, özəl sektor üçün sağlam rəqabəti təmin etməyə əngəl törədirdi. Hətta bir neçə il öncə ölkə Prezidenti İlham Əliyev bununla bağlı narahatlığını bildirərək bəzi dövlət məmurlarını müxtəlif biznes dairələrinə kömək göstərməklə haqsız rəqabətə imkan yaratmaqda ittiham etmişdi. Dövlət başçısı Azərbaycanda inhisarçılığa qarşı mübarizənin gücləndirilməsinin vacibliyin önə çəkərək bununla biznes dairələri üçün daha yaxşı şərait yaradılacağına əmin olduğunu bildirmişdi.

Ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması və inhisarçılığın aradan qaldırılması istiqamətində zaman-zaman müəyyən təsirli tədbirlərə əl atılıb. Haqsız rəqabət hallarına, inhisarçılığa qarşı mübarizə sahəsində tədbirlər cari ilin əvvəlindən də davam etdirilib. İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin məlumatına görə, bu ilin ötən dövründə "Haqsız rəqabət haqqında" Qanunun tələblərinin pozulması ilə əlaqədar aparılan bazar araşdırması və daxil olmuş müraciətlərin araşdırılması zamanı antiinhisar qanunvericiliyinin pozulması hallarına yol vermiş bazar subyektləri aşkar edilərək barələrində müvafiq tədbirlər görülüb.

Bununla belə, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsinə, mükəmməl bir sənədin qəbuluna ciddi ehtiyac var idi. Artıq ölkədə biznes mühitinin daha da yaxşılaşdırılması, iqtisadi inkişafa əngəl olan neqativ halların aradan qaldırılması üçün işlək mexanizm formalaşdırılıb. Məlum olduğu kimi, Milli Məclisin dekabrın 8-də keçirilən plenar iclasında müzakirəyə çıxarılan "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak bazarına Nəzarət Dövlət Xidmətinin məlumatına görə, Rəqabət Məcəlləsi bazarda azad rəqabəti stimullaşdıracaq, ölkədə biznes mühitinin əlverişliliyinin artmasına zəmin yaradacaq, kiçik və orta biznes subyektlərinin bazara giriş imkanlarını genişləndirəcək, təbii inhisar subyektləri üzərində daha səmərəli nəzarət sisteminin təşkilini mümkün edəcək.

Məlumatda qeyd olunur ki, bu qanunla təsdiq edilən Rəqabət Məcəlləsinin layihəsi İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən hazırlanıb. İnhisarçılığa qarşı mübarizənin qanuni əsaslarını və prosessual normalarını müəyyən edən məcəllə layihəsinin hazırlanmasında müxtəlif dövlət qurumları və biznes assosiasiyaları ilə aparılan geniş müzakirələr zamanı irəli sürülmüş rəy və təkliflər nəzərə alınıb. "Antiinhisar fəaliyyəti haqqında", "Haqsız rəqabət haqqında", "Təbii inhisarlar haqqında" Azərbaycan Respublikasının qanunları və digər normativ hüquqi aktlar Məcəllədə təkmil sənəddə birləşdirilib.

Rəqabət Məcəlləsinin layihəsində sağlam rəqabəti məhdudlaşdıran üfüqi (kartel sövdələşmələri) və şaquli sazişlər, bazar payının müəyyən edilməsi, bazarda hökmran mövqe və hökmran mövqedən sui-istifadə halları, haqsız rəqabət və onun formaları, iqtisadi təmərküzləşmələr və onların qiymətləndirilməsi ilə bağlı məsələlər öz əksini tapıb. Bundan əlavə, layihə rəqabət qanunvericiliyinin pozulması barədə işlərə baxılması qaydaları, aşkar olunan pozuntulara dair məsuliyyət tədbirləri barədə müddəaları, həmçinin təbii inhisarların fəaliyyətinə dövlət nəzarətinə dair yeni tələbləri ehtiva edir.

Yeni sənədin qəbulu bazar subyektlərinin inhisarçı davranışlarının qarşısının alınması, haqsız rəqabət hallarının aradan qaldırılması və təbii inhisar subyektlərinin fəaliyyətinə effektiv nəzarətin təşkilində təsirli alət və mexanizmlərdən istifadəyə imkan yaratmaqla ölkə iqtisadiyyatının və azad sahibkarlığın inkişafına əhəmiyyətli töhfə verəcək.

Rəqabət Məcəlləsinin qəbulu ilə Azərbaycanda haqsız rəqabətin formaları da müəyyən edilib. Sənəddə haqsız rəqabətin formaları kimi müştərilərə qarşı aqressiv davranış, rəqib təsərrüfat subyektinin nüfuzdan salınması, rəqibin təsərrüfat fəaliyyətinin təqlidi, müştərilərin çaşdırılması və aldadılması, kommersiya sirrinin qanunsuz əldə edilməsi, istifadəsi və ya yayılması, eləcə də bu Məcəllənin 25-ci maddəsində nəzərdə tutulan haqsız rəqabətə səbəb olan digər hərəkətlər öz əksini tapıb.

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli sosial şəbəkə hesabında bildirib ki, Rəqabət Məcəlləsi antiinhisar fəaliyyəti sahəsində tənzimləyici çərçivə olacaq. Xidmət rəisinin sözlərinə görə, sənəd bazar subyektlərinin səmərəli fəaliyyətinə geniş imkanlar yaradacaq, ədalətli və azad mühitinin qorunmasına, məmnunluğunun təmin edilməsi və milli iqtisadiyyatda rəqabətqabiliyyətliliyin yüksəldilməsinə əhəmiyyətli töhfə verəcək. "Bununla, bütövlükdə, bazar subyektlərinin rəqabət qanunvericiliyinə zidd hərəkətləri ilə effektiv mübarizə aparmaq və tənzimləmə fəaliyyətlərinin rəqabətə təsirlərini operativ qiymətləndirmək mümkün olacaq", – deyə M.Abbasbəyli əlavə edib.

Ekspertlər hesab edirlər ki, Rəqabət Məcəlləsi hökmran mövqedən sui-istifadənin qarşısının alınması və rəqabət neytrallığının təmin edilməsinə xidmət etməklə yanaşı, sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılmasına da imkan yaradacaq. Yeri gəlmişkən, Məcəllənin iqtisadi proseslər baxımından əhəmiyyətini şərh edən ekspertlər onu da bildirilər ki, bazarda rəqabətin gücləndirilməsi və inhisarçılığın minimallaşdırılmasını özündə ehtiva edən bu sənəd bazara giriş imkanlarının artırılması, rəqabətin gücləndirilməsi, fərqli və ya oxşar məhsulların ayrı-ayrı şirkətlər tərəfindən müxtəlif qiymətlərlə təqdim olunmasına imkan yaradacaq. Onların fikrincə, bazarda inhisarşılıq meyillərinin azaldılmasına və qiymətlərin liberallaşdırılmasına imkan yaradacaq Rəqabət Məcəlləsinin icrasına başlanılması ilə ölkədə bir sıra məhsulların qiymətlərinin optimallaşdırılması, hətta ucuzlaşması da baş verəcək.

Qeyd edək ki, Rəqabət Məcəlləsi qəbul edildikdən təxminən 6 ay sonra, yəni 2024-cü il iyulun 1-də qüvvəyə minəcək.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Mükəmməl vergi xidməti iqtisadiyyatı gücləndirir

## *Bunun nəticəsidir ki, 10 ayda istehsaldan büdcəyə 14, 6 milyard manat daxil olub*

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumatına görə, son dövrlərdə iqtisadi münasibətlərin sürətlə dəyişməsi, aktiv vergi ödəyicilərinin sayının əhəmiyyətli şəkildə artması, rəqəmsal texnologiyaların tətbiqinin genişlənməsi vergi orqanlarının idarəetmə sisteminin müasir çağırışlara uzlaşdırılmasını zəruri edir.**



Bununla bərabər, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının işğaldan azad edilməsindən sonra bu bölgədə iqtisadi və sahibkarlıq fəaliyyətinin canlanması, həmçinin ölkəmizin siyasi və iqtisadi həyatında müşahidə olunan müsbət və dayanıqlı dinamika da vergi sisteminin yenilənməsini şərtləndirir. Bütün bu amillər nəzərə alınaraq İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin strukturunda islahatların aparılması diqqətdə saxlanılır.

Məlumata görə, islahatlar dövlət vergi orqanları xətti ilə büdcə daxilolmalarının həcmində müşahidə olunan müsbət dinamikanı saxlamaq və artırmaq, Qarabağ və Şərqi Zəngəzurda vergi ekosistemini yenidən qurmaq, bu ərazilərdə məskunlaşan vətəndaşların və fəaliyyət göstərən biznes subyektlərinin vergi xidmətlərinə çıxışını reallaşdırmaq, ümumilikdə, vergi ilə bağlı aparılan əməliyyatları sadələşdirmək qarşıya mühüm vəzifələr kimi qoyulur. Həmçinin vergi sistemində risk əsaslı nəzarət çərçivəsini təkmilləşdirmək, innovasiyaları təşviq etmək məsələlərinə də böyük əhəmiyyət verilir.

Xatırladaq ki, vergi xidməti strukturunda aparılan islahatlar çərçivəsində yeni vergi orqanları təsis edilib– əvvəllər işğal altında olan rayonların vergi şöbələrinin bazasında Qarabağ Ərazi Vergilər Baş İdarəsi və Şərqi Zəngəzur Ərazi Vergilər İdarəsi yaradılıb. Burada əsas məqsəd işğaldan azad olunan ərazilərdə vergi inzibatçılığının və idarəetmə modelinin respublikanın digər regionlarına və ümumi idarəetmə modelinə uyğunlaşdırılması, Qarabağ və Şərqi Zəngəzurda sahibkarlığın inkişafının stimullaşdırılması, vergi ödəyicilərinin vergi öhdəliklərinin yerinə yetirilməsi ilə bağlı rahatlığının təmin olunması, vergi xidmətlərinin əlçatanlığının gerçəkləşdirilməsi, həmin ərazilərin ölkə iqtisadiyyatına reinteqrqsiyasının sürətləndirilməsidir.

Dövlət Vergi Xidmətində həyata keçirilən struktur islahatları sırasında Vergi Risklərinin İdarə Edilməsi Baş İdarəsi yaradılması da mühüm əhəmiyyətə malikdir. Bu idarənin təsis edilməsində əsas hədəf vergi nəzarətinin səmərəliliyinin artırılması məqsədilə vergidənyayınma risklərinin əvvəlcədən təhlil olunması və aşkarlanan risklər əsasında tədbirlərin keçirilməsi mexanizminin qurulmasıdır.

Xatırladaq ki, bununla da vergi ödəyicilərinin vaxtına qənaət olunacaq, vergi orqanlarının resursları risk potensialı daha yüksək olan vergi ödəyicilərinə yönəldiləcək, resursların bölüşdürülməsi optimallaşdıracaq. Eyni zamanda, vergi inzibatçılığının təkmilləşdirilməsi və çevik nəzarət mexanizmlərinin formalaşdırılması sahibkarlıq subyektlərinin vergi öhdəliklərinin icrasında mümkün risk amillərini aradan qaldırmağa, vergi nəzarəti tədbirlərinin ünvanlılığının təmin edilməsinə, riskli vergi ödəyiciləri ilə işin sürətləndirilməsinə müsbət təsir göstərəcək.

Vergi Ombudsmanı Xidməti Baş İdarəsinin yaradılmasında isə əsas hədəf vergi orqanlarında vergi ödəyicilərinin hüquqlarının pozulmaması üçün preventiv tədbirlərin görülməsi, pozulmuş hüquqların bərpası və şikayətə səbəb olan halların aradan qaldırılması ilə bağlı səmərəliliyin artırılması, sahibkarların qarşılaşdığı çətinliklərin həllində onlara əlavə dəstək verilməsidir.

Dövlət Vergi Xidmətində həyata keçirilən islahatlar çərçivəsində bəzi funksiyalar da mərkəzləşdirilib. Yeni struktur əvvəllər fərqli vergi orqanları daxilində fəaliyyət göstərən funksiyaları vahid çətir altında birləşdirərək vahid vergitutma çərçivəsini yaradacaq. Bu konsolidasiya prosesləri sadələşdirmək, izafi resurs sərfini aradan qaldırmaq və vahid vergi inzibatçılığı sistemi yaratmaq üçün nəzərdə tutulub. Bununla əlaqədar olaraq Bakı şəhəri Kiçik Sahibkarlıqla İş Baş İdarəsinin bazasında Bakı şəhəri Operativ Vergi Nəzarəti və Uçotun Təşkili Baş idarəsi yaradılıb. Qeyd olunan dəyişikliklə Bakı şəhəri üzrə vahid uçot fəaliyyətini və operativ nəzarəti həyata keçirəcək vergi orqanı təsis edilib.

Bütün bunlardan başqa 4 ərazi vergi orqanının səyyar və kameral vergi yoxlamalar ilə bağlı funksiyaları Bakı Şəhər Lokal Gəlirlər Baş İdarəsinin müvafiq funksiyalarına birləşdirilib. Pilot olaraq tətbiq edilən bu layihə səyyar və kameral yoxlamalar sahəsində yeni yanaşmanın tətbiq edilməsi, yoxlamaların effektivliyinin artırılması, həmçinin qərarların qəbul edilməsi müddətlərinin optimallaşdırılmasına imkan verəcək.

Ümumiyyətlə, son illərdə ölkədə reallaşdırılan vergi islahatları qeyri-neft sektorunun özəl bölməsində münasibətlərin şəffaflaşmasına, sahibkarların yükünün azaldılmasına, daimi iş yerlərinin və sosial təminatı olan işçi qüvvəsinin yaradılmasına müsbət təsir göstərib. Nəticədə məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta üzrə daxilolmaların artımı nəzərə çarpıb.

Ölkədə sahibkar-dövlət münasibətlərində etimad da getdikcə güclənir. Bu isə vergi öhdəliklərinin könüllü yerinə yetirilməsində müsbət dinamika ilə müşahidə olunur. Son vaxtlar aparılan inzibatçılıq və qanunvericilik islahatları isə vergi öhdəliklərinə əməletmənin asanlaşmasını şərtləndirir, eyni zamanda, qeyri-neft sektoru üzrə büdcəyə vergi daxilolmalarının artım tempi qeyri-neft ÜDM-in artım tempini üstələyir.

Hazırda vergi sistemində həyata keçirilən islahatların məqsədi iqtisadi səmərəliliyin və rifahın təmin olunması prinsiplərinə söykənir. İqtisadi şəffaflaşma, biznes mühitinin cəlbediciliyinin artırılması, "kölgə iqtisadiyyatı"nın minimallaşdırılması, haqsız rəqabətin aradan qaldırılması, intizamlı biznes üçün mühitin təmin edilməsi vergi siyasətinin əsas istiqamətləridir.

Məhz bunun nəticəsidir ki, son bir neçə ildə biznes fəaliyyətinin və gəlirlərin leqallaşdırılması kontekstində əhəmiyyətli nəticələr əldə olunub. Belə ki, əgər 2018-ci ilə, yəni vergi sistemində "yeni keyfiyyət başlanğıcı" adlandırılan dövrün əvvəlinə qayıtsaq, istər vergi sistemində, istərsə də biznes-dövlət münasibətlərində böyük dəyişikliklər qeydə alınıb. Bu, statistik göstəricilərdə də öz aydın ifadəsini tapıb. Məsələn, 2023-cü ilin yanvar-oktyabr aylarında vergi xətti ilə dövlət büdcəsinə vergi daxilolmalarının həcmi 2022-ci ilin eyni dövrü ilə müqayisədə 4,2 faiz artaraq 14 milyard 593,5 milyon manat olub. Bu müddətdə qeyri-neft-qaz sektorundan vergi daxilolmaları ötən ilin müvafiq dövrü ilə müqayisədə 19,2 faiz artaraq 8 milyard 387,4 milyon manat təşkil edib.

***Vaqif BAYRAMOV***
***XQ***

# Dövlət Neft Fondunun Müşahidə Şurasının iclası



Dekabrın 8-də Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) Müşahidə Şurasının iclası keçirilib.

Azərbaycan Respublikasının Baş naziri, ARDNF-in Müşahidə Şurasının sədri Əli Əsədovun sədrliyi ilə keçirilən iclasın gündəliyində Dövlət Neft Fondunun 2024-cü il üçün büdcə layihəsi, fondun investisiya siyasəti, investisiya portfelinin valyuta tərkibi və digər cari məsələlər ətraflı müzakirə olunub.

İclasda ARDNF-in İcraçı direktoru İsrafil Məmmədovun məruzəsi dinlənilib.

İclasın yekununda fondun Müşahidə Şurasının üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla Dövlət Neft Fondunun 2024-cü il üçün büdcə layihəsinin Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması barədə müvafiq qərar qəbul edilib.

***XQ***

# Azərbaycan sülhün bərqərar olmasına zəmin yaradıb

**Dekabrın 9-da müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə 2023-cü ilin yekunlarına dair Müdafiə Nazirliyinin Kollegiya iclası keçirilib.**



Nazirliyin rəhbər heyəti geniş məruzələrlə çıxış edib.

Azərbaycan–Ermənistan şərti sərhədində mövcud əməliyyat şəraiti, qoşun xidmətinin təşkili və aparılması geniş təhlil edilib.

Çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən, 2023-cü il ərzində ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərdən, həmçinin şəxsi heyətin döyüş qabiliyyətinin yüksəldilməsi və sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışıblar.

İclasın yekununda çıxış edən general-polkovnik Z.Həsənov Ali Baş Komandan tərəfindən 2024-cü il üzrə Azərbaycan Ordusu qarşısında qoyulan tapşırıqları kollegiya iştirakçılarına çatdırıb.

Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun regionda sülhün bərqərar olmasına zəmin yaratdığını vurğulayan nazir Ordumuzun bundan sonra da qarşıya qoyulan istənilən tapşırıqların dəqiq icrasına hazır olduğunu qeyd edib.

### Milli Qəhrəman Şikar Şikarovun xatirəsi anılıb

Torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə yüksələn Azərbaycanın Milli Qəhrəmanı Şikar Şikarovun xatirəsinə həsr olunan anım mərasimi keçirilib.

Heydər Əliyev adına Hərbi İnstitutda keçirilən tədbirdə nazirliyin və ictimaiyyətin nümayəndələri, institutun zabit, müəllim və kursant heyəti, şəhidlərin ailə üzvləri, yaxınları, döyüş yoldaşları və məktəblilər iştirak ediblər.

Anım mərasimində iştirakçılara Milli Qəhrəmanın şərəfli həyat yolu haqqında ətraflı məlumat verilib. Ş. Şikarovu yaxından tanıyan dostları, xidmət yoldaşları çıxış edərək onunla bağlı xatirələrini tədbir iştirakçıları ilə bölüşüb və qəhrəmanlığından danışıblar.

***XQ***

# Azərbaycan beynəlxalq normalara sadiqdir

**(əvvəli 6-cı səhifədə)**

Üçtərəfli bəyanatın müddəalarına zidd olaraq, Ermənistan silahlı qüvvələrinin qanunsuz birləşmələri tərəfindən Azərbaycana qarşı davamlı terror aktı və təxribatlar törədilmiş, eləcə də mina terroru nəticəsində hərbi qulluqçular və mülki şəxslər həlak olmuşdur. 19 sentyabr 2023-cü il tarixdə lokal xarakterli antiterror əməliyyatının keçirilməsi zərurəti yaranmış və şanlı ordumuzun 24 saatlıq antiterror tədbirləri nəticəsində Azərbaycanın bütün ərazilərində suverenliyimiz bərpa edilmiş, bununla da Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsinin tam bərpasına nail olunmuşdur.

Qeyd etmək lazımdır ki, sülhün keşiyində duran, hər zaman qədim dövlətçilik ənənələrinə sadiq olan Azərbaycan beynəlxalq hüququn hamılıqla qəbul olunmuş prinsiplərinə uyğun olaraq, hər hansı ayrı-seçkiliyə yol vermədən Qarabağ bölgəsində yaşayan etnik erməni sakinlərinin də bərabər hüquqlarını multikultural dövlət siyasətinə uyğun olaraq qoruyur.

Bütün bunlara baxmayaraq, üçtərəfli bəyanatın 9-cu bəndində vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə dəhlizin yaradılması nəzərdə tutulsa da, Ermənistanın bu müddəaya hələ də əməl etməməsi Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin bərpa olunmamasına, nəticə etibarilə Naxçıvan əhalisinin öz ölkəsi daxilində sərbəst hərəkət etmək azadlığının məhdudlaşdırılmasına səbəb olur.

Eyni zamanda, indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların öz evlərinə qayıda bilməməsi çoxsaylı fundamental insan hüquqları prinsiplərinin, beynəlxalq hüququn "jus cogens" normalarının, beynəlxalq konvensiyaların ciddi və sistematik pozulmasıdır və bu, davamlı sülhün bərqərar olunmasına ciddi təhdid törədir. Şübhəsiz ki, Qərbi azərbaycanlıların öz doğma tarixi-etnik torpaqlarına geri qayıtmaq və təhlükəsiz şəraitdə yaşamaq hüquqlarının təmin edilməsi beynəlxalq ictimaiyyətin diqqət mərkəzində olmalıdır.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında insan hüquq və azadlıqları ilə bağlı həyata keçirilən mühüm islahatlar ardıcıl şəkildə davam etdirilir. Ölkə başçısının "Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında" 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada bu istiqamətdə inkişafı təmin etmiş, insan hüquqlarının müdafiəsi ilə bağlı hüquq institutlarının inkişafı tarixində ən mühüm tədbirlərdən biri olan Ombudsman təsisatı yaradılmışdır.

Həyata keçirilən bu tədbirlər muxtar respublikada insan hüquqlarının müdafiəsi istiqamətində mövcud qanunvericiliyin daha da təkmilləşdirilməsini, insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsini təmin edir. Müvəkkil təsisatı bu gün fəaliyyətini preventiv və müstəqil monitorinq mexanizm funksiyalarının icrası, insan hüquq və azadlıqlarının pozulmasının qarşısının alınması, beynəlxalq təcrübə mübadiləsi, əhalinin müxtəlif sosial qruplarının hüquqlarının müdafiəsi və hüquqi maarifləndirmə, bu sahədə dövlət və yerli özünüidarəetmə orqanları, vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın davamlı inkişaf etdirilməsi istiqamətində qurur.

Bugün ölkəmizdə həyata keçirilən mütərəqqi islahatlar muxtar respublikada da hüquq sisteminin müasirləşdirilməsi prosesinə uyğun olaraq insan hüquqlarının daha etibarlı müdafiəsini təmin edir, vətəndaşların hüquq institutlarına, o cümlədən, Müvəkkil institutuna inamı artır, onların müraciət etmək imkanları asanlaşdırılır.

Təhlükəsizliyin carçısı rolunda çıxış edən, sülh və əmin-amanlıq şəraitində daxili imkanlardan və ehtiyat mənbələrindən səmərəli istifadə edərək Azərbaycanın sürətlə tərəqqi edən diyarına çevrilmiş Naxçıvan Muxtar Respublikasında hüquq sisteminin müasirləşdirilməsi prosesinə uyğun olaraq insan hüquqlarının daha etibarlı müdafiəsinin təmin edilməsi ilə bağlı həyata keçirilən mühüm islahatlar ardıcıl şəkildə davam etdirilir.

Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının qətiyyət və uğurla reallaşdırıldığı muxtar respublikamızın yüksələn iqtisadi inkişafı, hər bir sosial qrupa ünvanlanmış sosial-iqtisadi layihələrin ardıcıl həyata keçirilməsi əhalinin həyat səviyyəsinin daha da yaxşılaşmasına, nəticə etibarilə, insan hüquq və azadlıqlarının daha səmərəli təmin edilməsinə, etibarlı müdafiəsinə və davamlı inkişafına öz töhfəsini verməkdədir.

***Günay RZAYEVA,***
***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)***

# İrəvanın "qara biznesi"

## Qarabağdan gedənlər üçün "beynəlxalq yardım" kampaniyası kimlərə xidmət edir?

**(əvvəli 1-ci səhifədə)**

Bütün ermənilərin katolikosu II Qaregin isə 2009-cu il sentyabrın 24-də S. Sarkisyanla görüş zamanı onun təşəbbüsünü alqışlayaraq demişdi: "Diaspor xalqımızın vacib və ayrılmaz hissəsidir. Bugünlərdə imzalanması gözlənilən Ermənistan–Türkiyə sənədlərini də qızğın şəkildə müzakirə edən diaspor övladlarının onları maraqlandıran suallara cavabları şəxsən sizdən eşitmək imkanının olması düzgün olardı".

Yeri gəlmişkən, erməni apostol kilsəsi də Ermənistan dövlətinin siyasətinin formalaşmasına hər zaman ciddi təsir edib. Hərçənd ki, konstitusiyaya görə, Ermənistan dünyəvi dövlətdir. Buna baxmayaraq, Ermənistan konstitusiyasında (maddə 18.1) erməni apostol kilsəsinin milli kilsə kimi "erməni xalqının mənəvi həyatında, onun milli mədəniyyətinin inkişafında və milli kimliyinin qorunub saxlanılmasında müstəsna missiyası" təsbit edilib. Kilsə Ermənistanın və erməni xalqının keçmişində mühüm rol oynayıb, bəzən siyasi və mənəvi rəhbərlik məsuliyyətini də öz üzərinə götürüb. Ənənəvi olaraq, istər Ermənistanda, istərsə də xaricdə ermənilər Eçmiədzin katolikosunu təkcə kilsənin başçısı deyil, həm də öz seçilmiş nümayəndəsi hesab ediblər. Hazırda inzibati cəhətdən iki müstəqil katolikosluq – mərkəzi Eçmiədzində yerləşən bütün ermənilərin katolikosluğu və mərkəzi Livanın Antelias şəhərində yerləşən Kilikiya katolikosluğu mövcuddur.

Bundan əlavə, erməni apostol kilsəsi daxilində iki muxtar patriarxlıq var: Konstantinopol və Yerusəlim patriarxlığı. Ermənistanın sərhədləri daxilindəki bütün yeparxiyalar, eləcə də xaricdəki yeparxiyaların əksəriyyəti bütün ermənilərin katolikosunun tabeliyindədir. Livan, Suriya və Kipr yeparxiyaları Kilikiya katolikosunun nəzarəti altındadır. Yerusəlim patriarxlığına İsrail və İordaniya erməni kilsələri, Konstantinopol patriarxlığına isə Türkiyə və Yunanıstanın Krit adasının erməni kilsələri daxildir. Kilsənin keşişləri, hətta, Ermənistan ordusunun hərbi hissələrinə də təhkim olunaraq burada mənəvi-tərbiyəvi işlə məşğul olurlar.

Erməni diasporu və apostol kilsəsi ilə bağlı bu məqamları qeyd etməkdə məqsədimiz ölkənin bu iki qüvvədən asılılığının dərəcəsini göstərməkdir. Ermənistanda hakimiyyətlər dəyişir, amma asılılığı tam aradan qaldırmaq mümkün olmur ki, olmur. Düzdür, baş nazir Nikol Paşinyan diaspor və kilsədən asılılığı azaltmağa çalışır. Diasporun ölkənin ictimai-siyasi həyatında iştirak payı əvvəlki kimi yüksək deyil. Paşinyanın kilsə ilə münasibətlərinin hamar olmadığına dair də məlumatlar var. Ancaq Ermənistan dövləti indi xarici qüvvələrdən – donor təşkilatlarından, Fransanın timsalında xarici ölkələrdən,



müxtəlif fondlardan daha çox asılıdır. İrəvan sentyabrın sonlarında Qarabağdan könüllü köç edən ermənilərin ehtiyaclarının ödənməsi bəhanəsi ilə xeyli vəsait alır. Bu vəsait isə onun asılılığını daha da artırır. Necə deyərlər, pulu kim verirsə, musiqini də o sifariş edir. Şadlıq evlərində, restoranda musiqiçilərə pul ödəyən şəxsin onlara dəqiq nə çalınmalı olduğunu söyləmək hüququ olduğu kimi, Ermənistana pul verən qüvvələrin də ondan tələblərinin olduğu şübhəsizdir. Ümumiyyətlə, istənilən işdə belədir: işin haqqını ödəyənin onun ciddi şəkildə icrasını tələb etmək hüququ var.

***

Dekabrın 8-də Fransanın İrəvana daha 15 milyon avro "təcili humanitar yardım" ayıracağı açıqlanıb. Bu barədə Fransa Xarici İşlər Nazirliyi məlumat yayıb. "Fransa Ermənistanı və erməni xalqını dəstəkləməkdə davam edir. Noyabrın 30-da parlament Ermənistana və "Dağlıq Qarabağ qaçqınlarına" (?) təcili olaraq 15 milyon avro ayrılmasına razılıq verib", – deyə məlumatda bildirilib. Bununla da, Fransanın Ermənistana ayırdığı yardımın həcmi 27,5 milyon avro təşkil edəcək. Fransa XİN qeyd edib ki, bu, Beynəlxalq Qırmızı Xaç Komitəsi, Ermənistan "Qırmızı Xaç"ı və BMT agentliklərinin işini gücləndirməyə kömək edəcək.

Bundan əlavə, Ermənistan hökuməti Dünya Bankının Dövlət və Sülh Quruculuğu Fondundan Qarabağdan getmiş məktəblilərə psixoloji dəstək üçün 2,9 milyon ABŞ dolları məbləğində qrant alıb. Bu barədə isə bankın mətbuat xidməti xəbər yayıb. Qeyd olunub ki, qrant "köçkün" uşaq və yeniyetmələrin Ermənistan məktəblərinə sosial inteqrasiyasına, habelə onların ailələrinə və qəbul edən icmalara sərf olunacaq. Qarabağdan olan uşaqların Ermənistan məktəblərinə inteqrasiyasını təşviq edən layihə "Ermənistan üçün öyrət" Fondu tərəfindən ölkənin 2000-dən çox məktəbində həyata keçiriləcək.

Dekabrın 8-də Ermənistan xarici işlər nazirinin müavini Vahe Gevorkyanın sədrliyi ilə gələn həftə Cenevrədə keçiriləcək Dünya Qaçqınlar Forumunda İrəvanın iştirakına həsr olunmuş "dəyirmi masa" keçirilib. Gevorkyan tədbir zamanı Ermənistanın "qaçqınların" müdafiəsi məsələlərində prioritetlərini təqdim edib, xüsusilə də onların problemlərinin həlli üçün beynəlxalq ictimaiyyətin dəstəyinin göstərilməsinin vacibliyini vurğulayıb. Qarabağdan getmiş ermənilərin təkcə aktual problemlərinin həllinə deyil, həm də onlarla bağlı orta və uzunmüddətli proqramların həyata keçirilməsinə, sabit həyat şəraitinin yaradılmasına olan ehtiyaclar qeyd olunub. Bu kontekstdə BMT-nin Qaçqınların İşləri üzrə Ali Komissarlığının işinin davamlılığının təmin edilməsinin zəruriliyi bildirilib.

Göründüyü kimi, rəsmi İrəvan həm sentyabrın sonlarında, həm də indi Qarabağ ermənilərinin Azərbaycan cəmiyyətinə reinteqrasiyasına imkan verməməklə, Dövlət Miqrasiya Xidməti tərəfindən Qarabağ ermənilərinin ilkin qeydiyyata dair müraciətlərinin qəbulu və qeydiyyata alınma prosesinin həyata keçirilməsi məqsədilə yaradılmış xüsusi portala (reintegration.gov.az) Ermənistan ərazisində girişi qapatmaqla, əslində, xarici yardımların davamlı olmasını təmin etmək istəyir. Əks-təqdirdə Ermənistan hakimiyyəti buna qarşı çıxmazdı.

Azərbaycan isə Qarabağ erməniləri ilə bağlı özünün aydın baxışını dəfələrlə bəyan edib. Prezident İlham Əliyev dekabrın 9-da "Euronews" televiziyasında yayımlanan müsahibə zamanı deyib: "Öz evlərini tərk etmiş insanlara gəldikdə, əvvəlcə, bu, onların öz qərarı idi. Qarabağ erməniləri ilə bağlı ictimaiyyətə verdiyimiz bəyanat və sonradan atdığımız addımlar göstərdi ki, biz istəyirdik onlar qalsınlar. Biz açıq şəkildə elan etdik və mən antiterror əməliyyatı başa çatdıqdan sonra Azərbaycan xalqına müraciətimdə bildirdim ki, onlar qala bilər. Biz elektron qeydiyyat portalını açdıq. Qayıtmaq istəyən hər kəsin belə bir hüququ var. Onların mülkiyyəti lazımi dərəcədə qorunur. Bütün tarixi və dini yerlər lazımınca qorunur".

### Ekspert rəyi

**Rizvan HÜSEYNOV,**
**hərbi-siyasi şərhçi**



– Əfsuslar olsun ki, Ermənistan Azərbaycanla danışıqlar prosesində, eləcə də, regionda gedən proseslərdə subyekt kimi iştirak etmir, xarici maraqları təmsil edən obyektdir. Ermənistan ötən illər ərzində regional siyasətin subyektinə çevrilə bilmədi və obyekt olaraq istifadə olunur. Əsasən, Fransa və ABŞ Ermənistandan öz maraqları üçün istifadə edirlər. Bu həmin Fransadır ki, onun siyasəti nəticəsində Qarabağ erməniləri bölgəni tərk etdilər. Fransanın fitvası ilə rəsmi İrəvan və Qarabağ separatçıları nəyəsə ümid edirdilər. Azərbaycan 2020-ci ildən 2023-cü ilədək şərait yaratmışdı ki, Qarabağ erməniləri ölkə vətəndaşlığını qəbul etsinlər, ölkənin loyal, normal vətəndaşına çevrilsinlər. Amma Fransanın neqativ fəaliyyəti ona gətirib çıxardı ki, ölkəmiz antiterror tədbirləri keçirməyə məcbur oldu. Bundan dərhal sonra Fransa və ona yaxın qüvvələr elə bir vəziyyət yaratdılar ki, nəticədə Qarabağ erməniləri yaşayış yerlərini tərk etməyə məcbur qaldılar. Deməli, burada əsas maraqlı tərəf Fransa və İrəvandır.

Belə anlaşılır ki, həm Fransa, həm də bəzi məsələlərdə ona tabe olan rəsmi İrəvan əllərindən gələni edəcəklər ki, Qarabağ erməniləri qayıda bilməsinlər. Onlar reinteqrasiya prosesinin baş verməsində maraqlı deyillər. Fransa və ABŞ regionla bağlı siyasətlərində Qarabağ ermənilərindən, necə deyərlər, kart kimi istifadə etmək istəyirlər. Paris və Vaşinqtonda düşünürlər ki, Qarabağ erməniləri qayıtmasa, deməli, rus sülhməramlılarının Qarabağda qalmasının da mənası itir. Onların fikrincə, Qarabağ ermənilərinin qayıtması bölgədə Rusiyanın dayaqlarını möhkəmləndirəcək. Bunun baş verməməsi üçün Fransa və ABŞ əllərindən gələni edəcəklər ki, ermənilər qayıtmasın. Əslində, bu, Azərbaycan üçün heç bir problem yaratmır. Ölkəmiz istənilən vəziyyətə hazırdır.

Belə başa düşürəm ki, Qarabağ ermənilərinin bir qismi Ermənistanda qalacaq, əksəriyyəti ölkəni tərk edəcək. Bu proses artıq gedir. Proses yekunlaşanadək qrant adı altında çox pul ayrılacaq. İrəvan burada həm Qərbin siyasi göstərişlərini icra edir, həm də pul qazanır. Qarabağ erməniləri ilə bağlı bəlli məbləğlər hesablara köçürülür və bu məsələ "biznesə" çevrilir.

Yeri gəlmişkən, dünən internetdə Qarabağda qalmış erməni Sarkis Qalstyanın həyat yoldaşı ilə "Baba və nənə" abidəsinin yaxınlığında gəzintiyə çıxdığına dair video yayılıb. Onların sakit tərzdə gəzintisi Qarabağın erməni əhalisinin bölgədə təhlükəsiz yaşayacağının daha bir sübutudur.

***Səxavət HƏMİD***
***XQ***

XALQ TV-NİN QONAQLARI

# Azərbaycanın qələbələri düşmənləri aciz duruma salıb



Xalq TV-nin bugünkü qonağı Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Rəhimoğludur.

Söhbətin mövzusu isə Azərbaycanın Vətən müharibəsində və antiterror əməliyatında qazandığı tarixi qələbənin regionda yaratdığı gerçəkliyin dünyadakı əks-sədası, yola saldığımız ilin ən önəmli təəssüratıdır.

**– Umud müəllim, Azərbaycan Silahlı Qüvvələrinin bu ilin sentyabr ayında həyata keçirdiyi bir sutkalıq antiterror əməliyyatı suverenliyimizin tam bərpası, bayrağımızın işğaldan azad olunmuş bütün ərazilərimizdə dalğalanması ilə sonuclandı. Xalqımıza sonsuz sevinc yaşadan bu tarixi hadisə Vətən müharibəsində qazanılmış Zəfərin öyüncünü, sanki, ikiqat artırdı.**

– Doğrudan da, çox incə məqama toxundunuz. Bu, Azərbaycan üçün çox həssas strateji hədəf, incə taktiki addım idi. Bununla 2023-cü il Azərbaycan tarixinə əsrlər boyu unudulmayacaq bir zaman kimi yazıldı. Ümumiyyətlə, ötən 30 ildə xalqımız nə qədər bəlalı-ağrılı günlər yaşamışdısa, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində və bu ilin sentyabrında keçirilmiş antiterror əməliyyatı zamanı qazanılmış qələbələr bütün bu zülm və əziyyətlərin acısını insanların canından çıxardı. Şükürlər olsun ki, 30 illik qanlı münaqişə artıq arxada qalıb, Azərbaycan bölgədə sülhün dayanıqlı hala gətirilməsi üçün tarixi şərait yaradıb.

Təəssüflər olsun ki, bu gün geriyə boylananda hər birimiz o çətin və məşəqqətli günlərin xatirəsi ilə üzləşirik. Dünyada da ədalətsizlik, qan-qada bitib-tükənmir. Bu gün 60-dan çox ölkədə bu və ya digər formada qan tökülməkdə, evlər dağılmaqda, insanlar faciələr yaşamaqdadır. Həmin coğrafiyalarda münaqişə və qanlı qarşıdurmalar hələ də qalmaqdadır. 60 milyondan çox insan isə bu problemlərə görə öz doğma yurd-yuvasından məcburi deportasiya edilib. Bu ölkələr sırasında elə biz özümüz də varıq. Bu məcburi köçlərin, deportasiyanın acı, ağır nəticələri hələ də bizimlədir. Yurd-yuvasından qovulmuş 1 milyondan artıq soydaşımızın öz doğma el-obasına qayıtması üçün illər tələb olunur.

Təsəllimiz ondadır ki, bu gün müstəqil və qüdrətli Azərbaycan dövləti öz ərazi bütövlüyünü bərpa edib. Dövlət başçısı İlham Əliyevin rəhbərliyi və nəzarəti altında məcburu köçkünlər hissə-hissə yenidən qurulan doğma el-obalarına qayıdırlar. Bu da bizi həddindən çox sevindirir, sabaha inamımızı artırır, gücümüzə əlavə güc qatır. Bu qüvvə ilə biz 30 il əvvəl eveşiyindən qovulmuş soydaşlarımızın 140 minini yaxın 3 ildə öz yurduna qaytaracağıq.

**– Bütün bunlar, həqiqətən, sevindirici uğurlardır, ürəkaçandır. Lakin baş verənlər, xüsusən, Qarabağda 30 ildən bəri fəlakət mənbəyi olmuş, qan çanağına çevrilmiş separatçı xuntanın çöküşü özünü dünyada "sülh və demokratiyanın dayağı" sayan Qərb dövlətlərini, nədənsə, hədsiz kədərləndirib, hətta əndişələndirib. Bu "nədənsə"nin mənası o deyilmi ki, həmin xunta elə onların öz hərbi-siyasi aləti imiş...**

– Vətən müharibəsindən sonra Azərbaycanın bölgədə yaratdığı reallıqları nəinki Ermənistan, dünyanın bir çox güc mərkəzləri də sonadək qəbul etmək istəmirlər. Lakin beynəlxalq qurumlar və BMT səviyyəsində bir sıra müzakirələrdə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etməsini inkar etmək mümkün olmayıb. Ermənistanın müharibədə uduzmasını, Xankəndi xuntasının çöküşünü qəbul etmək istəməyən dövlət və mərkəzlər başqa yola əl atır. Onlar sülh prosesini müxtəlif maneələrlə ləngitməyə çalışır, Ermənistanda revanşist qüvvələri qızışdırır. Bəziləri isə açıq-aşkar işğalçı ölkəni silahlandıraraq Azərbaycanın üzərinə yeni təcavüzə şirnikləndirir.

Bu buabırçı mənzərə bir daha sübut edir ki, Qarabağ münaqişəsi elə əvvəldən onların özləri tərəfindən ortaya atılıb. Erməni işğalçılarının arxasında onlar dayanıblar. İndi isə işğalçı hərbi bandaların ölkəmizdən qovulması, təcavüzkar Ermənistanın yerində oturdulması, separatçı rejimin mat vəziyyətinə düşüb özünü buraxması, Qarbağda əli qana batmış, cinayətlərə bulaşmış qaçaq-quldurların bölgədən qaçıb getməsi Qərb "sülhsevərlər"ini çaş-baş salıb.

**– Onlar anlamaq istəmirlər ki, Qarabağın dinc erməni əhalisinin çoxu məhz Ermənistanın 30 il bölgəni ölü zonaya çevirməsindən, hərbi xuntanın yaratdığı dözülməz şəraitdən başını çoxdan götürüb qaçıb. Yerdə qalan az sayda ermənini isə Azərbaycanı etnik təmizləmədə ittiham etmək üçün qorxudub, vahimələndirib qaçırdıblar.**

– Azərabaycan nə Vətən müharibəsində, nə də antiterror əməliyyatında birb nəfər də dinc əhaliyə atəş açamayıb, xətər yetirməyib, ölkədən çıxmağa məcbur etməyib. İndi isə Azəərbaycanın suverenliyini qəbul edən cinayəti olmayan Qarabağ ermənisinin geri dönməsinə heç bir maneə yoxdur. Görünən budur ki, revanşist qüvvələrin fəallaşması dinc ermənilərin bölgəyə qayıtmasına başlıca əngəldir. Onları yenidən od-alov içinə düşməkdən qorxurlar. Bir çox erməni isə Azərbaycan xofu ilə qorxudulur. Onların geri dönməsi Azərbaycanın ittiham edilməsi yalanını puça çıxarar.

Ara verməyən böhtan və təhdidlər yalan və böhtana söykənir. Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsindən doğan narazılığı ifadə edir. Onsuz da əvvəlki 30 ildə də erməniləri işğal, soyqırımı, deportasiya cinayətlərinə təhrik edib dəstəkləyənlərin, Azərbaycanın haqq səsini saya salmayanların kimliyi bəlli idi. İndi bu səlib yürüşü açıq və rüsvayçı bir müstəviyə çıxıb. Amma ədaləti yox etmək axıradək mümkün deyil. Artıq dünya miqyasında ölkımizin mövqeyi aşıq-aşkar dəstək qazanıb. Azərbaycana qarşı qaldırılan qərəzli iddialar ardıcıl cavablandırılıb və nəticədə, heç bir hüquqi qüvvə qazanmayıb.

Bilirsiniz, bu gün Ermənistanı silahlandırmağa çalışan ölkələr Qafqaza rəsmi Yeravan üzərindən ayaq açmağa çalışan qüvvələrdir. Xüsusən, son zamanlar biz bu məsələdə Fransanın tutduğu qeyri-obyektiv mövqeni açıq şəkildə müşahidə edirik. Okeanın o tayından da Ermənistanı şirniklərndirən, qisas hissi aşılayan çağırışların şahidi oluruq. ABŞ Konqresi tərəfindən erməniləri dəstəkləyən münasibətin sərgilənmisi buna bir sübutdur.

Fransanın ermənipərəst mövqeyinin kəskinliyinin səbəbi bizə məlumdur. Bu mövqe qəbuledilməz olsa da səbəbini başa düşürük. 30 il ərzində strateji əlaqələr qurduğumuz ABŞ-nin Xankəndi xuntasına yas tutması isə başa düşülən deyil. Ona görə də onların anlaşılmaz mövqeyi ölkəmizdə kəskin narazılıqla və adekvat tədbirlərlə qarşılandı. Deyəsən, son günlərdə bizi başa düşməyə çalışırlar. Çünki bu ölkənin regionda maraqların təmin olunması Ermənistandan çox, Azərbaycanla münasibətlərin necəliyindən asılıdır.

Gördülər ki, artıq okeanın o tayından Azərbaycana qarşı nə qədər qərəzli mövqe sərgilənsə də, heç nə dəyişməyəcək. Azərbaycan öz ərazi bütövlüyünü və azadlığını təmin eləmiş, regionda söz sahibi olan bir ölkədir. Bununla razılaşmayan və ölkəmizə qarşı qeyri-obyektiv münasibət sərgiləyən istənilən dövlət ikili münasibıtlərdə itirən tərəf olacaq – istər ABŞ olsun, istərsə də Fransa. Bundan başqa, düşünürəm ki, qarşıdakı 5 ildə Azərbaycan sürətlə inkişaf edən bir dövlətə çevriləcək. Bunlar ölkəmizin haqq savaşının zəruri təminatıdır.

**– Müharibə bitsə də, Qarabağda dinc insanlar hələ də "mina savaşı"nın qurbaı olurlar. İşğalçılar müharibə cinayətlərinin davamı olaraq, sanki, torpağın alt qatını mina təbəqəsi ilə örtüblər. Mina xəritələri Azərbaycana verilmir, yaxud saxta sxemlər təqdim olunur. Ermənilərin havadarları bu ədalətsizliyə də göz yumurlar.**

– Bilirsiniz, 30 illik işğal dövründə Ermənistan tərəfindən Qarabağ ərazisi metr-metr, qarış-qarış minalanıb. Hazırda bizim bu prosesi sürətləndirməyimizə ən çox məhz bu amil maneə törədir. Bu gün gerçəklik budur ki, qarşı tərəf verdiyi sözə sadiq qalmadı. 2020-ci il Vətən müharibəsində qazanılan qələbədən sonra kapitulyasiya imzalayan Ermənistan mina xəritələrinin Azərbayacan veriləcəyinə dair öhdəlik götürüb.

Lakin düşmənin verdiyi xəritələrlə minalanmış ərazilərin üst-üstə düşməməsi burada da onların necə xəyanətkar bir xislətə malik olmasını açıq-aşkar ortaya qoyur. Bu müharibənin gizli cəbhədə davamının göstəricisidir. Hələ üstəlik, imkan düşən kimi, yolları, keçidləri yenidən minalayırlar.

Xatırlayırsınızsa, biz 2021-ci ilin aprel ayında minalanmış ərazilərin xəritələrinin Azərbaycana verilməsi ilə bağlı bir petisiya da başlatdıq. Düzdür, sonradan müəyyən ərazilərlə bağlı xəritələr bizə təqdim olunsa da, lakin onlar heç də reallığı əks etdirmədi. Yəni, bu gün həmin problem öz movcudluğunu və aktuallığını saxlayır. Faktiki olaraq Azərbaycan hökuməti təkbaşına bu problemlə mübarizə aparır. 2020-ci il Vətən müharibəsindən sonra elə bir ay olmayıb ki, mina problemi və ya təhlükəsi yaşanmasın. Hətta 300-dən artıq soydaşımız mina terrorunun qurbanı olub.

Ümumiyyətlə, mən dəfələrlə müxtəlif beynəlxalq tribunalardan bu fikirləri dünyanın vətəndaş cəmiyyəti təmsilçilərinin, eləcə də Azərbaycana qarşı qərəzli mövqe tutan dövlətlərin diplomatlarının, rəsmi nümayəndələrinin diqqətinə çatdırmışam.

**– Hazırda işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi prosesi necə gedir. Bu işlərə kimlər və necə dəstək verirlər?**

– Azərbaycan min hektardan çox ərazini təmizləyib, ANAMA-nın rəyi əsasında son istifadəçiyə verib. Bizim İcma isə – Mina Aksiyası Komandası tərəfindən, demək olar ki, Gəncə Hava Limanı, Gəncə yaxınlığındakı Sevinc qəsəbəsi, Göygöldə Topalhəsənli, Goranboyda Ağcakənd ərazisi, Tərtər, Bərdə, Yevlax bölgələrində minatəmizləmə işləri həyata keçirib. Komandamız bu gün Ağdamda, Tərtərdə, Goranboyda, Kəlbəcərdə, Qazaxda müəyyən tapşırıqları icra edir.

**– Bu günlərdə sizin bu nəcib hərəkat daha bir vətənpərvərlik aksiyası ilə gücləndi. Artıq qadın minatəmizləyənlər qrupu da da bu prosesə qoşulub.**

– Bəli, bizim iştirakımızla ilk minaaxtaran qadın komandası da yarandı. Avropa İttifaqının maliyyə dəstəyi, BMT-nin İnkişaf Ptoqarmının və ANAMA-nın texniki yardımı vasitəsilə biz bu komandanı yaratdıq. Bütövlükdə, bu ilk belə komandadır. Lakin, eyni zamanda, ABŞ Dövlət Departamentinin dəstəyilə bir qadın komanda da yaradılıb. Təxminən, bu gün 30-a yaxın qadın minaaxtaranımız var.

Qadınları bu aksiyaya qoşmaqda əsas məqsəd Azərbaycanın üzləşdiyi mina terrorunun nə dərəcədə ağır bir faciə olduğunu dünyaya nümayiş etdirməkdir. Azərbaycan anaları göstərirlər ki, öz övladlarını qorumaq üçün mina təhlükəsinin də üstünə yeriməkdən qorxmurlar. Bu, yaratdıqları mina xofunun səmərəsizliyini görən düşmənləri kədərləndirir.

Ümumiyyətlə, haqq işimizi öz gücümüzlə davam etdirməyimiz, kənar təsirlərin qarşısının alınması və səmərəsizliyi düşmən qüvvələrin ümidlərini puça çıxarır. Ölkəmiz bu yolla sonadək gedəcək. Çünki xalqımız artıq çoxdan dəmir yumruq kimi birləşib və öz taleyinə tamailə sahib çıxıb. Azərbaycanın qələbələri isə düşmənləri və onlarındostlarını aciz duruma salıb.

*Söhbəti apardı:*
*Tahir AYDINOĞLU*
*XQ*

# "Heydər Əliyev və Yeni Azərbaycan"




**Dekabrın 9-da Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin birgə təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev və Yeni Azərbaycan" mövzusunda konfrans keçirilib.**

Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, müasir müstəqil Azərbaycanın banisi, Yeni Azərbaycan Partiyasının qurucusu, xalqımızın Ümummilli lideri, dünyaşöhrətli siyasi xadim və dövlət xadimi Heydər Əliyevin zəngin dövlətçilik irsinin tədqiqi, əbədiyaşayar ideyalarının öyrənilməsi, təşviqi və təbliği xüsusi əhəmiyyətə malik olmaqla daim aktual və vacib məsələlərdəndir. Prezident İlham Əliyevin Sərəncamı ilə ölkəmizdə elan edilmiş "Heydər Əliyev İli" çərçivəsində çoxsaylı tədbirlərin keçirilməsi də bu baxımdan müstəsna önəm kəsb edir.

YAP Sədrinin müavini diqqətə çatdırıb ki, Ulu öndərin adı ilə bağlı olan və hazırda onun siyasi varisi Prezident İlham Əliyevin Sədrliyi ilə uğurla inkişaf edərək Azərbaycana böyük nailiyyətlər qazandıran Yeni Azərbaycan Partiyası da Heydər Əliyev ideyalarının təşviqi yönündə müxtəlif tədbirlər reallaşdırmaqdadır.

Sonra çıxış edən elm və təhsil naziri Emin Əmrullayev, Dövlət Neft və Sənaye Universitetinin rektor əvəzi Vazeh Əskərov, Milli Məclisin deputatı Kamal Cəfərov, YAP Veteranlar Şurasının üzvü Əli Həsənov, "Heydər Əliyev siyasi məktəbi" layihəsinin iştirakçısı, şəhid bacısı Nuranə Hüseynzadə müstəqil Azərbaycanın bugünkü inkişaf səviyyəsinə çatmasında, dünya birliyində layiqli yer tutmasında Ulu öndərin müstəsna xidmətlərindən danışıblar.

Sonda universitet tələbələrinin ifasında bədii hissə təqdim olunub.

*XQ*

## Zəfər qoxulu sətirlər

**Samir müəllim universitetin tarix fakültəsinin məzunu idi, həqiqi hərbi xidmətin son üçüncü ayında zabit hazırlığı kursunu bitirmişdi. Düşmənlə təmas xəttində xidmət edən tağımın əsgərləri ondan hərbi biliklərlə yanaşı, Vətənə sevgini də öyrənirdilər. Bu sevgi Qorqud dədənin deyimlərinin, ana öyüdlərinin, ata tövsiyələrinin, min illərdən gələn milli ruhun işığı idi. Qüdrət işığıydı...**

Anasının ili çıxmamış atasının da dünyasını dəyişməsi, bacısının tək qalması onun ruhunda qara yellər əsdirmişdi. Qəlbinə qan sızmışdı, dərd üstünə dərd gəlmişdi. "Dünyanın ən ağır dərdi çıxılmazlıq dərdidi. Orduya döyüşçü olmaq niyyətiylə gəlmişdim, qardaş olaraq borcumu yerinə yetirənə kimi Tanrı mənə ömür versin, döyüşlər başlayanda döyüşənlərin sırasında mən də olacam..." – raportunu bu niyyətlə yazmışdı. Ailə vəziyyətinə görə tərxis edilmişdi.

# Müəllim və şagirdi yanaşı döyüşdülər...

Samir müəllim orta məktəbdə tarix müəllimi işləyirdi. Şagirdləri dərsdən sonra onunla söhbətləşməyi sevir, onu maraqla dinləyirdilər. Bu söhbətlər bəzən saatlarla uzanırdı. Hərdən şagirdlərinə Birinci Qarabağ müharibəsindən, atasının xatirələrindən də söz açırdı.

Atasının xatirələrindən: – Beş döyüşçü idik. Sursatımız azalırdı. Gizir tapşırdı ki, döyüşə-döyüşə geri çəkilin, dərəni keçib sağa dönün. Mən Kərimlə sizi himayə edəcəm. Bir-bir sağdakı daşlığa sarı süründük. On-on beş addımdan sonra dönüb atışacaqdıq. Ona kimi gizirlə Kərim daşlığın solunda mövqe tutacaqdı. Döyüşə-döyüşə xeyli uzaqlaşdıq. Düşmən bizi himayə edən iki döyüşçümüzlə – Gizir və Kərimlə atışmağa macal tapmadı. Gizir himayə atışını hücum atışına çevirmişdi ki, düşmənin başı qarışsın. Onlar yedd-səkkiz düşmənlə döyüşürdülər...

Kərim şəhid oldu. Gizir döyüşə-döyüşə Kərimi oradan uzaqlaşdırmağa çalışıb. Gün yaxa-yaxda gizirin də barmağı avtomatın tətiyindən üzülüb...

Belə söhbətlərdən sonra Samir müəllim də, şagirdləri də vaxtdan gileyli qalardılar, O, çarəsizliklə əlini yelləyib yanındakı şagirdin kürəyinə toxunur, "Gedin, sabahkı dərslərinizi öyrənin, söhbətimizi sonra davam etdirərik..." – deyirdi. Vaxtın bunca tez ötüşdüyünə görə özü də sıxılırdı...

İlk dərs günü idi. Samir müəllim müharibədən, döyüşlərdən, qəhrəmanlardan, şəhidlərdən danışırdı:

– Atam döyüşlərin birində yaralanıb, sürünə-ürünə bir tərəfə çıxmaq istəyib. Şahpələng adlı döyüşçü onun qoltuğunun altından yapışıb arxaya çəkməyə başlayıb. Bu zaman atam görüb ki, torpağa qan sızır. Şahpələng yaralı ola-ola atamı döyüşdən çıxartmaq istəyib...

Atam hospitalda özünə gəlib, toxdayanda Şahpələngi soruşub. Ona mərkəzi hospitala təxliyyə edildiyini deyiblər. O, xilaskarını bir daha görə bilməyib...

Samir müəllim Bəhruzun gözlərinin dolub-boşaldığını sezdi. Ona yaxınlaşdı, əlini ahəstəcə kövrəlmiş şagirdinin çiyninə qoydu, heç nə soruşmadı.

Bəhruz qəhərlə: "Şahpələng mənim babamdı, müəllim", – dedi. Samir müəllim şagirdini köksünə sıxdı. Dərsin sonuna kimi heç kim dillənmədi. Nə onlar, nə də şagirdlər. Bəhruzun kürəyinə, Samir müəllimin köksünə yaş damlaları düşürdü...

Bəhruz orta məktəbi bitirmişdi. Hərbi xidmətə gedəcəyi günün axşamı atası babasının döyüşçü dostu olmuş Samir müəllimlə vidalaşmağa getmişdi.

– Uğur olsun, Bəhruz. Ali Baş Komandan döyüş əmri verəndə birlikdə döyüşərik. Mən atamın döyüş yolunu davam etdirərəm, sən babanın....

Vətən müharibəsi başladı. Samir müəllim böyük israrla döyüşə gedə bildi. Kəşfiyyat tağımında xidmət edirdi. Füzuli istiqamətində növbəti hücum ərəfə-sində hərbi hissəyə gələn döyüşçüləri görəndə Samir müəllim



həyəcanla səslədi: "Bəhruzzz!". Bəhruz babasının döyüş yoldaşının oğlunu – Samir müəllimi tanıdı. Həsrətlilər kimi qucaqlaşdılar.

– Sizinlə burada, cəbhədə görüşəcəyimə inana bilmirəm, müəllim, – Bəhruzun gözlərində sanki sevinc çiçəkləmişdi...

– Razılaşmışdıq ki, birlikdə döyüşəcəyik. Samir müəllim şagirdinin avtomatının qundağından yapışdı: –Barmağın tətikdə titrəməsin...

O gün müəllimlə şagirdin döyüş yoldaşı olması hərbi hissədə hamını duyğulandırdı...

Kəşfiyata gedirdilər. Samir müəllim və beş döyüşçü. Bəhruz da onların arasında idi.

Düşmənin mövqelərinə yaxınlaşmışdılar. Samir müəllimlə Tahir beş-altı addım qabaqdaydı, o biriləri iki-iki arxada, sağda və solda. Qarşı yaxanı müşahidə etmişdilər. Düşmən döyüş texnikalarını sazlayırdı. Döyüşçülərin vurnuxmasından hiss olunurdu ki, tapşırıq üçün vaxt azlığı var...

Qayıtmağa hazırlaşırdılar. İki-üç addım atmamış atəşə tutuldular. Samir müəllimlə Səfər himayə atışı aparırdı, digərləri isə atışa-atışa uzaqlaşırdılar. Düşmən atəşi getdikcə sıxlaşırdı. Samir müəllimin əmri ilə Tahir məlumatları çatdırmaq üçün döyüşün içindən sıyrılıb uzaqlaşmışdı.

...Bəhruz yaralanmışdı. Samir müəllim onu təhlükəsiz yerə çıxarmaq istəyirdi. Dikələ bilmirdi. O biri döyüşçülər atışa-atışa geri çəkilməkdəydilər. Samir müəllimin Bəhruzu döyüşün içindən çıxarda bilmədiyindən xəbərsiz idilər...

Gün bir çatı boyunca qalxmışdı.

Köməyə gələnlər gördüklərindən heyrətləndilər: Samir müəllimin sağ qolu Bəhruzun başının altındaydı, Bəhruzun sol qolu Samir müəllimin kürəyində...

Çöldə çalpaşıq yel əsirdi...

*Rəşid FAXRALI,*
*hərbi jurnalist*

Gülxar Həsənova – 105

# Səhnəmizin Ərəbzəngisi

**Şərqdə ilk opera yazan qadın-bəstəkar, Xalq artisti Şəfiqə Axundova mətbuata açıqlamalarından birində deyib: "Bir dəfə tanınmış şəxsiyyətlərlə bərabər, Üzeyir bəylə mən də "Şah İsmayıl" operasına tamaşa edirdik. Ərəbzəngini Gülxar oynayırdı. Böyük həvəslə baxırdıq. İnandırım sizi, zalda o qədər sakitlik var idi ki, elə bil kimsə yox idi. Tamaşadan sonra Üzeyir bəy başını bulayaraq dedi: "Bu qız Ərəbzəngini necə oynayırsa, mən yadımdan çıxarıram ki, bu, Gülxardır. Elə bilirəm ki, hansısa bir kişi müğənnidir. Halaldır ona".**

Söhbət opera müğənnisi, "Şöhrət", "Şərəf nişanı" ordenli, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuş Gülxar Həsənovadan gedir.

Gülxar xanım 1918-ci il dekabrın 10-da Şəmkir rayonunun Bayramlı kəndində bəy ailəsində anadan olub. Valideynləri onu həkim görmək istəyirdilər. Bu məqsədlə onu Bakıya, xalasıgilə gətirirlər. Gülxar imtahanlardan yüksək qiymət alaraq tibb texnikumuna qəbul olunur. Ancaq musiqiyə olan istəyi, həvəsi bir an da olsun onu tərk etmir. Buna görə də özfəaliyyət dərnəyinə yazılır. Burada dövrünün məşhur tarzənlərindən Məmmədxan Bakıxanovun "Qızlar ansamblı"na dəvət alır. Nəfəsli alətlərin ifaçılığı ilə yanaşı, yaxşı səsi olduğu üçün xalq mahnıları da oxuyur.



Gülxar tibb texnikumunu bitirdikdən sonra N.Nərimanov adına Tibb İnstitutuna qəbul olunur. Ancaq "Xalq düşməni"nin ailə üzvü olduğu üçün onu institutdan xaric edirlər. Çünki, qohumu Həmid Sultanov və onun həyat yoldaşı Ayna Sultanovanı həbsə atmışdılar, atasını, qardaşlarını təqib edirdilər.

Qızının taleyindən narahat olan İbrahim ağa gizli yolla ona başqa bir doğum şəhadətnaməsi yazdırır.

Bakı Teatr Texnikumuna qəbul olunan Gülxar həm də Gənc Tamaşaçılar Teatrında işə düzəlir. Az sonra səhnədə onun çıxışını izləyən Üzeyir bəy təkidlə Gülxarı Opera Teatrına dəvət edir. Gülxar xanım 1942-ci ildən 1980-ci ilədək Azərbaycan Opera və Balet Teatrının solisti olur. "Leyli və Məcnun"da Leyli və Leylinin anası, "Əsli və Kərəm"-də Əsli, "Koroğlu"da xanəndə qız, "Aşıq Qərib"də Şahsənəm, "Şah İsmayıl"da Ərəbzəngi, "Bahadur və Sona"da Təravət xanım, "Arşın mal alan"da Telli, "Vaqif"də Qarı, "Gəlin qayası"nda Ana kimi yaddaqalan obrazlar yaradır.

Eyni zamanda, Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsini bitirir. 1980-ci ildən isə Gənc Tamaşaçılar Teatrının məşqçi-pedaqoqu kimi çalışır. Amma mütəxəssislər Gülxar xanımın opera sənəti tarixində bənzərsiz Ərəbzəngi olduğunu xüsusi vurğulayırlar. O, soprano səs tembri ilə parlaq koloritli bir obraz yaradıb, muğam, xalq mahnı və təsniflərimizi özünəməxsus ifa edib.

**Gülxar xanımla uzun illər bir yerdə çalışmış tarzən Elxan Mansurov:**

–Onu əksər rollarında mən müşayiət etmişəm. Çox güclü səsi var idi. Ərəbzənginin əvəzsiz ifaçısı idi. Atam Bəhram Mansurovla da çox işləyib. Müharibədə əsgərlər qarşısında çıxış ediblər. Sənət fədaisi idi. Həyat yoldaşını, oğlunu itirdi, amma sınmadı, güclü qadın idi. Səsindən başqa, aktyorluğu da yüksək səviyyədə olub. Şəfiqə Axundova "Gəlin qayası" operasını hazırlayanda ona çox kömək edib.

**Opera və Balet Teatrının baş rejissoru Hafiz Quliyev:**

– Fəxr edirəm ki, Gülxar xanımla bir yerdə işləmişəm. Sağlığında yubileyinin rejissoru və aparıcısı olmuşam. Sonra da 100 illik yubileyini də mən hazırlamışam. Opera sənətində onun özünəməxsus yeri var. Ən çox yadımda Ərəbzəngi kimi qalıb. O obrazda gözlərindən bir cəngavərlik oxunurdu. Səhnəyə vurğun adam idi, pedaqoq kimi fəaliyyəti də çox uğurlu olub. Oynadığı obrazları yeni gələn ifaçılara həvəslə öyrədirdi. Dünyasını dəyişənə qədər teatrdan ayağını çəkmədi, təqaüddə olsa da, gəlib-gedirdi. Allah rəhmət eləsin.

Gülxar Həsənovanın ailəsi də teatr truppasını xatırladırdı. O, aktyor Ağadadaş Qurbanovun həyat yoldaşı, Hamlet Qurbanovun anası, aktrisa Gülşən Qurbanovanın isə ögey anası idi. Böyük sənətkar 2005-ci il martın 31-də 87 yaşında dünyasını dəyişib.

*Ramilə QURBANLI*
*XQ*

# "Bir cüt tərlan"dan görünən Zəngəzur

**Ötən əsrin əvvəllərində xalqımıza qarşı erməni millətçilərinin törətdiyi soyqırım uzun illər boyu unutdurulmağa çalışılmışdı. Xüsusilə də Qərbi Azərbaycan və Qarabağ bölgəsində 1918–20-ci illər olaylarının gerçək mahiyyəti xalqımıza açıqlanmırdı. Amma sovet rejiminin sərt ab-havası şəraitində belə yazıçılarımız bu barədə nələrisə deməyə, yazmağa çalışıblar. Belə şəxsiyyətlərdən biri də Xalq yazıçısı Əli Vəliyev idi.**



Andranik Ozanyanın quldur dəstələrinin hücumu nəticəsində valideynlərini itirmiş gələcək yazıçı "Budağın xatirələri", "Qarabağda qalan izlər" və digər əsərlərində həmin müsibətləri öz qan yaddaşına söykənərək qələmə alıb. Ermənistanda Andranikə heykəl qoyulanda buna qarşı etiraz səsini ucaldıb.

"Bir cüt tərlan" povesti Əli Vəliyevin Zəngəzur mövzusunda yazdığı ən ciddi əsəridir. Povestdə 1918-ci ilin dramatik hadisələri daşnak-bolşevik qarşıdurması kontekstində əks edilsə də, erməni şovinizmi əsərin aparıcı mövzusudur. Azərbaycan türkləri ilə ermənilər arasındakı ziddiyyət nankor qonşuların Haral meşəsində donuz saxlaması kontekstində əks etdirilir. Təbii ki, müsəlman əhali bundan narazıdır və ermənilərin üzərinə hücum eləmək istəyir. Lakin milli ədavətin qızışdıılmasında əsas rolu daşnak hökümətinin başçıları oynayır. Əli Vəliyev xisləti xəyanət, məqsədi günahsız insanların qanını tökmək olan Dro və xüsusən də Qaregin Njdenin timsalında Azərbaycan xalqına qarşı erməni millətçilyini ifşa edir. Yazıçı erməni Magicin dilindən Zənzəgurun Azərbaycana bağlığını belə ifadə edir: "Daşnakların bu saat qorxduqları yer Zəngəzurdur. Səbəbi budur ki, Zəngəzur birbaşa Bakı ilə bağlıdır. Bir də Zəzgəzurun şəhər və kəndlərində çoxlu Bakı fəhləsi, bolşevik vardır".

Müəllif daha sonra erməni millətçilərinin bolşevik axtarmaq bəhanəsi ilə Gorusdakı müsəlman mülklərini dağıtdıqlarından yazır. Təbii ki, daşnaklar 1918–20-ci illərdə bu qırğınları törətməklə Zəngəzurun türk-müsəlman əhalisini tamamilə qırmaq, onu, qeyd edildiyi kimi, Bakıdan ayırmaq məqsədi güdürdülər. Əsərdə bu məqamlara xüsusi diqqət yetirilib. Belə ki, daşnakaların iştahasından Bakıda, Gəncədə, Şamaxıda Hayastan bayrağını sancmaq keçir. Onlar həmçinin gürcü menşevikləri ilə danışaraq, Qazax və Zaqatala ərazilərini Azərbaycandan qoparmaq istəyirlər.

Yazıçı Əli Vəliyev əsəri sovet dövründə yazmasına baxmayaraq, erməni millətçilərinin mənfur niyyətlərini ifşa edirdi. O, Njdenin qaniçən obrazını realist boyalarla əks etdirə bilmişdir. Qəddar fəaliyyətiylə məşhur olan Njdeni müəllif istehzalı şəkildə "kral" adlandırır. Bolşevikləri tutmaq bəhanəsi ilə obalara yürüş edib, insanları qayadan atdıran Njde Teymur adlı azərbaycanlını aldadır. Belə ki, bolşevikləri tutmaq bəhanəsi ilə ona müsəlmanlarla işi olmadıqlarını desə də, əsgərlərinə Teymuru öldürtməyi tapşırır. Əsərdə Njdenin təkcə türk-müsəlman deyil, erməni əhalisinə qarşı da cinayətlərindən bəhs olunur. Daşnakların cinayətlərdən ermənilər də bezar olurlar. Bu baxımdan Ə.Vəliyev erməni qızı Armenakın dilindən belə yazır:

*Zəngəzurun daşnakları,*
*Bellərində çaxmaqları,*
*Bizə "kral" gətirdilər –*
*Dro kimi axmaqları,*
*Njde kimi sarsaqları.*

Çox güman ki, bu şeir parçasını Ə.Vəliyev elə o zamanlar eşitmiş və qələmə almışdı. Cəlladların fəaliyyəti sadə insanların yaddaşında məhz belə qala bilərdi.

Daha maraqlı bir məqam isə Qəssabyan soyadlı ermənin fəaliyyəti ilə bağlıdı. İşi-gücü Njdeyə xəbər çatdırmaq olan bu ermənin cibində həm daşnak, həm də boşevik firqəsinin bileti var. Yazıçı əsərdə Qəssabyan kimi adamlara aldanmamağa çağırış edir. Bu, əslində, uzaqgörənliyin ifadəsi idi. İçində daşnak və bolşevikliyi çulğalaşdırmış ermənilər 80-ci illərin sonunda Qafqazda milli ədavəti yenidən qızışdırdılar, olmazın faciələr törətdilər və yüz minlərlə azərbaycanlını dədə-baba torpaqlarından didərgin saldılar.

"Bir cüt tərlan"da bəhs olunan hadisələr cümhuriyyət dövründə baş verdiyindən, 1918-ci il "Hürriyyət ili" kimi qeyd edilir. Bu da təsadüfi deyil, xalq yaddaşından qopan söz birləşməsinin povestdə ehtivasıdır. Əsərdə Cümhuriyyət dövründə Qarabağın general-qubernatoru olmuş Xosrov bəy Sultanovun da obrazı var. Təbii ki, sovet dövründə bu şəxsiyyətə münasibət mənfi olmuşdu. Amma tarixdən o da məlumdur ki, Xosrov bəy Qarabağın, Zəngəzurun türk-müsəlman əhalisini erməni millətçilərinin hücumlarından mətanətlə qoruyub. Povestdə bu məqam maraqlı şəkildə əksini tapıb. Belə ki, Abbas, Nəzər kimi bolşeviklər Njdeni qanlı hücumlardan çəkindirmək üçün Xosrov bəyin adından məktub yazaraq onu Azərbaycan Ordusunun 25 minlik ordusu ilə hədələyirlər. Bundan qorxuya düşən Njde nəhayətdə talan və qırğınları dayandırmalı olur və bu daşnak cəlladı Hadrutdan qaçır. Bu epizod, əslində, 1920-ci ilin martında baş verən döyüşləri xatırladır. Bildiyimiz kimi, Azərbaycan Ordusu o zaman da erməni millətçilərini yerlərində oturda bilmişdi…

"Bir cüt tərlan" əsəri, bütövlükdə, Zəngəzurla bağlı yaddaşı diriləndən əsərdir. Bu povestdə yer adları, müxtəlif nəsillər yada salınır. Hazırda – Qərbi Azərbaycana qayıdış məsələsi aktuallaşdığı bir məqamda bu əsərə yenidən qayıtmağın da faydalı olacağını düşünürük. Azərbaycan dilinin zəngin çalarlarıyla yazılan bu povestin latın əlifbasında yenidən nəşri məqsədəuyğun olardı.

*Ceyhun MİRZƏLİ*

# Mədəniyyət xəbərləri

## Yazıçılarımızın əsərləri xarici portallarda




***Almaniyanın populyar "Schreiber Netzwerk" ədəbiyyat portalı Dövlət Tərcümə Mərkəzinin "Azərbaycan ədəbiyyatı beynəlxalq virtual aləmdə" layihəsi çərçivəsində Azərbaycanın Xalq yazıçısı Yusif Səmədoğlunun alman dilinə tərcümə edilmiş "Soyuq daş" hekayəsinin dərcinə başlayıb.***

Geniş oxucu auditoriyası tərəfindən izlənən bu ədəbiyyat portalı mütəmadi olaraq səhifələrində dünyaşöhrətli yazıçı və şairlərin yaradıcılığına yer ayırır. Yusif Səmədoğlunun yaradıcılı-



ğı haqqında məlumatla təqdim olunan hekayənin alman dilinə tərcümə müəllifi tanınmış filoloq-alim Vilayət Hacıyev, redaktoru Hans-Jürgen Maurerdir.

İspaniyanın populyar "Alquibla" ədəbiyyat portalı isə həmin layihə çərçivəsində tanınmış Azərbaycan yazıçısı, Əməkdar incəsənət xadimi Orxan Fikrətoğlunun "Son igidin nağılı..." hekayəsini təqdim edib. Geniş oxucu auditoriyası olan portalda Fyodor Dostoyevski, Xuan Gil Albert, Qustavo Adolfo Bekker, Ceyn Ostin, Virciniya Vulf, Jan Pol Sartr, Emil Zolya, Roke Dalton Qarsia kimi dünyaşöhrətli yazıçı və şairlərin yaradıcılığına da işıq salınıb.

Növbəti sayda Orxan Fikrətoğlunun yaradıcılığı haqqında məlumatla bərabər dərc olunan hekayəni ispan dilinə yerli filoloq Fransisko Kapilla Martin və ispan dili mütəxəssisi Tutuxanım Yunusova tərcümə ediblər.

## Milli istiqlal şairi Salyanda anılıb

***Çağdaş Azərbaycan poeziyasının korifeylərindən olan Xalq şairi Məmməd Arazın 90 illik yubileyi münasibəti ilə keçirilən tədbir hər kəsə unudulmaz təsir bağışlayıb.***

Əvvəlcə unudulmaz şairin həyat və yaradıcılığına həsr olunan videoçarx nümayiş etdirilib. Sonra mərasimdə AMEA Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədli, Azərbaycan Yazıçılar Birliyinin Muğan Bölməsinin sədri, yazıçı-publisist Nəbi İbrahimov, Salyan rayonunda çıxan



"Qələbə" qəzetinin əməkdaşı, şair-publisist Əzizağa Məmmədli, Salyan şəhər 2 nömrəli tam orta məktəbin dil-ədəbiyyat müəllimi, Dilçilik İnstitutunun dissertantı Günel Orucova çıxış edərək, Xalq şairi Məmməd Arazın xatirəsinin ölkəmizdə daim ehtiramla yad edildiyini və yubiley tədbirlərinin ölkə səviyyəsində sevgi ilə qeyd olunduğunu bildiriblər.

Diqqətə çatdırılıb ki, yaradıcılığında, əsasən, Vətənə, torpağa bağlılıq, vətəndaşlıq mövzularına müraciət edən şairin poeziyası bu gün də aktuallığını qoruyub saxlayır, onun şeirlərinə mahnılar yazılır və bu mahnılar dillər əzbəridir. Məmməd Arazın sənəti, yaradıcılığı, əsərləri hər zaman yaşayacaq və müstəqil dövlətçiliyimizin möhkəmlənməsinə xidmət edəcək.

Daha sonra tanınmış şair Zabil Pərviz Məmməd Arazla unudulmaz görüşlərindən danışıb, onunla bağlı xatirələrini bölüşüb. Tədbirin bədii hissəsində Məmməd Arazın müəllifi olduğu şeirlər, onun sözlərinə bəstələnmiş mahnılar ifa olunub.

*Ə.DOSTƏLİ*
*XQ*

# "Türk ədəbiyyatı"nın özəl nömrəsi

**Türk Ədəbiyyatı Vaqfının nəzdində buraxılan "Türk ədəbiyyatı" dərgisinin yeni sayı işıq üzü görüb. Azərbaycan ədəbiyyatına həsr edilən və "Şuşa özəl sayı" kimi oxuculara təqdim olunan dərgi Azərbaycan Yazıçılar Birliyi (AYB) və "Qobustan" jurnalı ilə birgə layihə əsasında hazırlanıb.**

Layihədə məqsəd Türk ədəbiyyatını qardaş ölkələrdə daha çox tanıtmaq və qarşılıqlı ədəbi mübadilələr etməkdir.

Dərginin bu nömrəsində Qarabağın baş tacı olan Şuşa şəhərinin tarixi, memarlıq abidələri, ədəbi məclislərindən bəhs olunur. Professor Okan Yeşilotun "Türkiyə–Azərbaycan əlaqələrinin gələcəyi: Şuşa bəyənnaməsi", AYB sədri Xalq yazıçısı Anarın "Qarabağ şikəstəsi" məqalələri xüsusi maraq doğurur. Dərgidə hər iki ölkənin digər qələm ustalarının Azərbaycan ədəbiyyatı, Qarabağ zəfəri və Şuşa mövzusunda yazıları da verilib. Faiq Ələkbərlinin Xan qızı Natəvan, Abdullah Gündoğdunun Əhməd Ağaoğlu, Dilqəm Əhmədin Azərbaycanın Türkiyədə ilk səfiri olmuş Yusif Vəzir Çəmənzəminli haqqında məqalələri bu qəbildəndir.




Özəl saydakı yazıların böyük qismi Azərbaycanın zəngin musiqisinə həsr edilib. Vural Yıldırım "Şuşadan dünyaya yayılan melodiya" məqaləsində dahi bəstəkar Üzeyir Hacıbəylinin milli musiqimizdəki xüsusi rolundan, Aleyna Malkoç Rəşid Behbudovun bülbül kimi xoş avazından, Sevda Nalan Gül dahi sənətkar Qara Qarayevdən söz açır.

Həmçinin Günel Anarqızının "Atama", Pərvinin "Qəhrəman Şuşa", İmdat Avşarın "Şuşaya zəfər yolundan dönmək" adlı esse və məqalələri dərgidə yer alıb. Molla Pənah Vaqif, Səməd Vurğun, Rəsul Rza, habelə Ramiz Qusarçaylı, Sabir Rüstəmxanlı və Rəşad Məcidin şeirləri oxucuya Azərbaycan poeziyasının möhtəşəmliyini bir daha xatırladır.

Qeyd edək ki, layihəyə əsasən, "Qobustan" jurnalının gələn il üçün ilk nömrəsi "Türkiyə Özəl sayı" olaraq işıq üzü görəcək.

*XQ*

# "Ulduz" jurnalının növbəti sayı

**İlin son sayı Elşad Baratın Vətən müharibəsi şəhidlərinə həsr edilmiş silsilə şeirləri ilə açılır."Şeir vaxtı"nda Günel Balakişinin, Xəyalə Sevilin, Zöhrab Mehdinin, İsmayıl İmanzadənin və Aysel Xanlarqızının şeirləri, "Nəsr" rubrikasında isə Məmməd Məmmədlinin "Mən atamı xatırlamıram" hekayəsi, eləcə də Günel Natiqin "İki simvol: bal və qarışqa" başlıqlı araşdırma yazısı yer alıb.**

"Ulduz" jurnalı ilə "525-ci qəzet"in ortaq layihəsi çərçivəsində Məti Osmanoğlunun hazırladığı "Gənc yazarlar üçün nəzəriyyə dərsi"nin cari mövzusu "Ədəbiyyatşünaslıq və təkamül nəzəriyyəsi"dir. İlham Abbasov romantizmin son cəngavəri adlandırılan, Nobel mükafatı laureatı Herman Hessenin həyat və yaradıcılıq yoluna nəzər salır.

Dilarə Adilgilin "Tək adam" başlıqlı yazısı Ənvər Məmmədxanlının 110 illiyinə həsr edilib. Şair, esseist, nasir, ssenarist və bəstəkar Bulat Okucavanın "Tərcümə saatı"nda yer almış şeirlərini dilimizə Hicran Hüseynova çevirib.

Taleh Mansurun təqdimatında "Yazı masası"nın budəfəki qonağı şair, publisist, Əməkdar incəsənət xadimi Barat Vüsaldır.



Şirməmməd Nəzərlinin "Natamam bir əsrin özəl nöqtələri" başlıqlı yazısı müəllifin keçdiyi həyat yoluna işıq salır.

Rəşid Faxralının "Gerçək nağıllar" mənzum hekayəsində Vətən müharibəsində canından keçmiş Vətən oğullarının qəhrəmanlıqlarından söhbət açılır.

"Ulduz" jurnalı böyük sayğı hissi ilə Azərbaycan Ordusunun 2023-cü ilin sentyabrında həyata keçirdiyi lokal antiterror tədbirləri zamanı şəhid olmuş Mustafa Hüseynovun bir zamanlar ifa etdiyi "Gəldim Qarabağa bahar çağında" başlıqlı şeirini təqdim edir.

Nəhayət, "Dərgidə kitab"da Nəriman Qasımoğlunun şair, ədəbiyyatşünas və tərcüməçi Qasım Qasımzadəyə həsr etdiyi "Türkiyə həm sizindir, həm də bizim" sərlövhəli yazısı, "Dərgidə sərgi" rubrikasında isə Şirməmməd Nəzərlinin çəkdiyi fotolar yer alıb.

*XQ*

BEYNƏLXALQ HƏYAT

# Qəzzada atəşkəsə “yaşıl işıq” yanmadı

**Qəzza zolağı böyük humanitar fəlakətin astanasındadır. BMT Təhlükəsizlik Şurasının cümə günü keçirilən iclasının iştirakçıları bu barədə xəbərdarlıq ediblər. Müzakirələrdən sonra Təhlükəsizlik Şurasının üzvləri humanitar yardım sektoruna çıxışı təmin etmək üçün tezliklə atəşkəs tələb edən qətnamə layihəsinə səs veriblər. Təhlükəsizlik Şurasına üzv olan 15 ölkədən 13-ü sənədin lehinə səs verib, lakin ABŞ veto hüququndan istifadə edib.**

Atəşkəs qətnaməsi üzrə səsvermə BMT Təhlükəsizlik Şurasının BƏƏ, Rusiya və Çinin tələbi ilə keçirilən açıq iclasından az sonra baş tutub. Sənədi Təhlükəsizlik Şurasının üzvü olan 15 ölkədən 13-ü dəstəkləyib. Lakin ABŞ vetosundan istifadə etdiyi üçün layihə qəbul edilməyib. Böyük Britaniya isə səsvermədə bitərəf qalıb. Qətnamə layihəsində bildirilirdi ki, Təhlükəsizlik Şurası girovların ilkin şərt olmadan dərhal azad edilməsini, habelə humanitar yardım üçün Qəzza zolağına çıxış üçün atəşkəs tələb edir. Layihədə, həmçinin “Qəzza zolağındakı fəlakətli humanitar vəziyyət və Fələstin mülki əhalisinin əzabından dərin narahatlıq” barədə fikirlər öz əksini tapıb.



Qətnamənin baxılmasının əsas təşəbbüskarı BMT-nin baş katibi Antonio Quterreş olub. Çərşənbə günü o, dünya təşkilatının rəhbəri olduğu müddətdə BMT Nizamnaməsinin 99-cu maddəsindən istifadə edərək ilk dəfə olaraq Təhlükəsizlik Şurasının sədrinə məktub göndərib. Onun mətnində deyilirdi: “Baş katib beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasına təhlükə yarada biləcək istənilən məsələni Təhlükəsizlik Şurasının (məlumat - “Kommersant”) diqqətinə çatdırmaq hüququna malikdir”. Məktubda baş katib Qəzza və İsraildə səkkiz həftədən çox davam edən döyüşlərin “İsrail və işğal olunmuş Fələstin ərazilərində dəhşətli insan iztirabları, fiziki məhv və kollektiv travma ilə nəticələndiyini” vurğulayıb. “Mən Təhlükəsizlik Şurasının üzvlərini humanitar fəlakətin qarşısını almaq üçün hər cür səy göstərməyə çağırıram. Mən humanitar atəşkəs çağırışımı təkrar edirəm. Bu təcilidir. Mülki əhali daha böyük zərərdən xilas edilməlidir”, - baş katib yazıb.

O, cümə günü Təhlükəsizlik Şurasının iclasında çıxışı zamanı fikirlərini təkrarlayıb. “Biz hamımız bilirik ki, İsrail HƏMAS və digər Fələstin qruplarının amansız terror hücumlarına cavab olaraq hərbi əməliyyata başlayıb. Mən birmənalı olaraq terror aktlarını pisləyirəm, 1,2 min insanın qəsdən öldürülməsinə, minlərlə insanın yaralanmasına, yüzlərlə insanın girov götürülməsinə heç bir əsas ola bilməz. 130-a yaxın girov hələ də əsirlikdədir və mən onları dərhal və qeyd-şərtsiz azad etməyə çağırıram. Eyni zamanda, HƏMAS-ın vəhşiliyi Fələstin xalqının kollektiv şəkildə cəzalandırılmasına haqq qazandıra bilməz”, – deyə o, bildirib.

Xatırladaq ki, İsraillə Fələstinin HƏMAS hərəkatı arasında müharibə oktyabrın 7-də silahlıların yəhudi dövlətinə hücumu ilə başlayıb. Qəzza zolağında bir gündə 1,2 mindən çox insan həlak olub, minlərlə insan yaralanıb, daha 250-yə yaxın insan girov götürülüb. Ölənlər, yaralananlar və oğurlananlar arasında İsrail vətəndaşları və yaşları 9 aydan təxminən 85 yaşa qədər olan xarici vətəndaşlar da var. Bundan əlavə, HƏMAS demək olar ki, hər gün İsrail ərazisinə raket zərbələri endirir. Buna cavab olaraq İsrail HƏMAS-a müharibə elan edərək, girovları azad edəcəyini və hərəkatın Qəzza zolağındakı hakimiyyətinə son qoyacağını vəd edib. Qəzza Səhiyyə Nazirliyinin məlumatına görə, İsrailin hücumları nəticəsində zolaqda olan qurbanların sayı 17,4 min nəfəri keçib, onların təxminən 40 faizi uşaqlardır.

İki aylıq döyüşlər zamanı beynəlxalq ictimaiyyət noyabrın sonunda cəmi bir həftəlik humanitar fasilə əldə edə bilib. Bu müddət ərzində Həmas 110 girovu, əvəzində İsrail isə 240 fələstinli məhbusu həbsdən azad edib. Dekabrın 1-də İsrailin quru əməliyyatını Qəzza zolağının şimalından cənuba qədər genişləndirməsi ilə döyüşlər yenidən başlayıb. Bunun fonunda beynəlxalq təşkilatlar Qəzza zolağında baş verən humanitar fəlakətlə bağlı həyəcan təbili çalır və orada təhlükəsiz ərazilərin qalmadığını vurğulayır. Qeyd edək ki, ABŞ hazırkı vəziyyətdə yeni qətnamələrin qəbulunun faydalı olmayacağına dair mövqeyini əvvəlcədən bildirib. Buna görə də, sənəd layihəsinin bloklanması təəccüblə qarşılanmadı.

***S.ELAY***
***XQ***

İDMAN

**Bakı dekabrın 5-dən 8-dək ev Azərbaycan Avtomobil Federasiyasının baş tərəfdaşlığı ilə Beynəlxalq Avtomobil Federasiyası (FIA) Baş Assambleyalarının iclaslarına və avtomobil idmanı sahəsində bu ilin yekununun ən mötəbər tədbirlərindən olan FIA Mükafatlandırma mərasiminə (FIA Prize-Giving Ceremony) ev sahibliyi edib.**

# Bakıda möhtəşəm FIA həftəsi uğurla başa çatıb



Bununla əlaqədar keçirilən FIA həftəsində iştirak etmək üçün 128 ölkədən nümayəndə və avtomobil klublarının təmsilçiləri, o cümlədən FIA prezidenti Mohammed Ben Sulayem, FIA rəsmiləri paytaxtımızda olublar. Həftə çərçivəsində müxtəlif tədbirlər keçirilib.

Paytaxt sakinləri və qonaqların diqqətini cəlb edən tədbirlərdən biri də FIA-nın yarışlarında qalib gələn avtomobillərin sərgisi olub. Sərgi FIA-nın tədbirlərinin keçirildiyi məkanlardan biri - Heydər Əliyev Mərkəzinin qarşısında təşkil edilib. Burada 2023-cü ildə Formula 1, Dünya Ralli Çempionatı, Dünya Ralli-Raid Çempionatı, FIA Dünya Dözümlülük Çempionatı, Dünya Rallikross Çempionatı, eləcə də, qalib pilotların idarə etdiyi avtomobillər nümayiş etdirilib. Avtomobil idmanı həvəskarları sərgidə bir daha həmin yarışların həyəcanını yaşayıblar.

FIA-nın Beynəlxalq Turizm Alyansının (AIT) 125 illiyi də həftəyə təsadüf edib və bununla əlaqədar AIT-in Baş Assambleyalarının toplantısı keçirilib. Dekabrın 6-da, həmçinin FIA Universitetinin məzunlarının toplantısı olub. Bakı toplantısında universitetin növbəti məzunlarına sertifikatlar təqdim edilib.

Dekabrın 7-də isə Azərbaycan Avtomobil Federasiyası (AAF) və Bakı Şəhər Halqası qonaqlar üçün caz-fusion gecəsi (Jazz Fusion Night) təşkil edib. Gecədə avtomobillər, memarlıq və caz sənətində mədəniyyətlərin sintezindən bəhs edilib, paytaxtımızda təşkil olunan Formula 1 Azərbaycan Qran-Prisi barədə təqdimat olub.

Dekabrın 8-də isə Heydər Əliyev Mərkəzində FIA Baş Assambleyasının illik yekun iclası təşkil edilib. Mərasimdə çıxış edən AAF-ın Anar Ələkbərov FIA Baş Assambleyasının və mükafatlandırma mərasiminin Bakıda keçirilməsinin önəmindən söz açıb. O qeyd edib ki, belə tədbirlərin təşkili ictimaiyyətin avtomobil idmanı sahəsinə marağının artırılmasına, həmçinin ölkəmizdə bütün yol hərəkəti iştirakçılarını təhlükəsiz, dayanıqlı və əlçatan hərəkətlilik mövzusunda maarifləndirməyə yönəlib.

Azərbaycan Avtomobil Federasiyasının, mütəmadi olaraq avtoidman sahəsində yarışlar, drift məşqləri, yolsuzluq avtomobilləri yürüşləri, kartinq yarışları, klassik avtomobillərin nümayiş olunduğu sərgi və yürüşləri təşkil etdiyini deyən federasiya prezidenti, Azərbaycanın 2016-cı ildən Formula 1 yarışlarına ev sahibliyi etdiyini vurğulayıb. Daha sonra Bakıda Formula 1 yarışının uğurla keçirilməsində göstərdiyi dəstəyə görə FIA-ya təşəkkürünü çatdırıb.

FIA həftəsi çərçivəsində fərqli formatlarda avtomobil idmanı və sənayesi sahəsində müxtəlif mövzuları müzakirə edilib. Səsvermə nəticəsində 2024-cü ilin iyunun 14-də keçiriləcək Baş Assambleyanın iclasının Özbəkistanın Səmərqənd şəhərində, dekabrın 13-dəki iclasının isə Ruandanın Kiqali şəhərində keçiriləcəyi təsdiq edilib.

Bakı Konqres Mərkəzində keçirilən FIA-nın mükafatlandırma mərasimində qurumun təşkilatçılığı altında baş tutan yarışlarda qalib gələn avtomobillər nümayiş olunub. Bakı təqdimatında FIA himni müasir, rəqəmsal səsləndirmə ilə diqqət çəkib. Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin solistlərinin ifası ilə davam edən Bakı şousunda milli geyimlərdə səhnəyə çıxan ifaçılar Azərbaycan xalqının mədəniyyətinin bir hissəsi olan musiqimizi təqdim ediblər. Şounun tamaşaçılar üçün gözlənilməz anlarından biri nağaraçıların bütün zalı əhatə edərək, qonaqların yanından qədim dövrlərə aparan ritmlərlə keçmələri olub.

Mərasimdə Xalq artistləri Alim Qasımov, Əlixan Səmədov, Natiq Şirinov və qrupu, Əməkdar artistlər Aleksey Miltıx, Emil Əfrasiyab, Fərqanə Qasımova, İsfar Sarabaski, həmçinin Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının Xalq Çalğı Alətləri Orkestri, “Mirvari” rəqs ansamblı çıxış ediblər.

Sonra səhnəyə çıxan FIA prezidenti Mohammed Ben Sulayem yarışlarda qələbə qazananları təbrik edib. Daha sonra Mohammed Ben Sulayem, AAF-ın prezidenti Anar Ələkbərov və digər rəsmi şəxslər 2023-cü ilin müxtəlif nominasiyalarında qalib olanlara mükafatlar təqdim ediblər.

“Formula 1”in prezidenti Stefano Dominikali mövsümü ikinci pillədə başa vuran və “Bakını sevirəm” sözləri ilə səhnəyə çıxan Serxio Peresi mükafatlandırıb. Təltif edilənlər sırasında “Oracle Red Bull Racing”in qalibi Kristian Horner, “Formula 1”də üçüncü dəfə dünya çempionluğunu qazanan Maks Ferstappen də olublar.

Mükafatlandırma mərasimində nəinki indiki qaliblər, keçmişdə müxtəlif yarışlarda mübarizə aparan, artıq vəfat etmiş çempionlar da yad edilib.

***Leyla QURBANOVA***
***XQ***


## Bakı Şəhər İcra Hakimiyyətinin “Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti

2024-cü ildə mənzil-kommunal xidmətlərinin göstərilməsinin təmin edilməsi məqsədilə tələb olunan müxtəlif növ malların satın alınması üçün

## AÇIQ TENDER ELAN EDİR

Lot - 1. 2024-cü ildə mənzil-kommunal xidmətlərinin göstərilməsinin təmin edilməsi məqsədilə tələb olunan müxtəlif növ malların satın alınması.

Tender iştirakçılarına təklif olunur ki,öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər (əlaqələndirici şəxs - Əhməd Məmmədov, 496-52-05) .

İştirak haqqı 8000,00 manatdır.

İştirak haqqı heç bir halda qeri qaytarılmır.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər: Bakı Şəhər İcra Hakimiyyətinin “Bakı Şəhər Əsaslı Tikinti və Təmir” Məhdud Məsuliyyətli Cəmiyyəti

H/h- AZ22IBAZ38030019446253269215
VÖEN-1702563281
Kod- 805625
VÖEN- 9900001881
M/h- AZ03NABZ01350100000000002944
SWİFT-IBAZAZ2X

İştirakçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər.

- tenderdə iştirak etmək üçün ərizə;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 90 bank günü müddətində qüvvədə olmalıdır);
- tender təklifinin 1 faizi həcmində bank təminatı;
- tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır;
- müqavilənin yerinə yetirilməsinin təminatı müqavilənin yerinə yetirilmə müddətindən sonra 30 bank günü çox olmalıdır. Müqavilənin yerinə yetirilməsi təminatı 5 faizdir;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə sənəd;
- mənfəət vergisinin bəyannaməsi (2022-ci ili əhatə etməli və hesabat vergi orqanı tərəfindən məktubla təsdiq edilməlidir. Təsdiq məktubu elektron qaydada əldə olunduqda notarial təsdiqlı təqdim edilməlidir);
- pul vəsaitlərinin hərəkəti haqqında hesabat, mənfəət və zərər haqqında hesabat (2022-ci ili əhatə etməli və hesabatlar müstəqil auditor tərəfindən təsdiq edilməlidir) ;
- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə;
- iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin,habelə işlərini idarə edənlərin,qulluqçularının peşəkar fəaliyyətləri,yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması,yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd;
- anbar sahəsinin olması barədə məlumat;
- mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektinə aid olması barədə məlumat.
- AZSİSO sertifikatı : 9001

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün ixtisas göstəricilərinə aid sənədləri 29 dekabr 2023-cü il saat 11.00-a, tender təkliflərini və tender təkliflərinin təminatlarını möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə Bakı, Nəcəfqulu Rəfiyev küçəsi 17 nömrəli ünvana 11 yanvar 2024-cü il saat 17.00-a qədər təqdim etməlidirlər.

İddiaçıların təklifləri 12 yanvar 2024-cü il saat 11.00-da Bakı, Nəcəfqulu Rəfiyev küçəsi 17 nömrəli ünvanda açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***



## Bakı Şəhər İcra Hakimiyyətinin “Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti

2024-cü il üçün Bakı şəhəri ərazisində dövlət mənzil fonduna aid binaların əsaslı təmirinin satın alınması məqsədilə

## AÇIQ TENDER ELAN EDİR

Lot - 1. 2024-cü il üçün Bakı şəhəri ərazisində dövlət mənzil fonduna aid binaların əsaslı təmirinin satın alınması.

Tender iştirakçılarına təklif olunur ki,öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər. (əlaqələndirici şəxs: Əhməd Məmmədov, 496-52-05).

İştirak haqqı 12000,00 manatdır.

İştirak haqqı heç bir halda qeri qaytarılmır.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

Bakı Şəhər İcra Hakimiyyətinin “Bakı Şəhər Əsaslı Tikinti və Təmir” Məhdud Məsuliyyətli Cəmiyyəti

H/h- AZ22IBAZ38030019446253269215
VÖEN-1702563281
Kod- 805625
VÖEN- 9900001881
M/h- AZ03NABZ01350100000000002944
SWİFT-IBAZAZ2X

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

-tenderdə iştirak etmək üçün ərizə;
-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
-tender təklifi (zərfləin açıldığı tarixdən sonra azı 120 bank günü müddətində qüvvədə olmalıdır);
-tender təklifinin 1 faizi həcmində bank təminatı ;
- tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır;
- müqavilənin yerinə yetirilməsinin təminatı müqavilənin yerinə yetirilmə müddətindən sonra 30 bank günü çox olmalıdır. Müqavilənin yerinə yetirilməsi təminatı 5 faizdir.
-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə sənəd;
- mənfəət vergisinin bəyannaməsi (2022-ci ili əhatə etməli və hesabat vergi orqanı tərəfindən məktubla təsdiq edilməlidir. Təsdiq məktubu elektron qaydada əldə olunduqda notarial təsdiqlı təqdim edilməlidir.) ;
- pul vəsaitlərinin hərəkəti haqqında hesabat, mənfəət və zərər haqqında hesabat (2022-ci ili əhatə etməli və hesabatlar müstəqil auditor tərəfindən təsdiq edilməlidir);
- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə sənəd;
-iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;
-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
-dövlət satınalmaları müsabiqəsində son 3 ildə iştirak etmiş oxşar işlərə aid azı 5000000 manat dəyərində bağlanmış müqavilələrin surəti (təsdiqli formada);

satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin,habelə işlərini idarə edənlərin,qulluqçularının peşəkar fəaliyyətləri,yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum

olunmaması,yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd;

- tədarük-təchizat zəncirinin idarə olunması üçün müvafiq kadr imkanları barədə məlumat (əsas şərtlər toplusuna əsasən – əlavə 2);
-mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektinə aid olması barədə məlumat;
- AZSİSO sertifikatları : 9001, 14001, 45001, 50001.
- müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması barədə sənəd.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün ixtisas göstəricilərinə aid sənədləri 27 dekabr 2023-cü il saat 10.00-a, tender təkliflərini və tender təkliflərinin təminatlarını möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə Bakı, Nəcəfqulu Rəfiyev küçəsi 17 nömrəli ünvana 11 yanvar 2024-cü il saat 17.00-a qədər təqdim etməlidirlər.

İddiaçıların təklifləri 12 yanvar 2024-cü il saat 10.00-da Bakı, Nəcəfqulu Rəfiyev küçəsi 17 nömrəli ünvanda açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 270 (30386) 10 dekabr 2023-cü il, bazar

## İdman xəbərləri

### Vüqar Həşimov Memorial-2023": 3 şahmatçı eyni xala malikdir



**Qəbələdə təşkil edilən şahmat üzrə "Vüqar Həşimov Memorial-2023" superturnirində daha 3 turun partiyaları keçirilib.**

Turnirin mətbuat xidmətinin məlumatına görə, 6 turdan sonra üç şahmatçının eyni xalı var. Hərəyə 7 xal toplayan Arjun Eriqaisi, Nicat Abasov və Aydın Süleymanlı ilk üçlükdə qərarlaşıb. Teymur Rəcəbov, Şəhriyar Məmmədyarov, Vidit Santoş və Rauf Məmmədov 4-7-ci sıralarda yer alıb. Onların 6 xalı var. Hərəyə 5 xalı olan Riçard Raport, Yorden Van Forest və Boris Gelfand turnir cədvəlinin son pillələrindədir.

### Moskvada gümüş və qızıl medal



**Azərbaycan idmançısı Aydın Əlibəyov Moskvada "Maksima Masters Avrasiya Kuboku"nun finalı və "Maksima Masters Avrasiya Ulduzları" mərhələ yarışlarında çıxış edib.**

İdmançımız atçılığın dresaj növündə 2 medal qazanıb. Belə ki, A.Əlibəyov ilk gündə "Prix Saint George" kateqoriyasında gümüş medal qazanıb. İkinci gündə isə "Intermediate 1" kateqoriyasında qızıl medala layiq görülüb.

### Azərbaycanın ən güclü boksçuları kimlərdir?



**Boks üzrə Azərbaycan çempionatı başa çatıb.**

Ölkənin müxtəlif şəhər və rayonlarının klublarını, həmçinin, idman cəmiyyətlərini təmsil edən yarışda 41 komandanın 167 boksçusu mübarizə aparıb. Çempionatda ən yaxşı boksçu adına Seyid Seyidov layiq görülüb. Elxan Quliyev ən yaxşı hakim, Rəhim Allahverdiyev isə ən yaxşı məşqçi adına sahib olub.

Müxtəlif çəki dərəcələrində Həsən Məlikov, Məsud Yusifzadə, Amin Məmmədzadə, Şamil Əsgərov, Maqsud Xasmetov, Tayfur Əliyev, Nəbi İsgəndərov, Sərxan Əliyev, Kamran Şahsuvarlı, Fəqan Məmmədov, Seyid Seyidov, Rauf Rəhimov, Yohanes Nuriyev birinci yeri tutublar.

Komanda hesabında "Neftçi" İdman Klubu 55 xalla birinci yeri tutub.

*Leyla SABİRQIZI*
XQ

## OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

*2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*




Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

## Texnologiya

### "X"in "GrokAI" proqramı

***Milyarder İlon Maskın sahib olduğu "X" sosial platformasının ChatCPT-yə rəqib olacaq süni intellekt proqramı – "GrokAI" istifadəyə veriləcək. Məlumatı "Associated Press" yayıb.***




Xəbərdə qeyd edilir ki, İlon Mask yeni AI çat-robotunun tezliklə "X Premium+" abunəçilərinə təqdim olunacağını bildirib. "GrokAI" real zamanda "X" sosial şəbəkəsi üzərində məlumat axını ilə paralel istifadə olunacaq.

Süni intellekt assistenti çat-şəbəkədə olanlara müvafiq xidmətlər göstərəcək. Bunun üçün abunəçilərin çox geniş məlumat bazasından faydalanması məqsədilə onlara son dəqiqə xəbərləri, birja trendləri və digər operativ məlumatlar ötürüləcək. Eyni zamanda, istifadəçilərə əyləncə imkanları da yaradılacaq.

XQ

# Unudulmaz Yusif Vəzir

### Sevginin gücü

**Yusif Vəzir gəncikən Aşqabadda Asiya adlı bir qıza dəlicəsinə vurulur. Qız da onu sevir. Bir gün dostları bir otağa çəkilib Kaxetiya şərabı içirlər. Yusif Vəzirə nə illah edirlərsə, içmir:**

– Fanatik olma, iç,– deyə cavanlar təkid edir.

– Fanatik deyiləm. Amma heç vaxt içmədiyim üçün adətimi pozmaq istəmirəm.

Nəhayət, dostlardan biri qədəhi ona uzadıb gülümsəyərək deyir:

– Asiyanın sağlığına.

Yusif Vəzir də qədəhi alır və təbəssümlə:

– Yaşasın!– söyləyib ilk dəfə şərab içir.

### 25 faiz qazanc hesabına qonaqlıq

**Yusif Vəzir Fransada mühaciratdə yaşayanda vəziyyəti son dərəcə ağırlaşır. Hətta gündəlik çörək pulunu belə qazana bilmir. Bir gün Parisdən kənarda kiçik bir şəhərin küçələrini dolaşarkən Rusiyada oxuyarkən tələbəlikdən tanıdığı Xristoforla rastlaşır. Görüşüb öpüşür, hal-əhval tuturlar. Yusif deyir:**

– Bizə 17 il əvvəl deseydilər ki, Xristoforla Fransada görüşəcəksiniz, inanmazdıq. Gör, həyat nə qəribədir?! Harada, nə zaman görüşdük...

Xristoforun da imkansız vaxtı imiş. Hər ikisinin cibi boş, qarnı ac. Dostu Yusifdən pul almağa ümid yeri olub-olmadığını soruşduqda, o, deyir:

– Burada qaçqın bir rus mühəriri var. Qəzetlərdən birinə "Şərq məktubları" yazır. Faktları, məlumatları məndən aldığından qazancının 25 faizini mənə verir.

Xristofor gülümsəyir. Beləliklə, dostlar həftədə bir dəfə görüşüb o



25 faizin hesabına doyunca çörək yeyirlər.

*Z.HÜSEYNLİ*
XQ

## "Qarabağ"ın xidmətində Bakı metrosu

**Azərbaycanı UEFA Avropa Liqasında təmsil edən "Qarabağ"ın növbəti oyunu ilə əlaqədar dekabrın 14-dən 15-nə keçən gecə Bakı Metropoliteni QSC-nin iş rejimində dəyişikliklər ediləcək. Bu barədə mətbuata Ağdam klubunun mətbuat xidmətindən məlumat verilib.**



Bildirilib ki, İsveç klubu "Hakken"ə qarşı keçiriləcək görüşlə bağlı Bakı Metropoliteni tərəfindən QSC-yə edilən müraciət müsbət cavablandırılıb. Qurum bunu nəzərə alaraq, matç günü metronun iş vaxtını gecə 1 saat uzadacaq. Gecə saatlarında arenadan çıxaraq metropolitenə daxil olacaq sərnişinlər üçün stansiyalar saat 01:00-a qədər girişə açıq olacaq.

Qeyd edək ki, dekabrın 14-də Tofiq Bəhramov adına Respublika stadionunda keçiriləcək "Qarabağ" – "Hakken" oyunu saat 21:45-də başlayacaq. Son tur öncəsi "Qarabağ" 7 xalla ikinci pillədə qərarlaşıb. "Hakken"in isə hesabında xal yoxdur.

XQ

## SƏRGİ

### Rənglərin "Zamanla dialoq"u

**Azərbaycan Milli İncəsənət Muzeyində "Şöhrət" ordenli Xalq rəssamı Tofiq Ağababayevin 95 illik yubileyi münasibətilə "Zamanla dialoq" adlı fərdi sərginin açılış mərasimi keçirilib.**

Tədbirdə çıxış edən Azərbaycan Rəssamlar İttifaqının sədri Fərhad Xəlilov tanınmış rəssamın əsərlərinin bənzərsizliyi ilə seçildiyini vurğulayıb. Diqqətə çatdırıb ki, onun əl işlərində həyatın mənası, görüb-duyduğu dünyası əks olunub.

Xalq rəssamı Natiq Əliyev bildirib ki, Tofiq Ağababayevin həm onun həyatında, həm də 1980-ci illərdə fəaliyyət göstərən rəssamların həyatında müsbət mənada əvəzsiz rolu olub.

Xatırladaq ki, Tofiq Ağababayev 1946–1951-ci illərdə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq məktəbində təhsil alıb. O, 1953–1959-cu illərdə Baron Ştiqlist adına Sankt-Peterburq Rəssamlıq Akademiyasının keramika-şüşə fakültəsində təhsil alaraq, şüşə-keramika ixtisasına yiyələnib.

Xalq rəssamı monumental dekora-



tiv-tətbiqi sənət, qrafika və boyakarlıq sahəsində bir çox əsərlər yaradıb: "Azərbaycan lirikası" triptixi, Bakı Dövlət Sirkində "Azərbaycan sirki" mozaik lövhəsi 1967-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinin mükafatına layiq görülüb.

XQ

## Hava

### Hava yağmursuz keçəcək



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən dekabrın 10-da Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir.**

Yarımadanın bəzi yerlərində intensivləşəcəyi ehtimalı var. Səhər tədricən kəsiləcəyi, gündüz əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-şərq küləyi əsəcək, axşam arabir güclənən şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 5-10°, gündüz 11-14° isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunundan 763 mm civə sütununa yüksələcək, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Səhər qərb rayonlarından başlayaraq yağıntılar tədricən kəsiləcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək, gündüz arabir güclənəcək. Havanın temperaturu gecə 3-8°, gündüz 10-15°, dağlarda gecə 1-6°, gündüz 2-7° isti olacaq.

*Q. QASIMOV*
XQ

## Sağlamlıq

### Piylənmə necə yaranır?

**ABŞ-ın Kornell Universitetinin biotibbi tədqiqatlar şöbəsinin alimləri GIP geninin xüsusi variantının daşıyıcılarında çəkinin artmasına meyilliliyin azalmasını aşkarlayıblar. Tədqiqatın nəticələri "Molecular metabolism" jurnalında dərc olunub.**



Laboratoriya siçanları üzərində aparılan eksperiment göstərib ki, GIP geninin Q354 variantı piylənmənin inkişafının daha aşağı riski və artıq çəkinin əmələ gəlməsi ilə bağlıdır.

Tədqiqatçılar CRISPR-Cas9 texnologiyasından GIP reseptorunu kodlaşdıran gendən siçanların üzərində istifadə ediblər. Aşkarlanıb ki, orqanizmdə Q354 variantının daşınması zamanı qanda şəkərin miqdarına nəzarət edən və orqanizmə qidanın enerjiyə çevrilməsinə yardım göstərən insulinin yaranma prosesi daha effektiv gedir.

GIP reseptorunun variantı hüceyrə daxilində digərlərinə nisbətən dörd dəfə artıq müddətə qalır. Bu isə ona artıq miqdarda şəkərin emalı və orqanizmdən çıxarılmasının zəruriliyi barədə daha çox məlumat göndərmək imkanı verir. Bu cür xüsusiyyət daşıyıcılara şirin və yüksəkkalorili ərzaqların istifadəsi zamanı qlükozanın hamısını piyə çevirməməyə şərait yaradır.

XQ

## ALLAH RƏHMƏT ELƏSİN

ATU-nun uşaq stomatologiyası kafedrasının kollektivi kafedranın müdiri, professor Rəna Əliyevaya həyat yoldaşı

**YAŞAR ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4732
SİFARİŞ 3215
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00